Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 17 (6159) 8 may 2026-cı il | Qiyməti 40 qəpik

# İlham Əliyevin çıxışı Ermənistanı silkələdi



Bax:səh-2

## Kəmaləddin Heydərov qəbul keçirdi



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov Xankəndi şəhərində vətəndaşları qəbul edib.**

Adalet.az xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən bildirilib. Kəmaləddin Heydərov mayın 4-də Xankəndi şəhərində, Xankəndi şəhər Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları sakinlərinin qəbulunu keçirib. Fövqəladə hallar naziri tərəfindən qəbul edilən Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə Nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

## Azərbaycan Türkiyə ilə PUA istehsal edəcək



**Azərbaycan Türkiyə ilə birlikdə "SİVRİSİNEK" adlı pilotsuz uçuş aparatı (PUA) istehsal edəcək.**

Adalet.az xəbər verir ki, bunu "Report"a "Baykar" şirkətinin baş direktoru, "SAHA" İstanbul İdarə Heyətinin sədri Haluk Bayraktar deyib.

O bildirib ki, "SAHA 2026" Müdafiə, Aviasiya və Kosmik Sənayesi Sərgisində nümayiş edilən bütün PUA-lar Azərbaycanda olan zavodlarda istehsal olunacaq. Onlardan biri də "SİVRİSİNEK" adlı pilotsuz uçuş aparatıdır:

"Bu PUA müasir hərbi texnologiyalar sırasında diqqət çəkir. Kiçikölçülü bu aparat əsasən yer hədəflərinə qarşı istifadə üçün nəzərdə tutulub".

Qeyd edək ki, sözügedən aparatın uçuş məsafəsi versiyadan asılı olaraq təxminən 900-1000 kilometr təşkil edir. Bundan əlavə sistem "fire and forget" (at və unut) prinsipi ilə işləyir və bəzi modellərdə 10 km-dən 80 km-dək artıq hədəf vurma imkanına malikdir.

PUA-nın uzunluğu 3.8 metr, qanad açıqlığı isə 3.2 metrdir. Maksimum uçuş müddəti 8-9 saatdan çox ola bilir. Saatda təxminən 55 düyün və ya dəniz mili (1 dəniz mili 1.852 km-ə bərabərdir - red.) sürəti ilə hərəkət edir.

"SİVRİSİNEK" katapult vasitəsilə buraxılır, daxili yanma mühərriki ilə işləyir və süni intellekt dəstəyi ilə hədəftanıma funksiyasına malikdir. Sistem GNSS və elektro-optik idarətmə ilə təchiz olunub.

**Mütəxəssislərin fikrincə, bu tip PUA-lar həm müşahidə, həm də zərbə əməliyyatlarında istifadə oluna bilər və müasir döyüş şəraitində çevik, effektiv vasitə hesab olunur.**

## Aqil Abbas: Ədəbiyyat informasiya səs-küyündən daha güclüdür

Bax:səh-4

## "Ədəbiyyat adamı- 2026" sahiblərinə təqdim olundu



**Son illərdə ölkəmizdə müxtəlif ədəbiyyat tədbirləri keçirilir. Həmin tədbirlərdən biri də artıq ənənəyə çevrilmiş Azərbaycan Yaradıcılıq Fondu "Ədəbiyyat adamı-2026" adlanır. Bu il də həmin fondun mükfatı öz sahiblərinə təqdim olunmuşdur.**

Mükafat alanlar Azərbaycanın dəyərli imza sahibləridir. Laureatlar Əli Əmirli, Qulu Ağsəs, Kamran Nəzərli, Kənan Hacı, Kəramət Böyükçöl, Şəhanə Müşfiq, Elnarə Qaragözova, İntiqam Yaşar və Püstə Rəvan idi.

Sevindirici haldır ki, "Ədalət" qəzetinin baş redaktorunun birinci müavini şair, publisit, əməkdar jurnalist Əbülfət Mədətoğlu da həmin mükafatçılar sırasındadır.

Mükafata layiq görülən bütün laureatları təbrik edirik.

## Yol polisi "Təmiz hava" aylığı ilə bağlı tədbir keçirib




**Nəsimi Rayon Polis İdarəsi Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları rayon ərazisində "Təmiz hava aylığı" çərçivəsində maarifləndirici tədbir keçirib.**

Adalet.az DİN-ə istinadən xəbər verir ki, tədbir zamanı nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılıb, atmosferə normadan artıq zərərli maddələrin atılmasına səbəb olan nasazlıqların aradan qaldırılmasının vacibliyi diqqətə çatdırılıb.

Eyni zamanda, sürücülərlə profilaktik söhbətlər aparılıb, nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılmasının ətraf mühitin qorunması və insanların sağlamlığı baxımından əhəmiyyəti izah olunub.

Həyata keçirilən nəzarət-profilaktik tədbirlər çərçivəsində əsas diqqət yol hərəkəti iştirakçıları arasında məsuliyyətli davranışın formalaşdırılmasına, nəqliyyat vasitələrinin texniki sazlığının təmin olunmasına və ətraf mühitin mühafizəsinə yönəldilib.

Xatırladaq ki, ölkə ərazisində "Təmiz hava aylığı" ilə bağlı tədbirlər davam etdirilir.

## Rusiya Ukrayna ilə atəşkəs elan etdi

**Rusiya İkinci Dünya müharibəsində Qələbənin qeyd olunması şərəfinə 8 və 9 may tarixlərində atəşkəs elan edir.**

Adalet.az Rusiya mediasına istinadən xəbər verir ki, bu barədə ölkənin Müdafiə Nazirliyindən məlumat verilib. "Rusiya Federasiyası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Vladimiroviç Putinin qərarına əsasən, Böyük Vətən müharibəsindəki Qələbənin qeyd edilməsi şərəfinə 8-9 may 2026-cı il tarixlərində atəşkəs elan edilir", - bəyanatda qeyd olunub. Həmçinin bəyanatda bildirilib ki, Moskva atəşkəsin elan edilməsi ilə əlaqədar Kiyevin ondan nümunə götürəcəyini gözləyir. Daha əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski vurğulayıb ki, Kiyev Rusiyadan atəşkəslə bağlı rəsmi təklif almayıb.

## GÜNÜN LƏTİFƏSİ

**Kəndlərin birində 32 yaşlı müəllimənin 18 yaşlı şagirdə qoşulub qaçması xəbərini eşidən məktəb direktoru növbədən kənar iclas keçirir.**

40-50 yaşlı müəllimələrə:

**- Məndən xəbərsiz bir addım da atmırsınız, bundan sonra sizi məktəbə qardaşlarınız aparıb gətirəcək!**

Yaşlı müəllimələrdən biri:

**- Müdir, mənim qardaşım 10 ildi rəhmətə gedib.**

Müdir:

**- Kəs səsini, sən indidən qaçmağa bəhanə axtarırsan!**

# İlham Əliyevin çıxışı Ermənistanı silkələdi



**Mayın 4-də Ermənistanın paytaxtı İrəvan şəhərində ”Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısı keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə videobağlantı formatında çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

-Sabahınız xeyir və Bakıdan salamlar. Əvvəlcə mən ”Avropa Siyasi Birliyi”nin Zirvə görüşündə çıxış üçün etdiyi dəvətə görə Prezident Koştaya təşəkkürümü bildirmək istəyirəm.

Prezident Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı biz Zirvə görüşündə iştirakımı müzakirə etdik və razılaşdıq ki, mən tədbirə videobağlantı formatında qoşulacağam. Mən, həmçinin auditoriyanı məlumatlandırmaq istərdim ki, bir il öncə Tiranaya səfərim zamanı Prezident Koşta və Prezident Fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyimi soruşdular. Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən ”Avropa Siyasi Birliyi”nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan, həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik.

Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib.

Sülh sahəsində digər nailiyyət bağlantılardır. ”Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu” Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər. Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm. Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA). Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.

İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - biləkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, ”Avropa Siyasi Birliyi”nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın.

Yekun olaraq mən Baş nazir Paşinyanı ”Avropa Siyasi Birliyi”nin Zirvə görüşünün Ermənistanda keçirilməsi ilə bağlı təbrik etmək istəyirəm. Bildirirəm ki, prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir. Mən Zirvə görüşünə uğurlar arzu edirəm. Sağ olun.

# "Azərbaycan qazının Aİ ölkələrinə ixracının ikiqat artırılması mümkündür"

**Azərbaycan təbii qazının Avropa İttifaqı (Aİ) ölkələrinə ixracının ikiqat artırılması prinsip etibarilə mümkündür.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov İtaliyanın Formiche.net portalına müsahibəsində deyib.

Onun sözlərinə görə, ən əsası bu, yeni ideya deyil: ”Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen 2022-ci ilin iyulunda Bakıya səfər edərkən Aİ və Azərbaycan enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu sənədin məqsədi Cənub Qaz Dəhlizi infrastrukturunun genişləndirilməsi və beləliklə də 2027-ci ilə qədər Azərbaycan qazının Avropa İttifaqı ölkələrinə ixracının ikiqat artırılaraq, ildə 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılmasıdır”. E.Əmirbəyov bildirib ki, bu proses artıq başlayıb:



”Biz həmin hədəfə doğru irəliləyirik. TAP-ın genişləndirilməsi istiqamətində birinci mərhələsi 2026-cı ilin yanvarında istismara verilib və bu, Avropaya illik 1,2 milyard kubmetr əlavə ötürmə gücü qazandırıb. Bu əlavə həcmin 1 milyard kubmetri İtaliyaya yönləndirilir. Bu, dəhlizin statik olmadığını, əksinə, Avropanın enerji ehtiyaclarına cavab olaraq davamlı inkişaf etdiyini göstərir”.

Xüsusi tapşırıqlar üzrə nümayəndə qeyd edib ki, eyni zamanda, daha çox iş görmək üçün aydın potensial mövcuddur: ”Azərbaycan Avropaya qaz tədarükünü artırmağa hazır olduğunu dəfələrlə bəyan edib. Lakin bunun üçün Cənub Qaz Dəhlizinin infrastrukturunun daha da genişləndirilməsi tələb olunur. Bu isə hasilatın və qaz kəmərinin ötürücülük qabiliyyətinin artırılması məqsədilə yeni investisiyaların cəlb edilməsini zəruri edir. Hazırkı geosiyasi qeyri-müəyyənlik şəraitində bu ötürmə gücünün genişləndirilməsi getdikcə daha çox Avropanın strateji maraqlarına cavab verir. Burada maliyyələşmə həlledici əhəmiyyət daşıyır. Avropa enerji təchizatı mənbələrini şaxələndirmək istiqamətində səylərini davam etdirərkən, müvafiq Avropa İttifaqı institutları zəruri investisiyalar üçün maliyyə şəraitinin yaradılmasına mühüm töhfə verə bilər”.

# «Zəngəzur dəhlizinin istifadəyə verilməsi region üzərindən daha çox yüklərin...»

**”Prezident İlham Əliyevin 2026-cı il 4 may tarixində bir sıra ölkələrin və Avropa təşkilatlarının rəhbərlərinin iştirakı ilə keçirilən ”Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışı, bir neçə əsas mesaj üstündə qurulmuşdur. Çıxışda Azərbaycan və Ermənistan arasındakı iqtisadi əlaqələrə toxunuldu. Azərbaycan və Ermənistan münasibətlərinin normallaşması isitqamətində ciddi addımların atıldığı, bu günədək Azərbaycan ərazisindən Ermənistana 28 min ton yükün çatdırıldığı və 12 min ton neft məhsullarının ixrac olunduğu bildirildi”.**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Ceyhun Məmmədov deyib. Millət vəkilinin sözlərinə görə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi region üzərindən daha çox yüklərin daşınmasına, eyni zamanda region ölkələrin bundan daha



çox faydalanmasına imkan yaradacaq:

”Bu ticarət münasibətlərinin başlanması deməkdir. Daha sonra, Prezident çıxışında Avropa Parlamentini Azərbaycanla Ermənistan arasında sülh prosesini sabotaj etməyə yönələn addımlar atdığını bildirdi və Avropa Parlamentini sərt tənqid etdi.Avropa Parlamentinin Azərbaycan əleyhinə qərəzli və təxribat xarakteri daşıyan fəaliyyəti artıq sistemli və ardıcıl xarakter alıb. Bu fəaliyyətə son qoyulmalıdır. Görünən odur ki, onların bu təxribatlardan əl çəkmək niyyətləri yoxdur.

Bu da aydın görünür ki, bütün cəhd və təxribatlara baxmayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın torpaqlarını azad etməsi, müstəqil siyasət həyata keçirməsi onları ciddi narahat edir. Qeyd etmək istəyirəm ki, Avropa Parlamenti Azərbaycan Prezidentinin mesajından nəticə çıxarmalıdır. Bu təxribatlar, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın həyata keçirdiyi prinsipial və qətiyyətli siyasətə təsir göstərə bilməz. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük uğurlara imza atacaq. Xalqımızı qarşıda daha böyük uğurlar gözləyir”.

**Vasif ƏLİHÜSEYN**

# XİN fransalı nazirin Azərbaycan əleyhinə səsləndirdiyi iddiaları rədd edib

**”6 may tarixində Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baronun Fransa Senatında Azərbaycan əleyhinə səsləndirdiyi iddiaları qətiyyətlə rədd edirik”.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə bildirib.

O qeyd edib ki, Fransa naziri tərəfindən Azərbaycanın suveren ərazisi olan Qarabağ bölgəsi ilə bağlı ”Dağlıq Qarabağ” kimi ifadələrin istifadəsi qəbuledilməzdir:

”Azərbaycanın öz suveren ərazilərində beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həyata keçirdiyi haqq-ədalət müharibəsindən sonra bölgədə davamlı sülh üçün şərait yarandığı bir dönəmdə Fransa tərəfinin Azərbaycanın öz əraziləri üzərində suverenliyini sual altına qoyan, mədəni və dini irsin qorunmasını şübhə altına alan bu kimi təhrikçi açıqlamaları qətiyyətlə pisləyirik.

Ermənistanın işğalı dövründə Azərbaycan ərazilərində yüzlərlə məscid və digər mədəni irs nümunələrinin dağıdılması faktını görməməzliyə vuran Fransa nazirinin işğal dönəmindən qalan bəzi tikililərin sökülməsi məsələsinə dair şərh verməsi, bu məsələdə Beynəlxalq Ədalət Məhkəməsində gedən prosesə yersiz istinadı ikili yanaşmanın bariz nümunəsidir”.

Ayxan Hacızadənin sözlərinə görə, Azərbaycanın suveren ərazilərində yerləşən tarixi və dini abidələrimiz milli-mədəni irsimizdir və mənşəyindən, dünyəvi və ya dini mənsubiyyətindən asılı olmayaraq qorunur:



”Fransanın YUNESKO tərəfindən Azərbaycanın Qarabağ bölgəsinə qiymətləndirmə missiyasının rellaşması məsələsinə dair çağırışları reallıqların açıq-aşkar təhrif edilməsidir.

Məhz Azərbaycan dəfələrlə qiymətləndirmə missiyalarının reallaşdırılmasına çağırışlar etsə də təəssüf ki, bu məhz Ermənistan və Fransa kimi ölkələrin məlum əngəlləri nəticəsində mümkün olmayıb. YUNESKO-nun özü 2005-ci il hesabatında bu faktı təsdiqləyib.

Fransa nazirinin bu kimi açıqlamaları bölgədə dayanıqlı və həqiqi sülh quruculuğuna xidmət etmir”.

# Ərdoğan: “Aİ-nin Türkiyəyə ehtiyacı Ankaradan daha çoxdur”

**Avropa İttifaqının (Aİ) Türkiyəyə ehtiyacı Ankaranın Aİ-yə ehtiyacından daha çoxdur.**



Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasından sonra bildirib.

Türkiyə lideri ölkəsinin uzanan Avropa inteqrasiya prosesinə toxunaraq qeyd edib ki, ”Bu gün Avropanın Türkiyəyə olan ehtiyacı daha çoxdur. Sabah bu ehtiyac daha da artacaq”.

”Son zamanlar Avropa tərəfinin Türkiyənin qitədəki mövqeyi ilə bağlı başlatdığı müzakirələrin şahidi oluruq. Vəziyyəti aydınlaşdırmağa məcburuq: məsələ bu gün Ankaranın mövqeyində deyil, Brüsselin gələcək dünyada harada yer almaq istədiyindədir. Artıq aydın olmalıdır ki, Türkiyənin tamhüquqlu üzvü olmadığı Aİ qlobal oyunçuya və ya ağırlıq mərkəzinə çevrilə bilməz”, - deyə Ərdoğan vurğulayıb. Onun sözlərinə görə, Aİ-nin Türkiyəyə qarşı strateji uzaqgörənliyi çatışmır. ”Lakin Brüsseldə unutmamalıdırlar ki, Türkiyə artıq əvvəlki ölkə deyil və dünya da əvvəlki kimi yalnız Qərb dövlətlərinin təsir dairəsi ilə məhdudlaşmır”, - deyə o əlavə edib.

Türkiyə 2005-ci ildən etibarən rəsmi olaraq Avropa İttifaqına üzvlük üzrə danışıqlar aparır. Bu prosesdə Kipr məsələsi əsas maneələrdən biri olaraq qalır. Türkiyənin xarici işlər naziri Hakan Fidan daha əvvəl bildirib ki, Aİ-yə üzvlük ölkənin strateji məqsədi olaraq qalır, lakin Ankara bu prosesi Kipr məsələsi ilə şərtləndirməyə qarşıdır.

# "Brüssel İrəvandakı sammit vasitəsilə Ermənistanı Rusiyadan..."

**”Kreml və onun əlaltıları Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana səfərini narazılıqla qarşılasalar da, bu məsələni çox da qabartmadılar. Çünki, Kreml Azərbaycanın Rusiyanın nüfuz dairəsində olmadığını, Türkiyənin müttəfiqi olduğunu və Bakının müxtəlif dövlətlərlə sərbəst şəkildə əlaqələr qurması faktını qəbul edib. Eyni sözləri Ermənistan haqqında söyləmək mümkün deyil, hər nə qədər baş nazir Nikol Paşinyan Rusiyanın nüfuz dairəsindən uzaqlaşmağa çalışsa da, onun təmsil etdiyi ölkəni hələ də Moskvanın vassalı kimi dəyərləndirirlər”.**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, ona görə də Kreml və onun mediadakı ruporları Volodimir Zelenskinin Avropa Siyasi Birliyinin sammitində iştirakı məqsədilə Ermənistana səfərini xüsusi etirazla qarşılayıblar:

”Erməni radikallar da Kremllə eyni mövqedən çıxış edərək Ukrayna Prezidentinin İrəvana gəlişini Rusiya-Ermənistan münasibətlərinə mənfi təsirindən danışırlar. Halbuki, Ukrayna Prezidentini İrəvana Nikol Paşinyan dəvət etməyib, bu Avropa Siyasi Birliyinin sammitidir, qonaqları Brüssel müəyyənləşdirib. Kreml və erməni radikallar ümumiyyətlə Avropa sammitinin İrəvanda keçirilməsini də Paşinyanın Rusiyaya xəyanəti kimi qiymətləndiriblər. Halbuki, Avropa Siyasi Birliyinin 2026-cı ildəki sammitinin İrəvanda, növbəti ildəki sammitinin isə Bakıda keçirilməsi qərarı da Brüsselə məxsusdur. Ancaq orası da var ki, Brüssel İrəvandakı sammit vasitəsilə həm Ermənistanı Rusiyadan uzaqlaşdırmaq, həm də iyun ayında parlament seçkisində Paşinyanın qələbə şansını artırmağı hədəfləyib”.

**Vasif ƏLİHÜSEYN**

# "Bu kimi şəxslərin cəfəngiyyatına inanmaq heç kəsə əsla fayda verməz"

**”Xaricdə özlərinə sığınacaq tapmış satqın və bir sıra Vətən xaini dayanmadan ölkəmiz haqqında dezinformasiya, şayiələr yayırlar. Sosial şəbəkə imkanları da belələrinə bir növ fürsət olub. Görünür ki, bir - biri ilə əlaqə saxlayıb xəyali hadisələr quraşdırır, rəvayətlər qondarır, bəzən də hiss olunur ki, xarici xüsusi xidmət orqanlarının təqdim etdiyi legendalardan istifadə edirlər”.**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib. Onun sözlərinə görə, hər bir ölkədə olduğu kimi müəyyən vaxtlarda məişət zəminində baş vermiş qəza, cinayət hadisələrini şişirdib səbəbini başqa istiqamətə yönəldir, dövlətlə əlaqələndirməyə cəhd edirlər:



”Yalan, böhtan, iftira, şantaj xarakterli bu məlumatları blogger adı ilə zəvzəyənlər tiktok, feysbuk, yutub platformalarında tirajlayır, təəssüf ki, bəzi sadəlövh adamlar da bunu ciddi qəbul edir, bəzən də inanırlar. Hətta bu uydurma xəbərlərin həqiqətə uyğun olmadığını sübut etmək üçün aidiyyəti qurumlar zəhmət sərf etməli olur. Necə deyərlər, dəli quyuya bir daş atır, yüz ağıllı da yığılıb əmək sərf edir ki, o daşı çıxarsın. Odur ki, xaricdən dövlət əleyhinə danışanların heç birinə inanmaq, ciddiyə almaq lazım deyil. Çünki onların yarı ixtiyarı, yüyəni, noxtası olduqları ölkələrin xüsusi şəxslərinin əlindədir. Hara qısqırdılsalar ora cumurlar. Marıtda dayanırlar, hardasa bir hadisə baş verir, dərhal şişirdib, bəzəyib, başlayırlar yozmağa. Bu kimi şəxslərin cəfəngiyyatına inanmaq heç kəsə əsla fayda verməz”.

**Sübhan**

# "Əgər insan ölümsüz olsaydı, bəzilərinin..."

**”Uşaqlıqda düşünürdüm ki, ölümsüz həyat daha gözəl olardı. Amma sonra ABŞ-nin Əhali Araşdırmaları Bürosunun bir elmi araşdırmasını oxudum. Orada qeyd edilirdi ki, insanın yaranmasından bu günə qədər Yer üzündə təxminən 117 milyard insan doğulub. Deməli, əgər insan əbədi olsaydı, bu gün planetdə yaşayan insanların sayı 8 milyard deyil, təxminən 117 milyard olardı”.**



Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, bu isə indiki dünya əhalisindən təxminən 14 dəfə çox deməkdir: ”Bir anlıq təsəvvür edin. Nə şəhərlər yetərdi, nə su, nə qida, nə enerji, nə də nəfəs aldığımız boşluq. İnsanlar bir-birini ovlayıb, insan əti ilə qidalanardı. Odur ki, həyatın bu qədər qiymətli olmasının səbəbi də, onun sonlu olmasıdır. Deməli, ölüm həm də həyatın, təbiətin və cəmiyyətin balansını qoruyan görünməz qanunlardan biridir. İqtisadi, sosial və resurs tərəfini bir kənara qoysaq belə, məsələnin bir də mənəvi tərəfi var. Əgər insan ölümsüz olsaydı, bəzilərinin güc, nifrət, intiqam və tamah üçün bir-birinə və cəmiyyətə qarşı edə biləcəyi dəhşətləri düşünmək belə insanı qorxudur”.

**Vasif**

## Araz Paşayev: ”Təhsil işçilərinin rifahı bizim üçün prioritetdir”

**”Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı (ETİHİ) Respublika Komitəsi ittifaq üzvlərinin sağlamlığının qorunması, sosial rifahının gücləndirilməsi və istirahət imkanlarının genişləndirilməsi istiqamətində fəaliyyətini ardıcıl davam etdirir.”**



Adalet.az xəbər verir ki, bu barədə ETİHİ Respublika Komitəsinin sədri Araz Paşayev rəsmi sosial şəbəkə hesabında paylaşım edib. A.Paşayev paylaşımında bildirib ki, aprel ayı ərzində 516 ittifaq üzvü e-AHİK.az elektron rezervasiya sistemi vasitəsilə qeydiyyatdan keçərək sanatoriya-kurort yollayışlarından yararlanıb və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tabeliyində fəaliyyət göstərən müalicə və istirahət mərkəzlərində olub: ”Ay ərzində 516 ittifaq üzvü sanatoriya və istirahət mərkəzlərinə yollayışlardan, 270 nəfər həftəsonu istirahət tədbirlərindən, 1019 nəfər turlardan, 287 nəfər isə ekskursiyalardan yararlanıb. Bizim üçün əsas məqsəd təhsil işçilərinin rifahına, sağlamlığına və asudə vaxtının səmərəli təşkilinə real töhfə verməkdir. Bu istiqamətdə həyata keçirilən layihələr bundan sonra da ardıcıl şəkildə davam etdiriləcək.”

## “Rayonlarda ucuz satılan məhsulun qiyməti Bakıda niyə “əl yandırır?””

**”Niyə rayonlarda kəndli-fermer məhsulunu ucuz satdığından narazıdır, Bakıda isə alıcı eyni məhsulu bir neçə dəfə baha almağa məcbur qalır? Əslində bu sual paradoksal görünsə də, cavabı o qədər də mürəkkəb deyil. Cavab məhsulun istehsalçıdan bazara, bazardan isə istehlakçıya qədər keçdiyi aqrar tədarük və satış modelindədir”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, bu modeldə çoxlu xırda problemlərlə yanaşı, bazara birbaşa təsir edən bir neçə əsas problem də var: ”Bunlardan birincisi, topdansatış və paylama kanallarında rəqabətin məhdudluğudur. Belə ki, alternativ satış və paylama platformaları kifayət qədər formalaşmadıqda bazar gücü müəyyən kanallarda cəmlənir. İkinci problem, tarladan bazara qədər logistika və əməliyyat xərclərinin yüksəkliyidir. Belə ki, daşınma, saxlanma, sənədləşmə və digər əməliyyat mərhələləri məhsulun son qiymətinə əlavə xərc yaradır. Üçüncüsü, istehsalçının bazarda qiymət formalaşdırmaq və son istehlakçıya birbaşa çıxış imkanlarının zəifliyidir. Belə olduqda məhsulun yaratdığı əsas dəyərin əhəmiyyətli hissəsi istehsalçıda deyil, aralıq ticarət mərhələlərində formalaşır. Əlqərəz, problem əsasən məhsulun tarladan piştaxtaya qədər keçdiyi yolda yaranır”.

**Sübhan**

## Paşinyanla Zelenskinin ingilis dili Medvedevin xoşuna gəlmədi

**Rusiya Federasiyası təhlükəsizlik şurasının sədr müavini Dmitri Medvedev, Ermənistanın baş naziri Nikol Paşinyanla Ukrayna prezidenti Volodimir Zelenski arasında Yerevanda keçirilən görüş zamanı ingilis dilində danışmalarını ”bəyənməyib” Dimitri Medvedev onları lağa qoyaraq bildirib ki, hər iki lider əla bildikləri rus dilində deyil, ”pis ingilis dilində” danışıblar.**



”İki başıboş rusofob rus dilində bildiklərinə bsxmayaraq, bu gün Yerevanda bərbad ingilis dilində söhbət ediblər”- deyə dədr müavini iki suveren dövlətin rəhbərlərini təhqir edib.

## Ted Lyu: ”Çin və Rusiya ABŞ-ın hərbi bazalarını külə çevirər”

**Demokratlar pariyasını təmsil edən konqressmen Ted Lyu, özünün ”X” sosial şəbəkəsindəki səhifəsində bəyan edib ki, Rusiya və Çin ABŞ,-ın hərbi bazalarını külə çevirə bilər.**

Konqressmen qeyd edib ki,İran müharibəsindən sonra, ABŞ təkcə özenen müdafiə strategiyası ilə məşğul olmamalıdır. ”Bizə Rusiya və Çinə qarşı yeni müdafiə strategiyası lazımdır... Əgər İran hərbi bazalarlmıza zərbələr endurməyi bacarırsa, Çin və Rusiya onları külə çevirər”...- deyə Ted Lyu bəyan edib və əlavə edib ki, Moskva və Pekinlə qarşıdurma baş verərsə, ABŞ-ın hərbi ehtiyatları tükənə bilər.

**Rüstəm Hacıyev**



**Nizami NOVRUZOV,**
**texnika üzrə fəlsəfə doktoru**

# İtaliya ilə Azərbaycan arasında münasibətlər

**Bildiyimiz kimi, İtaliya Azərbaycanın dost və strateji tərəfdaş ölkəsidir. Ölkələrimiz arasında münasibətlər durmadan inkişaf edir və bu gün artıq nümunə göstəriləcək səviyyəyə yüksəlib. Təsadüfi deyil ki, bu uğurlu əməkdaşlığın nəticəsi olaraq Azərbaycan İtaliyanın regionda əsas ticarət tərəfdaşına çevrilib. Bu tərəfdaşlıq xüsusilə enerji sahəsində özünü daha aydın göstərir. Məlumdur ki, Azərbaycan İtaliya üçün ən böyük xam neft tədarükçüsüdür. Eyni zamanda nəhəng Trans-Adriatik qaz kəməri vasitəsilə Azərbaycan Avropa üçün ən etibarlı enerji təchizatçılarından biridir. Bu layihə çərçivəsində ölkəmiz dost İtaliya üçün ən böyük təbii qaz tədarükçüsü kimi çıxış edir və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir.**

**Mayın 4-də İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana rəsmi səfəri iki ölkə arasında münasibətlərin dinamik inkişafının növbəti mühüm mərhələsi kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr və mətbuata verilən bəyanatlar göstərdi ki, Bakı ilə Roma arasında əməkdaşlıq artıq ənənəvi enerji tərəfdaşlığı çərçivəsindən çıxaraq daha geniş geosiyasi və iqtisadi məzmun kəsb edir.**

**Onu da qeyd edim ki, İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin ölkəmizə səfəri və yüksək səviyyədə qəbul olunması ölkələrimiz arasında qarşılıqlı etimadın, dostluğun və strateji tərəfdaşlığın yüksək səviyyədə olmasının bir daha təsdiqi oldu. İki ölkə arasındakı bu sarsılmaz bağ Avrasiya məkanında həm iqtisadi inteqrasiyanın, həm də siyasi sabitliyin həlledici sütununa çevrilib.**

**İtaliyanın Azərbaycan üçün əhəmiyyəti onun təkcə qlobal iqtisadi güc olmasından deyil, həm də regional və beynəlxalq müstəvidə nümayiş etdirdiyi prinsipial mövqedən qaynaqlanır. Belə ki, İtaliya Avropanın böyük dövlətləri və G7 üzvləri arasında Azərbaycan ilə strateji tərəfdaşlıq sənədi imzalayan ilk dövlətdir. 2020-ci ilin fevralında Roma şəhərində Azərbaycan Prezidenti və İtaliyanın Nazirlər Şurasının sədri tərəfindən imzalanmış "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" iki ölkə arasında ən yüksəksəviyyəli siyasi sənəd olmaqla növbəti illər ərzində münasibətlərin dərinləşdirilməsi üçün yol xəritəsini müəyyənləşdirib. Bu möhkəm təməl üzərində qurulan davamlı dialoq zamanın sınağından keçmiş və qarşılıqlı hörmətə əsaslanan strateji etimad körpüsü yaradıb.**

**Görüş zamanı Prezident İlham Əliyev vacib bir nüansa toxunaraq Ermənistandan gəlmiş xanım qonağın ölkəmizi ziyarət etməsinin xüsusi rəmzi məna daşıdığını, bunun isə Azərbaycana dost münasibətin göstəricisi olduğunu qeyd etdi.**

**Prezident həmçinin ölkəmizin də İtaliyaya eyni münasibət bəslədiyini vurğulayaraq bu səfərin strateji münasibətlərimizin inkişafında həlledici rol oynayacağını bildirdi.**

**İki ölkə arasında tərəfdaşlığın ən mühüm və diqqətəlayiq istiqamətlərindən biri də İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə fəal iştirakıdır. Qarabağ və Şərqi Zəngəzurda İtaliya şirkətləri tərəfindən artıq 23 layihənin həyata keçirilməsi və ya icra mərhələsində olması İtaliya biznes dairələrinin Azərbaycana və regionun bərpasına olan inamının bariz göstəricisidir.**

**Xarici şirkətlər arasında İtaliyanın qabaqcıl yerlərdə qərarlaşması təsadüfi deyil. Bu layihələr infrastrukturun qurulması, şəhərsalma, sənaye, energetika və mədəni irsin bərpası kimi strateji sahələri əhatə edir və regionun sürətli reinteqrasiyasına mühüm töhfə verir.Eyni zamanda, hərbi-texniki əməkdaşlıq, birgə istehsal imkanları və texnologiya transferi ilə bağlı müzakirələr əlaqələrimizin şaxələndiyini nümayiş etdirir.**

**Bunlarla yanaşı mədəni və akademik əlaqələr də genişlənir, bunu Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılmasına hazırlıq nümayiş etdirir ki, bu da növbəti uğur hekayəsinə çevrilərək bütün sahələrdə ikitərəfli əməkdaşlığımızı zənginləşdirə bilər.**

**Beləliklə, formalaşan yeni mərhələ Azərbaycan-İtaliya tərəfdaşlığını strateji müstəvidən çoxşaxəli və dayanıqlı əməkdaşlıq modelinə doğru aparır ki, bu da yaxın gələcəkdə daha uğurlu nəticələr vəd edir.**

# Aqil Abbas: Ədəbiyyat informasiya səs-küyündən daha güclüdür

**Ədəbiyyat informasiya axınının səs-küyündən fərqli olaraq insana daha dərin və davamlı təsir göstərir.**

Adalet.az xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı, yazıçı-publisist, Əməkdar jurnalist Aqil Abbas Report Media Məktəbinin tələbələri ilə keçirilən görüşdə səsləndirib.

Yazıçı bildirib ki, müasir cəmiyyət informasiyanı fasiləsiz rejimdə həzm etməyə məcburdur.

"Bu dalğa gündəmi formalaşdıraraq ictimai rəyə yönəldir. Bir xəbər digərini dayanmadan əvəzləyir. Jurnalistika hadisələri operativ şəkildə əks etdirir, baş verənlərə dərhal reaksiya verir. Ədəbiyyat isə insan təcrübəsinin daha dərin qatları ilə işləyir və dayanıqlı düşüncə formalaşdırır. Bədii söz daha sabit gücə malikdir, çünki təkcə informasiyanın mənimsənilməsinə yox, həm də insanın dəyər sisteminə təsir edir", - yazıçı vurğulayıb.





A.Abbas yazıçının oxucularla canlı görüşlərinin vacibliyini də vurğulayıb:

"Əvvəllər məktəblərdə və ali təhsil müəssisələrində keçirilən görüşlər təhsilin vacib mərhələlərindən biri idi, lakin bu praktika hazırda demək olar aradan qalxıb".

Parlamentdəki fəaliyyəti ilə bağlı danışan deputat insanlarla ünsiyyətin əhəmiyyətini vurğulayıb.

"Seçicilərlə görüşləri bəzən çayxanada keçirirəm. Onlarla söhbət edir, problemlərinə qulaq asıram. Həll oluna biləcək işləri yerindəcə diqqətə alıram. Camaatın içində olmaq lazımdır, vətəndaşları kabinetdə qəbul etməyin tərəfdarı deyiləm", - millət vəkili deyib. Aqil Abbas 1953-cü ildə Ağcabədi rayonunda anadan olub. 2 yaşında olarkən ailəsi ilə birlikdə Ağdama köçüb. 1976-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib. "Elm və həyat" jurnalında fotomüxbir, şöbə müdiri, "Sovet kəndi" qəzetinin xüsusi müxbiri işləyib. Hazırda "Ədalət" (1990-cı ildən), "Boz qurd" (1993-cü ildən) qəzetlərinin baş redaktorudur. İlk hekayəsi "Şirinlik" 1976-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunub. "Evləri köndələn yar", "Ən xoşbəxt adam", "Batmanqılınc", "Dolu", "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına" adlı kitabların müəllifidir. Eyniadlı romanı üzrə çəkilən "Dolu" filminin ssenari müəllifidir.

Azərbaycan Respublikasının Milli Məclisinin III, IV, V,VI və VII çağırış deputatıdır.

# "Azərbaycan və Ermənistan arasında illik ticarət dövriyyəsi..."

**"Prezident İlham Əliyev 2026-cı il 4 may tarixində "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxışında Azərbaycan və Ermənistan arasındakı iqtisadi əlaqələrə toxunub. Dövlət başçısı indiyədək Azərbaycan ərazisi vasitəsilə Ermənistana 28 min ton yükün çatdırıldığını və 12 min ton neft məhsullarının ixrac olunduğunu bildirib. Bu ticarət münasibətlərinin başlanması deməkdir".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, Azərbaycan və Ermənistan arasında iqtisadi əlaqələrin və eləcə də kommunikasiyaların yenidən bərpası məhz regionda sülhün möhkəmlənməsinə xidmət etmiş olacaq: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək Zəngəzur dəhlizi isə regionun inkişafı üçün yeni imkanlar yaradacaq. İlkin qiymətləndirmələr göstərir ki, sülh müqaviləsinin imzalanmasından sonra Azərbaycan ilə Ermənistan arasında 38 məhsul üzrə qarşılıqlı ticarətin qurulması mümkündür. Bura enerji və eləcə qeyri neft-qaz məhsulları daxildir. Həmin məhsullar üzrə ölkələr arasında müqayisəli üstünlüklər var.




Bu o deməkdir ki, iqtisadi əlaqələr tam bərpa olunduqdan sonra Azərbaycan və Ermənistan arasında illik ticarət dövriyyəsi 300 milyon dollara çata bilər. Zəngəzur dəhlizinin istifadəyə verilməsi region üzərindən daha çox yüklərin daşınmasına, eyni zamanda region ölkələrin bundan daha çox faydalanmasına imkan yaradacaq. Bu kontekstdən təbii ki, beynəlxalq yük daşımalardan da ölkələrin daha çox gəlir əldə etmək imkanı var ki, bu da praktiki olaraq həm dayanıqlı sülhün, həm də regionun iqtisadi inkişafı baxımından vacib məqamlardandır".

**Vasif ƏLİHÜSEYN**

# "Bununla Azərbaycanın sülhə sadiq olduğu mesajını verdi"

**"Prezident İlham Əliyev Avropa Siyasi Birliyinin iclasında çıxış etməklə iştirak etmiş oldu. Ermənistan da keçirilən Avropa Siyasi Birliyinin sammitində prezident İlham Əliyev video formatla iştirak edərək, çıxış etdi. Avropa Siyasi Birliyinin sammitinə onlayn qoşulmaq da iştirak deməkdir. Bununla da prezident İlham Əliyev Ermənistanda Avropa Siyasi Birliyinin sammitini baykot etmədi. Bu iştirakın iki ölkə arasında sülhün olduğunu nəzərə çatdırdı".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, bildirib ki, bununla da Azərbaycanın sülhə sadiq olduğunu, Cənubi Qafqazda yeni siyasi münasibətlər sisteminin formalaşdığını mesajını verdi: "Avropa Siyasi Birliyinin Cənubi Qafqazda sammitində Azərbaycan prezidentinin qatılması regionda ölkəmizin söz sahibi olması deməkdir. Demək olar ki, cənab prezident siyasi iradə ortaya qoyaraq Cənubi Qafqazla Avropa arasında əməkdaşlığın inkişafına töhfə vermiş oldu. Prezidentin sammitdə çıxışı Ermənistan televiziyalarında yayımlandı. Bu, iki ölkə arasında mövcud sülhün olduğunu və bu sülhü qoruyub saxlanmalı olduğunun vacibliyini ortaya qoydu".



Politoloq deyib ki,Prezidentin bu sammitdə çıxışından sonra Nikol Paşinyan 2028-ci ildə Azərbaycanda keçiriləcək Avropa Siyasi Birliyinin sammitində iştirak etmək üçün Bakıya gedəcəyini ümid etdiyini vurğuladı:

"Demək olar ki, Cənubi Qafqazda sülh var. Və bu il iki ölkə arasında sülh de-yure qüvvəyə minəcək. Avropa Siyasi Birliyinin sammitində Baş nazir Ə.Əsədov da çıxış edə bilərdi. Amma, özü bu sammitdə çıxış edərək sammitin gedişinə və Ermənistanda keçirilməsinə böyük dəstək verdiyini nümayiş etdirdi. Bu, N.Paşinyanın da mövqeyini gücləndirir və Qərbin bəzi ölkələri də gördü ki, iki ölkə arasında sülh yaranır".

**Sübhan**

# FHN Tibb Universitetində maarifləndirmə tədbiri keçirib

**Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin təşkilatçılığı ilə Azərbaycan Tibb Universitetində maarifləndirmə tədbiri keçirilib.**

Adalet.az FHN-ə istinadən xəbər verir ki, ”Səhiyyə müəssisələrinin yanğın təhlükəsizliyi” mövzusunda tədbirin keçirilməsində məqsəd Universitetin əməkdaşlarına və tələbələrinə fövqəladə hallar, o cümlədən yanğınlarla bağlı davranış qaydalarının aşılanması olub.

Əvvəlcə, FHN-in əməkdaşları tərəfindən universitetin kollektivinə yanğın zamanı zəruri davranış qaydaları, təxliyə tədbirləri barədə ətraflı məlumat verilib, bu barədə videoçarxlar nümayiş olunub, ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib, suallar cavablandırılıb.

Tədbirdə çıxış edən Dövlət Yanğın Nəzarəti Xidmətinin rəis müavini daxili xidmət polkovniki Cəmil Xudiyev səhiyyə müəssisələrində, xüsusilə xəstə və uşaqların yerləşdirildiyi otaqlarda yanğın təhlükəsizliyinin təmin edilməsinin vacibliyindən danışıb. O, səhiyyə müəssisələrinin rəhbərləri tərəfindən profilaktik tədbirlərin gücləndirilməsinin əhəmiyyətindən danışıb, yanğın təhlükəsizliyinə dair normalardan bəhs edib.



Tədbirdə tibb işçilərinin yanğın təhlükəsizliyi qaydaları barədə maarifləndirilməsi, səhiyyə müəssisələrində fəaliyyət göstərən elektrik cihaz və qurğularının ”Elektrik Qurğularının Quraşdırılması Qaydaları”nın tələblərinə uyğun quraşdırılaraq istismar edilməsi, həmin avadanlıqlara dövri qulluqların və müayinələrin keçirilməsinin zəruriliyi vurğulanıb.

Həmçinin, ilkin yanğınsöndürmə vasitələrinin və avtomatik yanğınsöndürmə sistemlərinin daim işlək vəziyyətdə saxlanılması, müalicə və uşaq müəssisələrinin, əczaxanaların zirzəmilərindən emalatxana, eləcə də tezalışan və yanar maye saxlamaq üçün anbar kimi istifadə edilməməsi, tezalışan və yanar mayelərin yalnız təhlükəsiz şəraitdə və müəyyən olunmuş miqdarda saxlanılmasının vacibliyi vurğulanıb.

Tədbir zamanı qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

# *Mətbuat Şurası medianı müsahiblərə həssas yanaşmağa çağırıb*

**”Media orqanları və jurnalistlər müsahibə götürdükləri şəxslərin fikirlərini hissələrə bölərək, müxtəlif sərlövhələrlə təqdim edirlər. Əlbəttə, bu onların müstəsna hüququdur və heç şübhəsiz, geniş izləyici və oxucu auditoriyası toplamağa hesablanıb. Lakin bir çox hallarda bu üsula üstünlük verilməsi müsahiblərdə ciddi narazılıq doğurur. Narazılıq, xüsusən, həmin hissələrin sosial şəbəkələrdə paylaşılması zamanı meydana çıxır”.**

Adalet.az xəbər verir ki, bu, Azərbaycan Mətbuat Şurasının yaydığı məlumatda əksini tapıb.

Qeyd olunub ki, sosial şəbəkə istifadəçiləri münasibətlərini, bir qayda olaraq, müsahiblərin yanaşmalarına, onların haqqında söz açdıqları məsələ ilə bağlı söylədikləri digər fikirlərə diqqət yetirmədən, yaxud yalnız irəliyə çıxarılmış sərlövhəyə köklənərək bildirirlər:

”Təcrübə göstərir ki, adətən belə durumlarda əsl mahiyyət kənarda qalır. Mövcud müstəvidəki ən yolverilməz hal isə müsahiblərin sosial şəbəkə istifadəçiləri tərəfindən əsassız ittihamlarla üzləşmələridir. Belə ki, 29 aprel 2026-cı il tarixində Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevdən ”Qaranlıqda həqiqət” verilişi tərəfindən müsahibə alınıb. Müsahibədə V.Quliyevin bir alim və diplomat kimi səsləndirdiyi fikirlər önə çıxarılmaq əvəzinə, onun məhz övladı - mərhum Humay Quliyeva ilə bağlı sual-cavab hissəsi qısa videolar şəklində sözügedən verilişin anonslarında təqdim edilib və digər media qurumları da məhz bu parçanı auditoriya ilə paylaşıblar.




Yaranmış vəziyyətə görə Humay Quliyevanın adına yaradılmış ”Huma Quşu” Təhsilə Yardım Fondu bəyanat yaymış, kəskin etirazını bildirmiş və Azərbaycan Mətbuat Şurasına mövqe bildirmək üçün müraciət etmişdir. Şura Fondun müraciətindəki narahatlığı bölüşür və hesab edir ki, ”Qaranlıqda həqiqət” verilişinin təqdimatında qeyri-həssas yanaşmaya yol verilmişdir. Mahiyyətini diplomatiya, xarici siyasət və tariximizə dair sanballı söhbət təşkil edən müsahibənin anonsları ənənəvi ”reytinq yaradıcılığının” mənfi təsirinə məruz qalmış, mətnin ümumi ruhuna xələl gəlmiş, bütün bunlar mərhumun valideynlərində dərin sarsıntı yaratmışdır.

Qeyd olunmuş və digər oxşar vəziyyətləri nəzərə alaraq, Azərbaycan Mətbuat Şurası media orqanlarının bu tipli davranışlarını qınayır və onları müsahibələrin təqdimatına ehtiyatla yanaşmağa çağırır.

Şura bu qənaətdədir ki, bütöv mətnlərin kontekstdən çıxarılmış fikir şəklində yayılması zamanı müsahibə verən şəxslərin barəsində söz açdıqları konkret mövzu arxa plana keçməməli, spekulyativ yanaşmalardan uzaq durulmalıdır. Çünki bütün bunlar media orqanlarına və jurnalistlərə etimadsızlıq və inamsızlıq formalaşdırır. Etimadsızlıq və inamsızlıq mühiti isə medianın nüfuzunu aşağı salır, həmçinin, cəmiyyətin dolğun bilgilərlə təminatı prosesinə mənfi təsir göstərir.

Media və jurnalistlər onu da nəzərə almalıdırlar ki, müsahibə və ya janrından asılı olmayaraq, təqdim etdikləri bütün materiallar cəmiyyət üzvləri arasında kütləvi qıcıq yaratmamalı, insanların faydalı biliklər əldə etməsini, onların dünyagörüşlərinin yüksəlməsini təmin etməlidir. Əsl ictimai missiya məhz budur.

Mətbuat Şurası bütövlükdə media cameəsini özünün ictimai missiyasına məsuliyyətlə və son dərəcə həssas yanaşmağa çağırır”.

# *__İlahiyyatçı:__* "İnsan taleyində yaşam, ölüm qəti və dəyişməz yazıdırsa..."

**”Qədər və ya qəzanın dəyişməsi. Hər vaxtın bir yazısı var. Allah bu yazıdan istədiyini silər, istədiyini də sabit saxlayar. Kitabın anası da Onun yanındadır.” Rəd surəsi - 38-39.Yayda isti, qışda soyuq olması müəyyən qanunauyğunluqdan doğur. Lakin bəzən qışda isti yayda soyuq da olur. Bu, əvvəlki qanuna zidd görünsə də əslində ikinci də bir ayrı fiziki qanunauyğunluqdur. Daha doğrusu əvvəlkinin fərqli görünən tərkib hissəsidir”.**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

Onun sözlərinə görə, Allahın qədər və qəzası da belədir:

”Elə məsələlər də var ki, mütləq qədərdir: hər şeyin sonlu olması, hamının ölməsi kimi. Amma kimin nə vaxt ölməsi, hansı hadisənin haçan baş verməsi kimi hallar dəyişə bilər. Aristotel deyirdi ki, insan taleyi su üzərində barmaqla yazılmış yazı kimidir. Yəni, yazıdır, amma axar suda barmaqla yazılmış yazı. İnsanın kəsb etdiyi əməllərə, davranışa görə bu yazı, qanunauyğun şəkildə dəyişə bilir ki, bu dəyişkənliyin özü də məhz yazıdır. Allahın insana verdiyi ixtiyar da yazıdır. İnsan taleyində yaşam, ölüm qəti və dəyişməz yazıdırsa, müəyyən məsələlərdə ”özün seç” azadlığının verilməsi də yazıdır. Bu, Quranın təqdim etdiyi tale və qədərdir.

İlahi təqdir insanın fəaliyyəti nəticəsində kəsb etdiyi əməllərlə fərqli istiqamət ala bilir. Bütün bunların isə qabaqcadan Allahın elmində olması, yəni onun bilməsi, hadisələri təşkil etmək, təhrik etmək mənasına gəlmir. Əvvəlcədən bir hadisənin nəticəsini, bir şəxsin aqibətini bilmək, o hadisəni törətmək yaxud təşkil etmək demək deyil”.

**Vasif ƏLİHÜSEYN**

## *MEDİA-nın İcraçı direktoru: “Bu layihələr Qarabağ və Şərqi Zəngəzurun simasını dəyişir”*



**Azərbaycan dövlətçiliyinin ideoloji sütunlarını ucaldan, milli dirçəlişin sarsılmaz təməllərini qoyan Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarı olmaqla yanaşı, ölkəmizin şəhərlərinin estetik və funksional baxımdan yeni simasının yaradıcısı, milli memarlıq məktəbinin hamisi kimi tarixə düşüb.**

Adalet.az xəbər verir ki, bu sözləri Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov ”İctimai proseslər media müstəvisində” mövzusunda III Forumun açılışında deyib. O vurğulayıb ki, müstəqillik illərində Ulu Öndərin müəllifi olduğu quruculuq xətti dövlətimizin qüdrətini və xalqımızın estetik zövqünü bütün dünyaya nümayiş etdirib. ”Ulu Öndərin şəhərsalma vizyonunun bu gün beynəlxalq səviyyədə təsdiqini tapmasının ən mühüm nümunələrindən biri də WUF13-ün Bakıda keçirilməsi ilə bağlı qəbul edilən qərardır. WUF13-ün Bakıda təşkili Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi uğurların beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin göstəricisidir”. İcraçı direktor bu gün Ulu Öndərin müəllifi olduğu müasir şəhərsalma strategiyasının Prezident İlham Əliyev tərəfindən möhtəşəm bir mərhələyə çatdırıldığına diqqət çəkərək deyib: ”Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən ”Ağıllı şəhər” və ”Ağıllı kənd” layihələri Qarabağın və Şərqi Zəngəzurun simasını köklü şəkildə dəyişir. Bu gün Qarabağın dirçəlişi yalnız bir regionun bərpası deyil, həm də Azərbaycanın intellektual və iqtisadi gücünün, müasir şəhərsalma proseslərinə verdiyi töhfənin əyani sübutudur.

Şəhərlərimizin estetik görkəminin qorunması və mədəni irsimizin dünyada təbliği prosesində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətini xüsusi qeyd etməliyik. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsləri sayəsində İçərişəhər və Qız qalası kimi nadir incilərimiz UNESCO-nun Dünya İrsi Siyahısında layiqli yerini möhkəmləndirib. Paytaxtımızın müasir simasına çevrilən möhtəşəm mədəniyyət mərkəzləri və ictimai parklar məhz bu nəcib yanaşmanın və milli mədəniyyətimizə olan yüksək qayğının nəticəsidir”.

## *“Bütün hallarda Ankara Ermənistan siyasətini Bakı ilə koordinasiya edir”*

**”Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın mayın 4-də İrəvan şəhərində keçiriləcək Avropa Siyasi Birliyinin 8-ci sammitində iştirakı doğru qərardır. Türkiyə Avropa Siyasi Birliyinin bütün toplantılarında təmsil olunub. Türkiyənin İrəvandakı toplantıda iştirakı Ankaranın Cənubi Qafqazda sülh quruculuğuna verdiyi dəstəyin göstəricisidir”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

”Bütün hallarda Ankara Ermənistan siyasətini Bakı ilə koordinasiya edir. Ermənistan bu toplantıya qədər Konstitusiyada dəyişiklik edib sülh müqaviləsinin imzalanmasının yolunu açsaydı, Azərbaycan və Türkiyə İrəvandakı tədbirdə Prezident səviyyəsində təmsil oluna bilərdilər. Ancaq Türkiyə ilə yanaşı Azərbaycanın da İrəvandakı toplantıda hansısa səviyyədə iştirakı mümkündür. Gələn il eyni tədbir Bakıda keçiriləcək. Ümid edək ki, həmin tədbirə qədər iki ölkə arasında sülh sazişi imzalanacaq və qarşılıqlı rəsmi səfərlər adiləşəcək”, - deyə o, bildirib.

## *“Pezeşkian mümkün beynəlxalq reaksiyadan dərin narahatlıq keçirir”*

**”İranda hakimiyyət dəyişikliyi baş verib. SEPAH komandanı Əhməd Vahidi seçilmiş siyasi rəhbərliyi saymır, İMuctəba isə proseslərə nəzarət etmir və ya edə bilmir. Belə bir xaos İranı məhvə aparır. İran Prezidenti Məsud Pezeşkian Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) zərbələrlə bağlı İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) hərəkətlərindən kəskin narazılığını ifadə edərək, onları ”tamamilə məsuliyyətsiz” adlandırıb”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib. ”İslam Respublikasının prezidenti bu hərəkətlərin ölkənin siyasi rəhbərliyinin xəbəri olmadan və koordinasiyasız həyata keçirildiyini diqqətə çatdırıb.Pezeşkian region ölkələri ilə gərginliyin artması halında ”potensial olaraq geridönüşü olmayan nəticələr” barədə xəbərdarlıq edib.İkinci müharibə riski səbəbindən İran prezidenti SEPAH-ın Fars körfəzi dövlətlərinə hücumlarına dərhal son qoymaq və eskalasiyanın davam etməsinin qarşısını almaq üçün ali lider Müctəba Xamenei ilə təcili görüş istəyib. Pezeşkian mümkün beynəlxalq reaksiyadan dərin narahatlıq keçirir və hesab edir ki, ölkə daha bir tammiqyaslı müharibəyə tab gətirə bilməz”, - deyə o, bildirib.

**Sübhan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Darıxdığım adam: Səməndər Məmmədov!

... Kim nə deyir-desən, dünyada elə adamlar var ki, onların yerini heç kəs verə bilmir. Və həmişə onların yeri görünür, eləcə də bu insanlar üçün həmişə darıxırıq. Hətta dünyalarını dəyişsələr belə! Çünki hara gedirik, sanki onları görürük... Səsini eşidirik... Nəfəsini duyuruq... İzini görürük...

Bir aydan çoxdur ki, itirdiyim 35 illik dostum və qonşum, müəllimlər müəllimi, yazıçı-publisist, Azərbaycan Yazıçılar Biliyinin üzvü, böyük ziyalı və gözəl insan Səməndər Eyvaz oğlu Məmmədov da belə şəxsiyyətlərdəndir.

40 günə yaxındır ki, Səməndər qardaşımız Allahın dərgahına qovuşub... Və yəqin ki, çox istədiyi Zəlimxan Yaqubla ruhları görüşüb və hər ikisi o dünyada bir-birinə söykənib rahat uyuyurlar...

Fərman qardaşımız deyir ki, dünənə qədər Səməndərin ölümünə inanmırdım. Bu cümə axşamı qəbiristanlığa ziyarətinə getdim, qəbirüstü abidəsini gördüm, ölümünə inandım. Onun qəbirüstü abidəsi də çox möhtəşəmdir. O, daşa dönüb və əbədiyyətə qovuşub. Sonra anladım ki, o, daş deyil, onun sevənlərin, eləcə də mənim ürəyimə köçüb. Bax, onda bir az təsəlli tapdım!!!



Səməndər Məmmədov çox böyük insan idi. O, əsl Azərbaycan kişisiydi; əməli, sözü, əxlaqı böyük! Və böyük insanların həmişə də dünya boyda böyük ürəyi olur. O deyirdi ki, bir dəfə kabinetdə əyləşmişdim. Katibə gəlib dedi ki, müəllim, sizi bir imkansız qadın görmək istəyir. Dedim, buyursun! Qadının çox yazıq və fağır görkəmi vardı. Ağlaya-ağlaya danışırdı. Onu axıra qədər dinlədim.

Məlum oldu ki, xanımın həyat yoldaşı həbsxanadadır. Çətinliklər var və iki uşağı məktəbə getmir. Hər iki uşağı məktəbə qəbul elədik və xanım dedim ki, narahat olmayın, onlar məktəbi bitirənə kimi gözüm üstələrində olacaq.

Bu sözlərimdən sonra o, ağlamadı və çöhrəsində sevinc yarandı. Və mən o uşaqlara öz balam kimi, baxdım, uşaqlar ali məktəbə qəbul oldular. Bir gün gördüm ki, həmin qadın əri də yanında məktəbə gəlib. Özü də hədiyyə gətiriblər. Həbsxanadan çıxan həyat yoldaşı dedi ki, mən sənin kimi namuslu, qeyrətli adamı tanıdığıma görə çox şadam. Mənim ailəmə, uşaqlarıma kömək etdiyinə görə, minnətdarıq.

Bunu ancaq sizin kimi mərd insanlar edə bilər. Xanımım hər şeyi mənə danışıb və o, həmişə sənə dua edib. Səməndər müəllim hədiyyəni qəbul eləmir, qaytarır və deyir ki, mənim üçün ən böyük hədiyyə sizin alqışınızdı...

Səməndər müəllim belə mərd, təmənnasız yaxşılıq eləyən böyük kişilərdən idi!!! O, hamını birləşdirməyi, bir-birinə yaxınlaşdırmağı bacaran bir ziyalı idi. Hətta küsülü dostları barışdırardı və heç kim də onun sözündən çıxmazdı!

Hər həftə "Faxralı" kafesində qohumları bir süfrə arxasına yığar, onlara qonaqlıq verər, dadlı-duzlu söhbətlər edər, gözəl şeirlər deyərdi. Xüsusilə də Xalq şairi Zəlimxan Yaqubdan saatlarla söhbət açar, onun poeziyasından danışmaqdan doymazdı... Dostları Məhərrəm Qasımlı, Musa Nəbioğlu, Əlabbas, Yaşar, Şikar, Fərman bu gün də Səməndər müəllimin ölümünə inanmırlar.

Əgər bu dostlar varsa, minlərlə şagirdi, doğmaları hər gün bu böyük ziyalını, bu böyük insanı xatırlayırsa, Səməndər müəllim yaşayır...

Hər gün telefonla danışdığım və darıxdığım adam-Səməndər qardaşımız, sən bizim ürəyimizdəsən. O günü sənə zəng eləmişdim... cavab vermədin... Amma axşam yuxuma gəldin...

Və dedin ki, yerim çox rahatdır, narahat olmayın... Burda telefon tutmur... Ancaq ürəyimiz bir-birimizi tutur... Yerin Cənnət olsun, qardaş! Hər an, hər dəqiqə bu dünyada sənin yerin görünür. Və sənin yerini heç kim verə bilmir ey!!! Biz onunla qohum deyildik, biz onunla ruh qardaşı idik...

## *Bəzi sürücülər piyadalara yol vermirlər...*



**Bakı şəhərində piyadaların təhlükəsizliyi həmişə yol polisi tərəfindən diqqət mərkəzində saxlanılıb. Çünki sirr deyil ki, bir çox piyadalar təyin olunmuş yerlərdən deyil, nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi yerdən keçirlər. Bu da bir çox halda piyadaların vurulması ilə nəticələnir.**

Ona görə də, yol polisi bir qayda olaraq piyadaları maarifləndirir ki, onlar təyin edilmiş yerlərdən- yeraltı, yerüstü keçidlərdən və piyada zolaqlarıdan, eləcə də işıqforun yaşıl işığı yanarkən yolu keçisinlər. Təbii ki, bunlara əməl edən də var, etməyən də! Bunu görə də hərəkət iştirakçıları məsuliyyət daşıyır və qanunu pozduqlarına görə, cərimə edilirlər.

Bunlar hamısı aydındır. Amma aydın olmayan odur ki, bəzi sürücülər piyada zolaqlarını keçərkən hərəkət iştirakçılarına yol vermir və onların həyat üçün təhlükə yaradırlar . Dəfələrlə Bakıda belə sürücü məsuliyyətsizliyinin şahidi olmuşuq və həttа piyada keçidinin üstündə avtomobil piyadanı vurub. Hələ də bəzi sürücülər anlamırlar ki, piyada zolaqlarında piyadalara yol vermək lazımdır.

Məsələn, Aprelin 27- də saat 10:18 dəqiqədə Prezident aparatının qarsındakı zolaqdan " Azneft" tərəfinə gələrkən bir sürücü bizə yol verdiyi halda, digər iki sürücü yolun yarısında yol vermədi və təhlükə yaratdı.Ona öz etirazımızı da bildirdik.Bax , bu cür sürücülər İnzibati Xəbərlər Məcəlləsinin müvafiq maddəsi ilə 40 manat məbləğində cərimə edilirlər.Bir qayda olaraq yol polisi Bakıda hərəkətin təhlükəsizliyini təmin edir, ancaq bəzi intizamsız, məsuliyyətsiz sürücülər isə yol hərəkəti qaydalarını kobud surətdə pozurlar . Sonra da haqsız yerə deyirlər ki, yol polisi bizi cərimələdi!!!

## *Deyirlər ki...*



**Bu gün bazar - dükanlarda nə qədər desən tərəvəz məhsulları - göy-göyərti, xiyar , pomidor, kartof, çiyələk satılır. Və çox adam da böyük sevinclə həmin məhsulları alırlar. Belə baxanda indi aprel ayının axırına yaxındır və həmin məhsulları az da olsa, istehlak etmək olar.**

Amma kənd təsərrüfatı üzrə mütəxəssis Azər Məmmədov deyir ki, adını çəkdiyiniz məhsulun heç biri təbii üsulla yetişdirilməyib. Bu məhsulların hamısı istixana şəraitində yetişdirilir və üstəlik də onların inkişaf etməsi və bol məhsul verməsi üçün kimiyavi dərmanlar, eləcə də müxtəlif gübrələr verilir. Bir çox iş adamları məhsulun tez yetişməsi üçün müxtəlif boyalardan və mənşəyi bilinməyən kimyavi dərmanlardan istifadə edirlər. Bu da insan sağlamlığı üçün çox təhlükəlidir.

Hələ biz məhsula normadan artıq gübrələrin verilməsini demirik. Həmin tərəvəz məhsullarının ən yaxşı yeyilməsi vaxtı təbii yolla yetişməsidir. Yəni günəş işığı altında yetişisən bütün məhsullar daha dadlıdır və insan üçün xeyirlidir. Çünki onun tərkibində bizim üçün lazım olan bütün vitaminlər var. Ancaq indi satılan və istehlak olunan məhsulların hamısı qeyri- təbii yolla yetişdirilib. Bu isə insan sağlamlığına çox ağır zərbə vurar. Ona görə də həmin məhsulları lazımi vaxtda yemək daha məqsədəuyğundur!!!

## *Testdən keçirsənsə...*



**Ölkəmizdə hər hansı ali məktəbi bitirən adam birmənalı olaraq işə qəbul olmaq üçün mütləq test imtahanıdan keçməlidir. Başa düşmək olmur, əgər bir tələbə 4 il ali təhsil alırsa, onun yenidən imtahan verməsinə nə ehtiyac??? Bəzi onda universitetlərin diplomu nə üçündür???**

Bax bu suallara çox cavablar verilib, amma heç birisi nə o tələbələri, nə də ictimaiyyəti qane edib. Yenə dərman öz işində olub, sadəcə çax - çax baş ağrıdıb! Hələ də bu proses davam edir. Yəni işə qəbul üçün test imtahanları keçirilir.Hətta da dövlət qulluğuna da girmək üçün gənclər imtanah verirlər. Elə və gənclər var ki, bu imtahanda yüksək nəticə əldə edib, başqa sözlə demiş olsaq, maksimum dərəcədə bal toplayıb. Amma onu işə qəbul etməyiblər. Ondan az nəticə qazananı isə işə götürüblər.Hansı ki, yüksək bal toplayanın ya " dayı" sı, ya da pul olsaydı, o , oyundankənar vəziyyətə düşməzdi! Onsuz da cəmiyyət hər şeyi görür. O ki, qaldı , testdən sonrakı müsahibəyə , bu da savadlı adam üçün " badalaq atmaq" deməkdir. Yəni münsiflər öz istədikləri adamları keçirir, istəmədiklərini " kəsir" lər.

**Bununsa bir adı var- Ədalətsizlik!!! Sonradan o istedadlı gənclər ölkəni tərk edib gedir və onların yerinə istedadsız adamlar tutur. Bu isə birmənalı olaraq , beyn axını deməkdir!!!**

## *Xanım sürücülər diqqətli olsa...*



**Bu gün ölkəmizdə xanım sürücülərin sayı-hesabı yoxdur. Əgər əvvələr təktük qadın sürücünü sükan arxasında görürdükse, indi daha təəccüblənmirik.**

Ən azından ona görə ki, artıq onların avtomobillərin idarə etməsinə alışmışıq! Amma gəlin onunla razılaşaq ki, bir çox xanım sürücülər nəqliyyat vasitələrini idarə edərkən yol hərəkəti qaydalarını pozur, qəza şəraiti yaradır və hətta " avtoş" luq edirlər. Bu da cəmiyyət tərəfindən heç də birmənalı qarşılanmır.

Bəzi kişi sürücülər deyir ki, biz sükan arxasında qadınları göröndə ehtiyat edir, yol hərəkəti qaydalarını pozacaqlarını hiss edirik. Ona görə də onlardan uzaq durmağa çalışırıq . Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi polis mayoru Toğrul Nəsirli deyir ki, qadın və kişi sürücü anlayışı yoxdur. İntizamlı və intizamsız sürücülər var.

Bu qadın sürücü də ola bilər, kişi sürücü də! Elə qadın sürücü olur ki, nəqliyyat vasitəsini çox səliqəli idarə edir, yeni yol hərəkəti qaydalarına ciddi əməl edir və heç bir qanun pozuntusuna yol vermir. Ona görə də birmənalı demək olmaz ki, qadınlar avtomobilləri təhlükəli idarə edir. Başqa sözlə demiş olsaq, sükan arxasında hamı diqqətli olmalıdır, o cümlədən xanımlar!

Və bir də mədəni sürücülər xanım sürücülərə hörmət yanaşır və çətin vəziyyətdə onlara yol verir. Belə olanda hər şey gözəl olur, qanunlar pozulmur, yol-nəqliyyat hadisələri az baş verir!!!

## *Çiyələyi nə vaxt yemək olar?*

**Bu suala təbii ki, birmənalı cavab vermək çətindir! Ən azından ona görə ki, qışın oğlan çağında belə çox baha olmasına baxmayaraq, imkanlı və varlı adamlar ürəyi istəyəndə bu meyvəni alıb yeyirlər! Nuş olsun! Yaz aylarında çiyələk çox baha olur. Hətta bu məhsulun kiloqramı 100 manata satılır.Amma aprelin ortalarından başlayaraq çiyələk ucuzlaşır.**

İndi bazar- dükanlarda nə qədər desən çiyələk var.Özü də ucuz qiymətə . Biz bu yazını aprelin 28- də qələmə alırıq. Və onda bazarlarda çiyələyin bir kiloqramı 4- 2 manat arasında satılırdı. Bu məhsul 8- ci Kilometr bazarında daha ucuzdur. Özü də çiyələklər çox iridir! İri çiyələklər isə kimyəvi yolla istixanalarda yetişdirir. Bəs aprel ayında çiyəyi yemək insan səhhəti üçün hansı fəsadlar verə bilər? Bu suala ekspert Nadir Məmmədov belə cavablandırdı. O dedi ki, hər meyvənin öz mövsümü, vaxtı var! Həmin meyvə vaxtında yeyləndə insanlar üçün daha xeyirlidir.İndi siz apreldə satılan çiyələklərdən danışırsınız.



Heç şübhəsiz ki, indiki çiyələklər təbii yola yetişməyib və onu istixana şəraitində kimyəvi yolla becəriblər. Həddindən artıq iri çiyələklər isə daha çox kimyəvi maddələr verilib.Bax bu yetişən məhsulları istehlak edəndə bəzən zəhərlənmə halları, eləcə də , allergiyası olanlarda müyyən fəsadlar yaranır.

**Bu mənada insanların maarifləndirilməsinə böyük ehtiyac var! Biz bir mütəxəssis kimi məsləhət bilirik ki, insanlar çiyələyi mayın 20- dən sonra yesinlər. Çünki bu vaxt satılan çiyələklər gün işığında yetişir və tərkibində lazımi vitaminlər mövcuddur. Yəni göstərdiyimiz vaxtda çiyələyin yeyilməsinin heç bir qorxusu və təhlükəsi yoxdur, əksinə xeyiri var!!!**

Emil FAİQOĞLU



# "Şərq heç vaxt Qərb, Qərb heç vaxt Şərq olmayacaq"

**"Şərq hərbi çevrilişlərin, üsyanların, Qərb siyasi sui-qəsdlərin, inqilabların coğrafiyasıdır. Yəni Şərq böyük bir kənddir, Qərb böyük bir şəhər. Niyəsini bilmək üçün maarifçilik hərəkatımın tarixinə baxmalıyıq. Britaniya alimi Conatan İzraelə görə, Avropada maarifçilik Renessansdan sonra deyil, əvvəl başlamışdı. Orta əsrlərdəki xristian teoloqlarının mübahisələri dinin hegemonluğunu zəiflədərək maarifçilik üçün zəmin hazırladı. Eyni doqma və ehkamların müxtəlif yönlərdən şərhi kilsədən cəmiyyətə sıçrayaraq gələcəyin maarifçilərini doğub böyüdəcək ictimai-sosial mühiti yaratdı".**

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

O, bildirib ki, teoloqlar maarifçilərin babaları oldular:

"Teoloqların fikir müxtəlifliyindən əks fikirli təriqətlər, fəlsəfi cərəyanlar törədi. Ümumiyyətlə, təriqətlərin yaranması dini hegemonluğun zəiflədilməsi üçün vacib addımdır. Təriqətlər dini çürüdür. Qanlı və sözlü fikir ayrılığına səbəb olmalarına baxmayaraq, təriqətlər mədəniyyətin inkişafında irəli atılmış ibtidai addımlardır. Dinin gücünü parçalayıb onun yerinə dövlətin və sənətin keçməsinə şərait yaradırlar".

Onun sözlərinə görə, Qeyri-hökumət təşkilatları da, bir növ, dövlətin gücünü "parçalayan" sivil təriqətlərdir: "Düzgün işləsələr mədəniyyətə xidmət etmiş olarlar. Avropada maarifçiliyin uğur qazanmasının bir səbəbi xristianlığın təriqətlərə, fikir ayrılıqlarına bölünməsi idisə, digər daha vacib səbəbi ingilis intellektualı Terri İqletona görə, maarifçilərin çoxunun burjua təmsilçisi olmasıydı. Düzdü, onların arasında irland əsilli Toland kimi çoban oğlu olanlar da vardı, amma dəyişim istəyi burjuadan, elit zümrədən gəlirdi. "Ensklopediya"nın ilk oxucuları varlı insanlar idi. Hətta bir çox maarifçilər - başda Volter olmaqla - maarifçiliyin xalqa dəxli olmadığını idda edirdilər. Volter deyirdi ki, xalq həmişə cahil olaraq qalacaq. Buna baxmayaraq, maarifçi ideyalar get-gedə aşağı zümrələrin də rəğbətini qazandı və xalq tanrının "ölümü" ilə barışdı". Yazıçı deyib ki, Şərqdə təriqətlər öz işini gördü, amma elit zümrə dəyişim istəmədi: "Maarifçilik yoxsulun istəyi oldu. Kitabları yoxsullar oxudular. Varlılar peyğəmbərin, imamın arxasında gizlənib pul saydılar.Gələk üsyanlara və inqilablara.



Qərbdə ağa və təbəə arasında qədim Roma ənənəsi vardı. Təbəə ağadan sərt qaydalarla ayrılırdı, onun ağası ilə hər hansı bir ortaq haqqı yox idi. Şərqdə isə ağa və təbəə "Qurbanəli bəy" hekayəsində olduğu kimi zarafatlaşa da bilərdi. Şərqin ağası yalnız puluna görə təbəəsindən üstün idi. Ona görə də Qərbdə haqq uğrunda inqilablar, Şərqdə vergilərin azaldılması və s. uğrunda üsyanlar baş verdi. Qərbli haqq tələb edəndə, şərqli vergilərin azaldılmasını tələb etdi. Qərblinin Böyük Fransa inqilabı ilə əldə etdiyi insan haqları heç bu gün də şərqli üçün cəlbedici deyil".

A.Yenisey bildirib ki, ən son İran iğtişaşları belə rejimin boğduğu insan (xüsusilə qadın) haqları uğrunda deyil, bazarda pulun dəyər itirməsinə görə alovlanmışdı: "Hərbi çevrilişlərə və sui-qəsdlərə gəlincə. Maarifçilik sosial həyatın yükünü dindən alıb dövlətin və sənətin üstünə qoyduğu üçün Qərbdə yeni idarəetmə fəlsəfəsi formalaşdı. Problem vardısa, sistemdə deyildi, şəxslərdə idi, ona görə şəxsi aradan götürmək yetərdi ki, sistem rahat işləsin. Şərqdə bu proses getmədiyi üçün hər dəfə sistemi yenidən qurmaq gərəkirdi. Eyni zamanda hər dəfə də köhnə sistemi yıxmalıydın ki, yenisini qura biləsən. Şərq haqqında bu dediklərim xeyli Afrika ölkəsinə də aid edilə bilər. Kiplinq belə-belə işlərə görə deyirdi ki, Şərq heç vaxt Qərb, Qərb heç vaxt Şərq olmayacaq".

**Vasif ƏLİHÜSEYN**

# "Əfqanıstandakı qadınlara tətbiq olunan məhdudiyyətlər, onların təhsildən..."

**"Yaxın Şərqdə artan gərginlik, o cümlədən İran ətrafında qeyri müəyyənlik fonunda Pakistanla Əfqanıstan arasında yenidən toqquşmalar qeydə alınıb. Pakistan hərbi qüvvələri bir neçə gün əvvəl Əfqanıstanın Kunar bölgəsini raket atəşinə tutublar. Ölən və yaralananlar var. Mülki infrastruktura ciddi ziyan dəyib. Davam edən toqquşmalar səbəbindən fevral ayının sonundan bəri Əfqanıstanın şərqində və cənub-şərqində 100 mindən çox insan didərgin düşüb".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, Pakistan tərəfi həmin bölgədə Təhriki-Taliban Pakistan yaraqlılarının qərargahının olduğunu bildirib:

"İslamabad Əfqanıstanda hakimiyyətdə olan Talibanı pakistanlı həmkarlarını himayə etməkdə ittiham edir. Taliban bu iddiaları qəbul etməyərək Əfqanıstanın suveren hüquqlarının pozulduğunu vurğulayır. İki ölkə arasında münasibətləri gərginləşdirəbn digər iki mövzu da var. Birincisi, bu Əfqanıstanın rəsmi olaraq tanımadığı Durand sərhəd xəttidir, ikincisi, illər öncə Pakistanda məskunlaşan milyonlarla əfqan qaçqının geri qaytarılmasıdır.Taliban geri qayıdan əfqanları yerləşdirməkdə və qida ilə təmin etməkdə acizdir. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) bu vəziyyətin kritik olduğunu açıqlayıb. Təşkilatın sözçüsü Babar Baloçun sözlərinə görə, Əfqanıstan əvvəllər də ciddi humanitar böhranlarla üzləşib, ancaq yeni regional qarışıqlıqlar geri qayıdan qaçqınlara və məcburi köçkünlərə təzyiqi artırıb".



E.Şahinoğlu bildirib ki, qısa müddət ərzində İran və Pakistandan beş milyondan çox əfqan geri qayıdıb:

"İranı tərk edən əfqanlar vətənlərində daha bir münaqişə ilə üz-üzə qalıblar. Bu əfqanlar yardıma möhtacdırlar. Ümumdünya Ərzaq Proqramının məlumatına görə, Pakistan-Əfqanıstan sərhədinin bağlanması və İrandakı vəziyyətin pisləşməsi humanitar təşkilatları əsas təchizat yollarından məhrum edib. Bundan başqa Əfqanıstandakı qadınlara tətbiq olunan məhdudiyyətlər, onların təhsildən, işdən və hərəkət azadlığından məhrum edilməsi bu ölkədə həyat şərtlərini daha da ağırlaşdırıb. BMT əfqan qaçqınlara yardım etmək istəsə də, maliyyə və yardımın çatdırılması imkanları məhduddur. Digər tərəfdən Taliban qüvvələri ilə Pakistan qoşunları arasında sərhəd toqquşmaları Əfqanıstanın şərqində humanitar vəziyyəti daha da pisləşdirib və mülki əhaliyə zərər vurub.Beləliklə, Əfqanıstan humanitar yardıma ehtiyac duyarkən, Talibanın insanlara tətbiq etdiyi məhdudiyyətlər və Pakistanla sərhəddə davamlı toqquşmalar bu ölkənin problemlərini artırıb. Halbuki, Əfqanıstan dünyada ən zəngin mineral ehtiyatlara malikdir, bunlar istismat edilərsə, milyardla dollar qazanc əldə etmək mümkündür".

**Sübhan**

# Kartlardan pul çıxılır?

**Kartdan ödəniş zamanı sinxronizasiya - bu cür mexanizm nəqliyyat ödəniş sistemlərində normal praktika hesab olunur və bir çox ölkələrdə tətbiq edilir.**

Adalet.az xəbər verir ki, bunu faiz dəhlizinin parametrlərinə dair qəbul edilmiş qərarın açıqlanmasına həsr olunan mətbuat konfransında Mərkəzi Bankın İdarə heyətinin sədri Taleh Kazımov bildirib. O qeyd edib ki, terminal ödənişi qəbul edir və məlumatı sistemə ötürür:

"Ödəniş zamanı sistem kartda vəsaitin olub-olmadığını dərhal tam yoxlamaya da bilər. Sərnişin ödənişi etdikdən sonra vəsaitin bir neçə gün sonra tutulması halları mümkündür".

O həmçinin vurğulayıb ki, əslində , sistem sonradan kart balansını yoxlayır.

"Nümunə olaraq, kartda həmin anda vəsait olmasa belə, aparat sərnişinə keçid imkanı verir. Lakin sistem həmin kart üzrə borcun yarandığını qeydə alır. Daha sonra müəyyən müddətdən sonra karta yenidən müraciət olunur və balansda vəsait olub-olmadığı yoxlanılır. Əgər vəsait daxil olubsa, məbləğ sonradan tutulur".

AMB sədri onu da əlavə edib ki, bu praktika nəqliyyat sahəsində geniş istifadə olunur:

"Çünki sərnişin kartında pul olmasa belə, avtobusdan və ya qatardan istifadə edə bilir.

Daha sonra isə sistem arxa planda kartı periodik şəkildə yoxlayaraq ödənişi həyata keçirməyə çalışır.

Balansda vəsait olmadıqda isə yoxlamalar davam etdirilir".

**T.Kazımov bildirib ki, terminalların sinxron işləməsi ilə bağlı texniki məsələlər birbaşa həmin ödəniş sistemlərini idarə edən tərəflərin səlahiyyətindədir. "Bu proseslər əsasən beynəlxalq ödəniş və maliyyə sistemləri tərəfindən müəyyənləşdirilir", - deyə o fikrini tamamlayıb.**

## Türkiyə-Azərbaycan Universitetinə infotur təşkil olundu

**İki qardaş ölkənin ortaq akademik platforması olan Türkiyə-Azərbaycan Universitetinə (TAU) infotur təşkil edilib.**

Adalet.az xəbər verir ki, infoturda nazirlik yanında İctimai Şuranın üzvləri, təhsil mütəxəssisləri, media nümayəndələri və digər qonaqlar iştirak ediblər.

İnfotur çərçivəsində əvvəlcə TAU-nun Tədris şöbəsinin müdiri Günel Teymurova universitet haqqında təqdimatla çıxış edib. O bildirib ki, TAU-da təhsil dövlət hesabınadır. Azərbaycan tərəfi universiteti torpaq, bina, laboratoriya və avadanlıqla təmin edir, Türkiyə tərəfi isə tədrisin keyfiyyəti, proqramların təşkili və 8 semestrlik tədris planının icrası ilə məşğul olur.

Günel Teymurova qeyd edib ki, hazırda TAU-da ümumilikdə 174 tələbə təhsil alır. Cari tədris ili üzrə qəbul olunanların sayı 92, ötən il qəbul olunanların sayı isə 82 nəfərdir. O əlavə edib ki, ən yüksək ortalama bala malik tələbələrdən 5-i artıq işlə təmin olunub. İnfotur iştirakçılarının diqqətinə çatdırılıb ki, məzunlara həm Türkiyənin, həm də Azərbaycanın beynəlxalq səviyyədə tanınan diplomları təqdim edilir. Rəsmi hissədən sonra infotur iştirakçıları universitetin qida texnologiyası, instrumental analiz, qida kimyası, mikrobiologiya, fizika və kompüter laboratoriyalarında yaradılmış şəraitlə tanış olublar, tədris prosesini izləyiblər. TAU-nun Qida mühəndisliyi proqramının rəhbəri Ümran Uyqun infotur iştirakçılarının suallarına cavab olaraq bildirib ki, "çətir universiteti" modeli əsasında fəaliyyət göstərən TAU Türkiyənin üç aparıcı universitetinin proqramlarını özündə birləşdirir. Tədris kompüter mühəndisliyi üzrə Orta Doğu Texniki Universitetinin (ODTÜ), sənaye mühəndisliyi üzrə İstanbul Texniki Universitetinin (İTÜ), qida mühəndisliyi üzrə isə Hacettepe Universitetinin proqramlarına uyğun aparılır. Universitetin Azərbaycan tərəfdən tərəfdaşı Azərbaycan Texniki Universitetidir (AzTU). Ümran Uyqun vurğulayıb ki, əsas məqsəd əmək bazarının tələblərinə cavab verən ixtisaslı mühəndislər hazırlamaqdır. Bu məqsədlə hər ixtisasa uyğun laboratoriyalar qurulub və tələbələrin praktiki bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir. TAU-nun Kompüter mühəndisliyi proqramının rəhbəri Ahmet Coşar ODTÜ ilə birgə həyata keçirilən proqram barədə məlumat verərək bildirib ki, hazırda bu proqram üzrə 86 tələbə təhsil alır. Onlardan 48-i ingiliscə hazırlıq qruplarında, 32-si I kursda, 6-sı isə II kursdadır.

O qeyd edib ki, tədris proqramı Qərbi Avropa və Şimali Amerikanın aparıcı universitetlərinin proqramları ilə eynidir və dərslər yüksək səviyyəli ingilis dilində keçirilir. Məzunların müasir veb və mobil texnologiyalar, süni intellekt, data elmləri və kompüter sistemləri sahəsində fəaliyyət göstərə biləcəyi vurğulanıb.

TAU-nun İngilis dili proqramının rəhbəri Mutlu Çalışkan media nümayəndələrinə açıqlamasında bildirib ki, universitetdə tədris ingilis dilində aparılır. Tələbələrin akademik ingilis dili bacarıqları ODTÜ mütəxəssisləri tərəfindən inkişaf etdirilir. Onun sözlərinə görə, azərbaycanlı tələbələr xüsusilə danışıq bacarıqları üzrə yüksək nəticələr göstərirlər. İnfotur çərçivəsində iştirakçıları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

Qeyd edək ki, cari tədris ili üzrə TAU-nun kompüter mühəndisliyi ixtisasına qəbul üzrə ən yüksək bal 674.3, sənaye mühəndisliyində 654.4, qida mühəndisliyində isə 553.6 olub.

## Marketlərdə satılan sular...




**Bir çoxlarımız içməli suyu təmiz olduğu üçün market və mağazalardan alırıq. Düşünürük ki, evlərimizə gələn su o qədər də təmiz deyil.Bunu düz eləyirik.Amma gəlin onunla razılaşaq ki, bir çox hallarda marketlərdə də satılan sular ekoloji çəhətdən tamamilə təmiz deyil!**

Çünki təmiz su, eləcə də " Slavyanka" adı altında satılan suların çoxu Bakıda filtrdən keçirilib təmizlənmiş sulardı. Bunu tək biz demirik və ayrı - ayrı ekspertlər, mütəxəssislər də deyir. Belə ki, uzaq məsafədən - Gədəbəydən gətirilən su çox xərc tələb edir və bu elə asanlıqla başa gəlmir.Ekspert Nadir Əhmədov bildirir ki, birmanalı demək olmaz ki, marketlərdə satılan sular ekoloji cəhətdən təmiz deyil. Ona görə ki, həmin yerlərdə kifayət qədər keyfiyyətli içməli sular satılır.

Onunla razılaşmalıyıq ki, bir çox halda dükanlarda lazımi standartlara cavab verməyən su da var. Dəfələrlə aidiyyəti qurumlar tərəfindən marketlərdə belə keyfiyyətsiz sular aşkarlanmış və satışdan çıxarılmışdı. Bu mənada Qida Qida Təhlükəsizliyi Agentliyinin üzərinə yüksək məsuliyyət düşür.Ona görə də sexlərdə və digər gizli yerlərdə qablaşdırılmış və qeyri- qanuni yerdə hazırlanmış suların market və mağazalara gətirilib satılmasının qarşisı alınmalıdır. Onu da qeyd edək ki, filtrdən keçirilib təmizlənmiş sular, bizim evimizə gələn sudan qat- qat təmizdir. Yəni belə suları içmək olar!!!

**Emil FAİQOĞLU**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# ÖMRÜN BİR ANI

## Bəzən onu unutmaq mümkün olmur

**Yaşım heç də az deyil. Əsrin yarısını çoxdan geridə qoymuşam. Və bu yaş mənə çox şeyləri həm yaşadıb, həm də əlimdən alıb. Öncə əlimdən aldıqlarından başlayıram. Birlikdə xatırlayaq:**

**Vətəndə vətənsizlik. Yəni 30 il Qarabağsız yaşamaq. Əgər bu yaşamaqdırsa... Sizi deyə bilmərəm, mənim üçün yaşamaq yox, iynə ilə gör qazmaq idi bu 30 il. Və bu 30 ilin içində neçə dəfə köç etdim. Uşaq bağçasında, yataqxanada, dost-tanış evində müvəqqəti sığınmaq, gecələmək mucadiləsi apardım. Amma bir an da olsun əlimdən alınan yurdu, yuvanı unutmadım. Hər döngəsini, hər daşını, özümün və orada doğulan övladımın yelləncəyi asılmış tut ağacından tutmuş ilk barını verən armuda, almaya qədər hər şeyi gözümün önündə gəzdirdim olduğum hər yerdə.**

**Sonra atamı əlimdən aldı. Qəbri əmanət oldu. Və mən də küreyimi söykədiyim özüm üçün ən güclü, ən ədalətli və ən ləyaqətli kişi kimi seçib, sevib idealım olan bir insandan zorən ayrıldım. Yetimliyin ilk acısını yaşadım. Məsləhət yerim azaldı.**

**Sonra anamı əlimdən aldı. Həyatımın, ömrümün ən gur işığı söndü. Başımı söykəyib yuxuladığım diz, üzümü söykəyib kövrəldiyim bir varlıq Tanrı dərgahına köçdü. Məni Yer üzündə tək-tənha qoyub getdi. Onunla yetimliyin bütövlüyü, tamlığı çökdü sinəmə. Oturtdu məni dizinin dibində. Həyatımda nəyim varsa hamısını bölüşdüyüm, hamısına görə gah məni tərifləyən, gah da danlayan, amma bir dəfə də olsun bir ana şilləsi vurmayan Yer üzünün ən gözəl, ən müqəddəs, ən şirin və ən doğma varlığı elə bil ki, heç nə olmamış kimi və heç nə deməndən çıxıb getdi. Hətta son nəfəsində ovcumun içində olan əli də əsmədi. Bircə kirpiklərinin lap dibində ulduz kimi işaran damla var idi. Bəlkə də bu, ayrılığın göz yaşı idi. Bəlkə də "əlvida" demək idi, bəlkə də "gözləyəcəm"pıçıltısı idi. Amma hər nə idisə ana ayrılığı idi.**

**Bu iki böyük itkidən sonra heç ağlıma da gəlməzdi ki, daha böyük zərbə gözləyir məni. Amma ağlıma gəlməyən başıma gəldi. Və ailəmizin ən kiçiyi, sonbeşik qardaşım heç kimə heç nə deməndən, ağrımadan, acımadan, küsmədən, incimədən televizorun qarşısında oturub sevdiyi filmi izləyə-izləyə köçüb getdi atamın, anamın yanına. Hələ indi də anlaya bilmirəm ki, atam, anam çağırdı qardaşımı, yoxsa özü ata, ana üçün darıxıb çıxıb getdi. Bircə bildiyim odur ki, o da artıq həyatın, illərin məndən aldığı ən böyük varlıqdır. Çünki təkcə onun səsi mənim üçün hər şey idi.**

**İllərin məndən aldığının digər çalarları da var. Onların sırasında ən çox məni göynədən dostlarımın köçüb Cənnətə getməsidir. Və illərin mənə verdiklərini xatırlayanda...**

**Etiraf edim elə şeylər var ki, onu arzulamışam. Onu əldə etmək istəyimi gizlətməmişəm. Qovuşduğum da olub, adıma ərmağan edilənləri də. Mən bu hədiyyələri həm Allahın, həm də bəndələrin mükafatı kimi qəbul etmişəm. Ona görə də bu mükafatların ictimailəşməsi məndən asılı olmayıb. Necə deyərlər, ellə gəlib və el də bilib hər şeyi. Bu gun isə...**

**Dünən, yəni mayın 7-də mənə təqdim olunan mükafat həyatımın ən həssas nöqtəsinə, ən yaddaqalan məqamına düşən gün işığı idi. Çünki gözləmədən, xəyal qurmadan, necə deyərlər, oturduğun yerdən qapından içəri girən müjdə, xoş xəbər özü ilə bir, indiki dildə desək, ŞOK gətirir. Adamın bütün vücudu həm ayağa qalxır, həm də kövrəlir. Yaşadığına da, yazdığına da, xidmətlərinə də özün öz içində bir anlıq baş əyirsən. Dəyər verənlərin böyüklüyünə ehtiramını bildirirsən. Anlayırsan ki, hələ bu dünyanın sonu deyilmiş, hələ hər şey bitib qurtarmayıb. Və bir də anlayırsan ki, Yaradan yaratdıqlarını sevgidən yaradıb. Deməli, mən və bütün mənimkimilər bütünlüklə Allahın nəzərindədir. Ona görə də gec, ya tez Allah yaratdıqlarının haqqını özünə verir. Bu mənada dünən, yəni mayın 7-də mən aldığım mükafatla ömrümün yaşanan illərinin ən şirin anını haqq etmiş oldum. Bildim ki:**

Anlaşaraq bərəsiylə, bəndiylə
Mən bu yolu xəyalımda çox keçdim....
Yararlanıb zəmanənin fəndiylə -
Bir qarın ac, bir qarın da tox keçdim....

Qaçılmazdı büdrəmək, ya yıxılmaq -
Bildiyimdən, dayanmadım, durmadım....
Haqlı-haqsız, açıq-aşkar sıxılmaq -
Olayların, heç vaxt üzə vurmadım!

Ümidlərin tumurcuğun, çiçəyin
Mən bir köynək yaxınımda gördükcə...
Ağrıları unudurdum ürəyin -
Səhərləri bir-birinə hördükcə!..

Görünsəm də bir az fərqli, havalı -
Demə gözüm yeri-göyü seçmirdi!
Kimlərinsə dil əzbəri - bu halı -
Heç ağlımın ucundan da keçmirdi!

...Mən bu yolu ilk addımdan bu günə
Alın tərim və sevgimlə göyərtdim!
Ümidlərim düşəndə də düyünə -
Mən bu yola SEVGİ nədir? - öyrətdim...

**İndi yaşadığım bir anın çəkisini, ölçüsünü, həcmini tapmaq üçün nə qədər baş sındırsam da, amma konkret bir nəticəyə gəlib çıxa bilmirəm. Çünki yaşadığım cəmiyyətin ələyi də, xəlbiri də mənə bəllidir. Ona görə də bu düşüncəni, o ağlımdan gəlib keçənləri qatlayıb qoyuram bir kənara. Və özümü inandırıram ki, Yer üzündə ən ali güc ƏDALƏTdir. Və o ƏDALƏT də gec-tez öz yerində, öz mərtəbəsində oturur. Məhz həmin məqamda hər kəsin həyatının ƏDALƏTi də öz yerində olur. Deməli, dünən, may ayının 7-də mənim həyatımın ƏDALƏTi öz taxtında oturmuşdu, öz mərtəbəsində idi. Ona görə də Allahın iradəsi ilə Yer üzündəki ən nurlu, ən işıqlı insanlar layiq bildikləri mükafatın üstünə mənim də adımı yazdılar. Mən də illərlə içərisində olduğum sözün barını dərdim, ədəbiyyatın ADAMI oldum, daha doğrusu Ədəbiyyatın Adamı kimi təsdiqləndim. Bu şərəfli adın simvolunu mənə əlimi sıxaraq təqdim edən akademik, yazıçı, böyük aydınımız Kamal Abdulla ən səmimi və isti bir səslə: Əbülfət, təbrik edirəm! - dedi.**

**Bəli, bu mükafat da o səs qədər isti və doğma, o sıxdığım əl qədər güvənli idi. Mən də öz növbəmdə yaşadığım dünənki ana görə Allahıma, çox hörmətli Kamal müəllimə və əməyi keçən hər kəsə minnətdaram!**

# Elçinin xatirəsinə həsr olunmuş "Şekspir" tamaşası

**Mayın 5-də Bakı Bələdiyyə Teatrının Xalq yazıçısı Elçinin "Şekspir" pyesi əsasında səhnələşdirdiyi eyniadlı tamaşanın nümayişi olub.**



Görkəmli yazıçı və dramaturq Elçinin xatirəsinə həsr olunmuş tamaşanın təqdimatı Şəhriyar adına Mədəniyyət Mərkəzində keçirilib.

Gecədə millət vəkilləri, dövlət qurumlarının təmsilçiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov Elçinin yaradıcılığından, Bakı Bələdiyyə Teatrı ilə olan əməkdaşlığından bəhs edib. Daha sonra tamaşanın nümayişi başlayıb.

Qeyd edilməlidir ki, "Şekspir" pyesi İngiltərə, ABŞ, Türkiyə, Rusiya, İtaliya, Ukrayna, Gürcüstan və digər xarici ölkələrdə səhnəyə qoyulub. Geniş tamaşaçı auditoriyasının marağına səbəb olan əsər, eyni zamanda dünya ictimaiyyətinin Azərbaycanın zəngin ədəbi irsi ilə yaxından tanış olmasına da şərait yaradıb.



Rejissor Mərahim Fərzəlibəyov "Şekspir" əsərinə tam fərqli prizmadan yanaşıb. O, tamaşaçıları "Şekspir" vasitəsilə Elçinin dərin fəlsəfi fikirləri ilə tanış edib.

Səhnə əsəri ümumbəşəri dəyərlərə işıq tutaraq insanı xeyirxahlıq, sevgi və mərhəmət yoluna dəvət edir, onu mənəvi axtarışlara sövq edir. Tamaşanın quruluşçu rəssamı, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, musiqi hissə müdiri, Əməkdar mədəniyyət işçisi Nazim Əbidov, işıqçı rəssam Tərlan Ələsgərli, kostyum sexinin müdiri Leyla Əkbərova, dizayn işləri üzrə tərtibatçı Elnur Ehtiramoğludur.

Rollarda iştirak edirlər: İlqar Musayev (baş həkim), Ülviyyə Rza (həkim), Hüsniyyə Mürvətova (Əməkdar artist) Sara Bernar, Rəşad Kəsəmənli (İosif Stalin), Zülfiyyə Qurbanova (Ər-arvad), Tural Əhməd (Drob 13), Toğrul Rza (veneralı), Elçin Muradov (sanitar), Rəşid Soltanov (I sanitar), Namiq Cavadov (II sanitar).

"Şekspir" tamaşası izləyicilər tərəfindən yüksək maraqla qarşılanan və dərin təəssüratlar yaradan səhnə əsərlərindən biri kimi dəyərləndirilir. Səhnə əsərinin təqdimatı bu dəfə də zalda böyük coşğu və alqışlarla müşayiət olunub.

**Bakı Bələdiyyə Teatrı 1992-ci ildə Ulu Öndər Heydər Əliyevin dəstəyi ilə Xalq artisti Amaliya Pənahova tərəfindən təsis olunmuşdur. Bu illər ərzində teatr onlarla tamaşa hazırlayaraq, yerli və beynəlxalq səhnələrdə, o cümlədən cəbhə bölgələrində uğurla çıxış etmişdir. Teatr Türkiyə, Rusiya, Yunanıstan, Almaniya və digər xarici ölkələrdə müxtəlif tamaşalar nümayiş etdirərək Azərbaycanın və bütövlükdə Türk dünyasının mədəniyyətini geniş auditoriyalara çatdırmışdır.**

# Günay Əfəndiyeva Dövlət Teatrlarının baş direktoru ilə görüşüb

**Millət vəkili Günay Əfəndiyeva Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi Dövlət Teatrlarının baş direktoru ilə görüşüb**

Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva Ankaraya səfəri çərçivəsində Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Dövlət Teatrlarının baş direktoru, tanınmış aktyor və rejissor Tamer Karadağlı ilə görüşüb.

Görüşdə Azərbaycanın Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" fəlsəfəsinin yalnız siyasi və iqtisadi sahələrdə deyil, eyni zamanda mədəniyyət və incəsənət sahəsində də dərin köklərə malik olduğu vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan ilə Türkiyəni birləşdirən bağlar ortaq tarixin, dilin, folklorun, adət-ənənələrin sarsılmaz vəhdətidir.

Günay Əfəndiyeva qeyd edib ki, Azərbaycan və Türkiyənin timsalında bütövlükdə Türk Dünyası eyni kökdən qidalanan böyük bir mənəvi coğrafiyadır.

Tərəflər teatr sənətini Türk xalqlarının qardaşlıq münasibətlərinin dərinləşməsində önəmli vasitələrdən biri kimi dəyərləndiriblər.



Görüş iki ölkənin dövlət teatrları arasında əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı qastrol səfərlərinin təşkili, birgə tamaşaların hazırlanması, aktyor və rejissorların mübadiləsi kimi məsələlər ətrafında müzakirələrlə davam edib.

*Onun 80 illiyinə təbrik məktubumda yazdığım :"Əsl ədəbiyyibyyat zamanla köhnəlmir - o, zamanın özünə çevrilir."- cümləsini çox bəyəndi. Bu müsahibəni alandan sonra isə əminliklə deyirəm ki, zamana çevrilən əsl ədəbiyyat elə Seyran Səxavətin özüdür.*

*Seyran Səxavət - zamanın yaddaşı, ədəbiyyatın sözü, dilimizin milliliyidir.*

**- Seyran müəllim,**

**S.S -** Can!

**- Dəli şeytan hələ də nəsə deyir?**

**S.S -** Dəli Şeytan həmişə deyir. Dəli olsa da bunun adında "şeytan" sözü var, həm də. Koroğlunun ətrafındakılara da "dəli" deyirdilər. Elimizin-obamızın da sözü var ki:" Filankəs dəli-dolu adamdır", "Dəlisov adam". Mənim bir şeirimdə axırda deyir:

***"Dəli Şeytan deyir ki,***
***Dəli şeytanı ol bəşəriyyətin."***

Dəli Şeytan çox şey deyir ey adama. Hə nə olsun deyir?!

Baxır kimə deyir, nə deyir. Onun qarşısındakı adamdan da çox şey asılıdır. Adam o qədər hazırlıqlı olmalıdır ki, dəli şeytanın dediyini harda, nə vaxt edib, etməyəcəyini bilsin. Bəzən elə şeylər deyir ki, onu mütləq etmək lazımdır.

Dəli Şeytan - çox maraqlı bir tipdir. Mən onu diri görürəm, elə şeytan kimi görürəm. Mən bilən o, iki növbədə işləyir. Bir növbəni xeyir işləri ilə məşğul olur. Digərində isə onları darmadağın edir.

Mənim aləmimdə Allahın yaratdığı 10 maraqlı mövcudiyyət varsa, biri elə Dəli Şeytandır. Yəqin ona görə də o şeiri yazmışam. Mən bilən heç Azərbaycanda "Dəli Şeytan" şeiri yazan yoxdur.

**- Bəli, ifadə kimi işlədilir, günahlar boynuna yıxılır, amma şəninə misralar yazılmır. Sözünə qulaq asıb, bəşəriyyətin "dəli şeytanı" oldunuz?**

**S.S -** Biraz tənqid eləsəm də onu, elə onun prinsipi ilə işləyirəm, təxminən. Amma ümumilikdə az qulaq asıram ona, çünki mən başımla yox, ürəyimlə işləyən adamam. Yuxarı mərtəbə mənlik deyil və mən ürəyimə hər şeyi etibar edərəm, o, heç vaxt məni pis vəziyyətdə qoymayıb. Elə sirlərim var ki, onu ancaq ürəyimə etibar eləmişəm, ağlıma yox. Ağlın bir istiqaməti də "biclik" deyilən bir sözdür. Ona hansısa sirrini etibar edərsən, sonra sui istifadə edə bilər, baxmayaraq ki, baş öz başındır lazımsız yollara çəkər səni. Amma ürək...

Biz ona "ürək" deyirik, anatomiyada da adı elə gedir.

Çox istədiyim Məmməd Arazın iki misrası var, deyir:

***"Anamdan, bacımdan gizlətdiyimi***
***Qələmdən kağızdan gizlətməmişəm..."***

- möhtəşəmdir, İlahi! Bax o qələmlə-kağızın arasında nəsə bir şey var ha, ürək - həm də odur.

**- Dediniz şeytan iki tərəfli işləyir, siz hansı tərəfi üstün tutardınız?**

**S.S -** Mənim də mövqeyim elə ikili olardı. Hətta bəlkə də mən bəşəriyyətin dəli şeytanı olsaydım, ona yuxarıdan aşağı baxardım, heç bəyənməzdim də. Bəraəti olmayan bir hikkəylə bəşəriyyətə münasibət bəsləyərdim. Axı mən insanam, həm də çiy süd əmmişəm...

**- Bir qıza yazdığınız "İki arzu" şeiriniz var.**

**S.S -** Hə... İlk çap olunan şeirimdir. Orta məktəbdə oxuyurdum, 16 yaşımda çap olunub, amma hardasa 12-14 yaşda yazılıb. O vaxt çap olunmaq böyük problem idi axı. Kənd uşağı, "Qızıl Araz" rayon qəzeti - bəhbəh-bəh.

Qəzetin redaktoru rəhmətlik Feyruz Atakişiyevlə bağlı bir xatirəm yadıma düşdü. Onda redaksiya məsciddə yerləşirdi. Uzunqulaqla gəldim redaksiyaya. Deməli, öz aləmimdə yaxşı iş görürmüş kimi İki litirlik şüşə qabda südü də rüşvət gətirmişdim ki, bəlkə südün xətrinə məni çap eləsinlər. Redaktor dedi ki:"Bala, bu nədir gətirmisən?"

Həyəcandan karıxdım, dedim: "Feyruz əmi, müəllim, südü, gətirdim ki, iç cana gəl biraz." - çox arıq kişi idi. Redaktor xeyli güldü.

Onda redaksiyaya başqa şeir gətirmişdim. Elə bilirdim ki, elə südü içən kimi şeirimi çap edəcəklər. Amma bu söhbətdən düz iki il sonra çap olundum. O şeir yadımdadır, bizim bir rus dili müəllimimiz var idi, onun qızına həsr etmişdim. Kəndimizin qızlarının hamısının özünəməxsus gözəlliyi olsa da, bu qız fərqlənirdi ,çox sığallı, tumarlı göyçək bir qız idi. Kəndin bütün oğlanları o qıza vurulmuşdu, onlardan biri də mən idim. *(Gülür)*

Ona sevgimi etiraf etməkdən ötrü 20-25 gün o üç kəlmənin tərcüməsini rəhmətlik anamdan tək-tək öyrəndim ki, məndən şübhələnməsin. Anam savadlı qadın idi, bir neçə dil bilirdi. Biz tərəfdə anamıza "bajı" da deyirik. Bir gün soruşdum ki, bajı, "mən" rus dilində necə deyilir? - dedi "ya". Bir həftə, on gün gözlədim, bir də soruşdum:"bajı, "səni" rusca necə deyilir?" Dedi:"Tebya." Bir 10-15 gün yenə də gözlədim ki, anam şübhələnməsin, dedim:"bajı, rusca "sevirəm" nə deməkdir?" Dedi:" Lyublyu."

Öz-özümə dedim ki, həəə, daha üçatılan silahım əlimdə hazırdır "Ya tebya lyublyu." Bir gün kolxozun həyətində, ot tayasının dibində bu qızın qabağını kəsib dedim :"Alya, ya tebya lyublyu." O da, dedi :"net" və çıxdı getdi. Getdim evə anamdan soruşdum ki, "net" nə deməkdir, dedi "yox". Darmadağın oldum, elə pis oldum. Bir neçə gündən sonra oturub bir şeir yazdım:

***Sizdən bir cavab istədim,***
***Rusca mənə "net"- dediniz.***
***Saf eşqimi lağa qoyub,***
***Hərdən "privet"-dediniz.***
***Amma düşünmədin, gözəl,***
***Gördüyün iş, necə işdir?***
***Mən biləni anan sənə***
***Rusca laylay deməmişdir.***

Bax bu şeir idi südü "rüşvət" verib, çap elətdirmək istədiyim. O da alınmadı. Feyruz Atakişiyev dedi ki:" A bala, belə şeylər yazma, get."

Dedim:" Feyruz əmi, müəllim, axı yazmasam durammıram." Onda da dedi ki, get Lelindən yaz, Moskvadan yaz, Vətəndən yaz. Getdim, yazdım bu mövzularda, amma sonra özümün xoşuma gəlmədi, cırdım atdım. Beləcə 2 - 3 il keçdi. Axırı ki, o "İki arzu" şeirini yazdım:

***Sual verdi sevgilim, bir gün üz tutub mənə,***
***Nədir arzun həyatda, cavan şair, desənə?***
***Dedim həyatda yalnız, iki arzum var, ay qız,***
***Biri sənət dağının zirvəsinə ucalmaq,***
***Biri də ki, səninlə ömür sürüb, qocalmaq.***

Bu uydurulmuş şeirimi o vaxt çap elədilər. Amma burdakı "şair" sözünü çıxarıb, "oğlan" ilə əvəz eləmişdilər, elə bil dünya dağılacaqdı "şair" qalsaydı. Amma necə gözəl bir duyğu idi, İlahi. O dörd səhifəlik qəzetin vərəqləri elə bilirdim mənim qanadlarım idi, göylərə uçururdu məni. Yerə-göyə sığışmırdım sevincimdən. Məktəbdəki qızlar da mənə başqa cür baxmağa başlamışdı elə bil. Bütün rayon camaatı bəyənmişdi.

Gözəl günlər idi.

**- Seyran Səxavətin dustaq günləri çox olub?**

**S.S -** Həəəəə. Mənim elə bir şeirim də var. Olub, əlbəttə, yetərincə olub, ağır olub. Bildiyimiz dustaqxana kimi olmur ora, nə görüş günü verilmir, nə də bir dost-tanış pay tutub gəlmir yanına. Sənin mənə xatırlatdığın o dustaqxanaya heç nə qəbul edilmir. Ən çətin günlərim olub.

**- Həm deyirsiz ki, "mən görəni görməsin dostum, yadım.", həm də sonda açarları butılkaya qoyub atırsınız. Axı o da Ələddinin lampası kimi kiminsə qarşısına çıxa bilər?**

**S.S -** Görürsən, bax burda da həmin o dəli şeytanın rolu var, təsiri var. Sarsılmış psixoloji vəziyyətimdə mən o butulkanı suya atmaqla bəlkədə öz dərdimi dənizlə bölüşürəm, ya da onu tapacaq adamla həmdərd oluram. Heç özümdə bilmirəm niyə elə oldu. (Biraz fikrə gedir)

**- Son 10 ildə də "dustaq günləriniz" olub?**

**S.S -** Bilirsən, o günlər elə ömür boyu mənimlə yoldaşlıq edir. Ünvan eyni olmasa da məzmun eyni qalır. Elə bil ki, bir xasiyyətdir. "Dustaq günlər" də hamı üçün gəlmir ha. Gəlir, üzünə xoş baxırsansa ömür boyu səndən əl çəkmir, yol yoldaşın olur. Deyim ki o qədər də pis şey deyil. Adamı biraz möhkəmləndirən, psixoloji cəhətdən bir idmandır. Sözün yaxşı mənasında elə bil ki, o da bir imtahandır, bir sınaqdır, çək-çevirə düşmək və çıxmaqdır.

**- Deyirsiniz ki:**
**Bir əlimdə qələm**
**Birində iynə:**
**Biriylə kitab yazıram,**
**Biriylə gor...**

**Hələ də bir əlinizdə qələmdir, birində iynə?**



**S.S -** Əslində bu asılıdır yaradıcı adamın yəni müəllifin ovqatından. Elə bir söz yazırsan ki, bu qələmin içindən iynə çıxır. Elə bil maqnt çəkir onu. Çünki söz özü iynə övladıdır. İynələyirsən də. İynə də gözəl terapiyadır ha. Tibbi iynədən, tibbi terapiyadan danışmıram. Görünür ki, iynəsiz olmaz, yer üzündə ona layiq o qədər şeylər var ki. Xalq demişkən:"Gərək vaxtlı - vaxtında onları iynələyəsən. Peyvəndləri vurula." Yoxsa ağılları başlarına gəlmir.

**- Şeirinizin birində deyirsiniz ki: "Demirəm ağrıma, elə ağrı ki,**
**Anam dözümsüzdür, anam bilməsin."**

**S.S -** "Ürək" şeirimdir.

***Mən elə bilirdim sən bir dağsan, dağ***
***Əgər bahardırsa yarpaq ağrımaz,***
***Sən mənim sinəmdə bir ovuc torpaq***
***Mən elə bilirdim torpaq ağrımaz.***

Yaxşı şeirdir, yaxşı yadıma saldın. Bilirsən, bu düşüncənin nəticəsi və məhsulu ola bilməz, bu vəhyənən gəlir. Düşüncə bunu doğa bilməz. Yazanda düşüncə cəmi 10% , ürək isə 90% rol oynayır.

**- Bu şeirinizdə həm də anaların, ələlxüsus da Qarabağlı anaların oğlu ağrı çəkəndə hansı hissləri keçirməsini çox incə təsvir etmisiniz.**

**S.S -** Bizdə o bölgü belədir də, analar oğullara meyilli olur, atalar qızlara.

Mən tələbə olanda tətil günlərinə kəndimizə gedirdim. Qayıdıb gələndə atam yekə bir taxta çemodanı verib deyirdi:"Setiş, bunu da verərsən Zümüş gilə." İçində də bir cəmdək, yumurta, noxud, kənd toyuqları, nələr, nələr...

Mənə də bir hinduşka verib deyərdi ki:" Bunu da dostlarınla yeyərsən." Fərqi gördün. *(Gülür)*

İndi mənim də qızlarım bir tərəfədilər, oğlanlarım bir tərəfə.

**- Qız uşaqlarına çox həssaslıqla yanaşırsınız, Seyran müəllim.**

**S.S -** Bəli. Hətta mənim bir sözüm var:"Qızları sevindirin! Qızlar sevinəndə Allah sevinir. Allah da sevinəndə bəşəriyyətə qarşı daha mərhəmətli olur." Sən qızlarda gücə bax ey. Əgər mənim duyduğum və dediyim gücü enerjiyə çevirmək olasa, 5-6 qızın enerjisi ilə bütün Azərbaycanı işıqlandırmaq olar.

**- Ay Seyran Müəllim, 16 yaşındakı Seyran Səxavətin "sevirəm" deməyi ilə, 80 yaşlı Seyran Səxavətin "sevirəm" deməyində fərq var?**

**S.S -** Böyük fərq var. Əsas xətt qalır, bel sütunu kimi. Amma bu gün daha peşəkarcasına onu deyirəm mən. Elə bil sevgi məsələləri üzrə baş mütəxəss kimi. Burda da əsas ürəkdir.

Baş ürəyin diktəsi ilə işləyir. Tərsinə olarsa orda heç nə alınmayacaq. Bir fərq də odur ki, o vaxtkı səmavi bir şey idi, indi biraz yer ilə qarışıqdı. Bu da çox maraqlıdır, çox gözəldir. Dövr etibarı ilə ikisi də bir-birindən gözəldi. İnsanı yaşadan, gücləndirən, stimul verən bir vəziyyətdir.

**- "Özünü də sevirəm" şeiriniz də ilk sevgiyə həsr olunub?**

**S.S -** Ən dəlicəsinə sevdiyim bir yaşda - 15-16 yaşlarımda olub. Mən çox populyar şair olmuşam, özü də sevgi şeirləri şairi. Hətta həyat yoldaşımın xatirə dəftərindən də mənim şeirlərim çıxdı sonradan.

Bu yaxınlarda bizim Muradxanlı tayfası yubileyim münasibəti ilə mənə bir sürpriz elədi. Məndən başqa hamının xəbəri var imiş, hətta həyat yoldaşımın da. Doğum günümə bir gün qalmış, yəni martın 22-si məni şəhərdəki restoranların birinə dəvət etdilər. Bilirdim ki, ad günümə görə qonaqlıq verəcəklər. Çox gözəl bir məclis hazırlamışdılar, sağ olsunlar. Amma bir də bilirsən neyləmişdilər mənim o qanımdan, canımdan olanların? Bu "Sevirəm" şeirimin, bir də "İlk məhəbbət, son məhəbbət" şeirimin əsas qəhrəmanları ilə görüntülü canlı bağlantı qurub məni onlarla üz-üzə gətirdilər. Məni təbrik elədilər.

İkisinin də adı Sevda. Ağlamaq tutmuşdu məni. Sözü zarafata salıb dedim ki, bəlkə yığılıb bir televiziya kanalı açasınız. Əməlli başlı jurnalist araşdırması aparmısınız ki.

**- "Kölgə" şeirində tez itən kölgəniz haqqında danışmısınız. Kim idi o kölgə?**

**...Günəş çıxdı-çıxmadı**
**Hamının kölgəsi var,**
**Hər şeyin kölgəsi var.**
**Mənim kölgəm cavan getdi,**
**Bu dünyadan yavan getdi.**
**Elə bil ki, tək qoldum,**
**Kölgəm getdi tək qaldım...**

**S.S -** Off... Onun ruhuna mən qurban olum, dostum Adil Hacıyev. Sən onu bir dəfə görsəydin heç mənə salam verməzdin. İnsan nə qədər maraqlı adam idi. Allah! Allah! Allah!

Mən yaradıcılığımın 50%-ni ona borcluyam. Onu senatorun da qabağına çıxartmaq olardı, quldurun da, qırçının da. Adilin xarakterini tam təsvir etməsə də, bizim bir məsəlimiz var, deyir:"böyüklə böyük kiçiklə kiçik" - bax, elə idi. Universal səviyyə sahibi idi o adam.

İnsanda nə qədər ironiya, nə qədər sarkazm, nə qədər dərin fəlsəfi bir aspekt, bir prospekt...

Tez-tez gedirəm qəbrinin üstə. Gedirəm, söhbətləşirəm, sakitləşirəm.

Qəbrinin üstə gedib söhbətləşdiyim iki nəfərdi - biri Yusif Səmədoğludur, biri də Adil Hacıyev. *(Kövrəlir)*

**- Özünüzü harda qərib hiss edirsiniz?**

**S.S -** Pərvanə xanım, qəriblik hissi belədir ki, bu məkanla bağlı deyil. Həm də məkanla bağlıdır. Soruşarsan "bu nə təhər olur?" Deyim, məsələn, birdən öz vətənində, öz elində, öz obasında , qohumlarının arasında, öz ailənin içində adam özünü qərib hiss edir. Qəribçilik -ancaq ərazi, məkan məsələsi deyil. Olur ki, qərib bir yerdə özünü lap ananın qucağındakı kimi hiss edirsən. Qəribçilik elə bir hissdir ki, onu insanı ovqatı tənzimləyir. Bax bu gün burda elədiyimiz söhbəti uzaq Antraktidada da etsəydik, səni bilmirəm, mən özümü qərib hiss etməyəcəydim. Amma istər bu otaqda, istərsə də evimdə bəzən özünü "qələm sahibi" sayan elə "jurnalistləri" qəbul eləmişəm ki, qərib nədir e, onların yanında adam heç özünü hiss eləmir. Qəriblik hissi çox güclü bir hissdir. Ərazisi olmayan, ilahi, səmavi bir anlamdır. 4 tərəfə yolu olan bir anlamdır. Amma təsəvvür elə ki, onu insanın fərdi ovqatı tənzimləyir.

**(ardı 13-cü səhifədə)**

# Dəli şeytan deyir ki...

# Yardımlıdan Turana uzanan söz yolu



*Şamxal ŞƏMSƏDDİNOĞLU*

**Bəzi imzalar var ki, insan onları vaxtında tanımadığı üçün peşmanlıq hissi keçirir. Həmin imzalar gec tanınsa belə, daha dərin duyulur, daha təsirli qəbul olunur. Mənim üçün Rafiq Ələkbər məhz belə imzalardandır. Hər ikimizin eyni bölgədən - Yardımlıdan olmağımıza baxmayaraq, onun yaradıcılığı ilə gec tanış olmuşam. Lakin bu gecikmiş tanışlıq mənə sadəcə bir müəllifi deyil, bütöv bir söz dünyasını kəşf etmək imkanı verdi. Bu dünyanın qapısından içəri daxil olanda qarşıma yalnız şeirlər deyil, duyğuların, düşüncələrin və həyatın müxtəlif qatları çıxdı. Rafiq Ələkbər təkcə yazan deyil, həm də yaşadıqlarını, düşündüklərini və inandıqlarını sözə çevirə bilən müəllifdir. Onun yaradıcılığında sevgi də var, inam da, fəlsəfi axtarışlar da, insanın öz daxilinə yönələn sualları da. Elə buna görə də bu söz dünyası oxucunu sadəcə oxumağa yox, düşünməyə, hiss etməyə və bəzən də özünü sorğulamağa vadar edir.**

Rafiq Ələkbərin kitablarına nəzər saldıqca bu ilkin təəssürat daha da möhkəmlənir. Onun yaradıcılığı haqqında Azərbaycanın tanınmış ədəbiyyat adamlarının söylədiyi fikirlər də bu qənaəti təsdiqləyir. Xalq şairi Məmməd Araz, ədəbiyyatçı alimlərimiz Vaqif Yusifli, Rüstəm Kamal, Elçin İsgəndərzadə və daha neçə-neçə aydınlarımızın onun sözünə verdiyi dəyər təsadüfi deyil. Bu münasibət bir daha göstərir ki, Rafiq Ələkbər yaradıcılığı təkcə fərdi duyğuların ifadəsi yox, həm də oxucu ilə qurulan səmimi və dərin mənəvi körpüdür.

Onun poeziyasında həyat bütün rəngləri ilə yaşanır. Burada bütün fəsillər görüşür, burada bütün duyğular ümidə, inama, sevgiyə söykənir. Şair solan yarpağı da, açan çiçəyi də, uçan quşu da eyni həssaslıqla duyur və bu duyğunu oxucuya ötürə bilir. Bu isə sadəcə yazmaq deyil, hiss etdiyini yaşatmaq bacarığıdır. Məhəbbət mövzusu isə onun yaradıcılığında xüsusi yer tutur.

Şair yazır ki:

***Məhəbbət deyilsə bəs onda nədir,***
***Nədən yuxularım ərşə çəkilib?***
***Bircə odlamağı bacardın, gülüm,***
***Elə bil ürəyim şişə çəkilib.***

***

***Bəlkə də Tanrının şıltaq nazısan,***
***Yüz igid sındırdın yerdə azı sən.***
***Üzü yaz səmtəsən, bahar qızısan,***
***Mənim də həyatım qışa çəkilib.***

İlk və son bəndlərini təqdim etdiyim bu şeirdə sevgi yalnız romantik hiss kimi yox, həm də daxili mübarizə, seçim və taleyin bir parçası kimi təqdim olunur. Sevən insanın keçdiyi ziqzaqlı yol, ümidlə ümidsizlik arasında qalan duyğular oxucuya tanış və səmimi görünür. Bu baxımdan şairin sevgi haqqında dedikləri bir sual yox, artıq verilmiş cavab təsiri bağışlayır - o, sevməyi seçir və bunu gizlətmir. O, məhəbbətin nə olduğunu yazdan qışa qədər fəsillər boyu çatdırır oxucusuna.

O, sevməyi seçdiyini "Sevirəm" şeirində birmənalı şəkildə az qala hayqıraraq bizə çatdırır:

***Ağlım tab gətirmir qəlbin səsinə,***
***Yəni sevdalıyam, yəni sevirəm.***
***Məndən soruşurlar, o qız kimdir, kim?***
***Deyirəm hər kimdir onu sevirəm.***

Və elə buradaca onu da vurğulayım ki, Yardımlının Alar kəndində 1964-cü ilin aprel ayının 25-də doğulan Rafiq Ələkbər 1981-ci ildə həmin kənddə orta məktəbi əla qiymətlərlə, 1992-ci ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

30 ildən çox prokurorluq orqanlarında çalışıb. Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü olmuşdur. Rafiq müəllim çalışdığı sahə ilə əlaqədar olaraq daha çox özünü həsr etdiyi peşəyə zaman ayırmışdı. Yəni o, bir hüquq işçisi kimi fəaliyyət göstərdiyi dönəmdə həm adını, həm aid olduğu soykökü qorumağa, pak saxlamağa, şəxsiyyətini uca tutmağa nail ola bilmişdir. Həmkarları arasında sözbütövlüyü, gözütoxluğu, həm də səliqə-səhmanı ilə seçilmiş, ona müraciət edənlərin önündə özünü mükəmməl bir insan kimi, tutduğu mövqeyin layiqli təmsilçisi kimi ifadə etmişdir. Ona görə də onu tanıyanlar heç vaxt Rafiq Ələkbər barəsində xoş məramla, səmimi duyğularla fikir ifadə etməkdən çəkinməmişlər. Çünki Rafiq müəllimin qəlbində insanlığa dəyər vermək, uca tutmaq inamı həmişə üstünlük təşkil edib. Bu da onun vücudundakı vaxtını, zamanını gözləyən şair ruhunun özəlliyi idi. Və zaman bu özəlliyi onun qələminin nübarları ilə oxucuya çatdırdı.



Ötən əsrin 80-ci illərindən başlayaraq içindəki söz bulağı özünü büruzə verməyə başlamış, yazıları, şeirləri dövri mətbuatda çap olunmuşdu.

Rafiq Ələkbərin "Səndən ayrılanı, səndən küsəni" adlı ilk şeir kitabı 1999-cu ildə oxuculara təqdim edildi. Onun yaradıcılığına diqqət yetirəndə görürük ki, 2003-cü ildə "Mən Tanrı yolçusuyam", 2005-ci ildə "Ruhum əbədiyyətim", 2007-ci ildə "Eşq qəlbin ruhudur" şeir kitabları, 2007-ci ildə "Əsgər ac qalmayacaq" povesti , 2008-ci ildə "Seçilmiş əsərləri" şeirlər toplusu, 2011-ci ildə "İlahi nur", 2015-ci ildə "İrfan və eşq görüşləri", 2017-ci ildə Türkiyədə "İrfani aşk", 2021-ci ildə "Savalanla üz-üzə", 2025-ci ildə "Mənim fəlsəfəm" şeir kitabları və "İnsan alveri", "Qəsdən ölüm" adlı detektiv romanlarından ibarət kitabı çapdan çıxmışdır.

2025-ci ildə "Mənim fəlsəfəm" kitabı ingilis dilində, 2026-cı ildə "İnsan alveri", "Qəsdən ölüm" adlı detektiv romanlarından ibarət kitabları Türkiyədə türk və ingilis dillərində çap olunmuşdur.

Azərbaycan Respublikasın müxtəlif ədəbi ödülləri, o cümlədən "Qızıl Qələm", "Ustad sənətkar", "Araz" ədəbi mükafatlarına layiq görülmüşdür. 2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Müxtəlif illərdə çap olunan şeir və nəsr kitabları, eləcə də detektiv romanları onun yaradıcılıq diapazonunun genişliyini göstərir.

Türkiyədə çap edilən əsərləri, o cümlədən "İrfani aşk" şeirlər kitabına görə 2019-cu ildə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən Türk dünyası mədəniyyəti və ədəbiyyatında göstərdiyi xidmətləri qiymətləndirilərək həmin Akademiyanın Fəxri Doktoru seçilmiş və Elmlər Akademiyasının Beynəlxalq Qızıl Ulduz medalı ilə təltif edilmişdir. 2021-ci ildə həmin Akademiya tərəfindən Türk dünyasının Fəxri Ziyalısı seçilmiş və Atatürk Beynəlxalq mükafatı ilə təltif olunmuşdur.

"Savalanla üz-üzə" kitabına görə Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası tərəfindən 2022-ci ildə İlin şairi seçilmiş, dünya mədəniyyəti və ədəbiyyatına verdiyi töhfələrə görə Avropa Şərəf Ordeni ilə təltif edilmişdir.

Bu gün Rafiq Ələkbər imzası artıq təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da tanınır. Onun əsərlərinin ölkə xaricində də çap olunması, aldığı mükafatlar və qazandığı oxucu rəğbəti bunun bariz nümunəsidir. Məhz bütün bunlar söz dünyasına biraz gec gələn Rafiq Ələkbərin həm də güclü, istedadlı gəldiyini sübut edir.

Rafiq Ələkbər detektiv romanları ilə də oxucu marağını özünə çəkə bilib. Maraqlı olanlardan biri də budur ki, öz peşəsindən qaynaqlanan nasir detektiv romanlarında həyat təcrübəsinin ona qazandırdığı bilikləri bədii sözə ustalıqla çevirib və "İnsan alveri", "Qəsdən ölüm" adlı detektiv romanlarında oxucunu düşündürən səhnələrin qələmə alınmasında öz sözünü deyib.

Bu gün Rafiq Ələkbər imzası Azərbaycan oxucusu üçün həm tanınan, həm də sayğı qazanan bir müəllif imzasıdır. Ona görə də onun kitabları oxucunu ötüb getməkdən bir növü çəkindirir, dayanıb diqqət yetirməyə maraq yaradır. Bu da yazıçı uğurunu şərtləndirən səbəblərdən bəlkə də birincisidir. Əgər oxucu imzaya sayğı ilə yanaşırsa, deməli, o imza oxucuya birmənalı olaraq hər dəfə yeni nəsə təqdim edir. Oxucu qəlbinə yol tapa bilən R.Ələkbər şeirlərinin birində yazır:

***Sizin evinizə behişt deyərəm,***
***Məndən soruşurlar behiştin hanı?***
***Yolüstü bir dəstə gül alım sənə,***
***Bəlkə də telinlə dəyişdim onu.***

***Bu şəhər nə bilir kimik, naçiyik?***
***Bir dost kimi sizə gedirik qoşa.***
***Çatdıqsa qoy durum qapı ağzında,***
***Özünsə addımla yuxarı başa.***

.......................................................

***Qapılar hamıya ümid yeridir,***
***Qapıdan asılıb yellənən də var.***
***Qapı-qapı gəzib qız axtaran kim,***
***Qapı-qapı gəzib dilənən də var.***

***Bütün duyğularım qapı ağzında,***
***Bəlkə burda çatdım mən kamil yaşa.***
***Hələlik gözləyim qapı ağzında***
***Hələ haqq etmirəm yuxarı başa.***

Şairin "Qapı ağzında" şeirində dərin düşüncə ilə qarşılaşırıq. Buradakı qapı obrazı sadəcə bir məkan deyil - o, seçimdir, keçiddir, gözləntidir. İnsan həyatının müxtəlif mərhələlərində dayandığı o məqamı ifadə edir. İçəri keçmək də mümkündür, geri dönmək də. Bu isə şairin oxucuya ünvanladığı səssiz, amma düşündürücü sualdır. Rafiq Ələkbər o qapının ağzında hər şeyi düşünür və gəldiyi qərar da, çıxardığı nəticə də budur ki, hələ o qapıdan ən yuxarı mərtəbəyə qalxmağı haqq etməyib. O qapıya qədərki yolda hələ görüləsi işləri qalır. Bu isə şairin oxucu qarşısında həm də etirafıdır. Rafiq Ələkbər edə biləcəklərinin hamısını edə bilmədiyini, amma edəcəyinə ümidli olduğunu da gizlətmir. Bu məqamda poetik fikrin fəlsəfi fikirlə cilalanması az-çox ədəbiyyatı bilən hər kəsə bəlli olur.

Mənə görə istənilən mövzu yazar üçün açıqdır. Amma o istənilən mövzunu Rafiq Ələkbər kimi ədəbiyyata gətirmək və hopdurmaq artıq müəllifin istedadından, bir də yaratmaq əzmindən asılı olur. Çox maraqlıdır ki, Azərbaycanın fəlsəfə dünyasında, elm məkanında özəl yeri olan fəlsəfə elmləri doktoru, professor, əməkdar elm xadimi Camal Mustafayev Rafiq Ələkbər poeziyasından söz açarkən vurğulayır ki, "Rafiq Ələkbər dini etiqadlı şairdir. Bu amil onun bədii yaradıcılığına təsir edir". Filologiya elmləri doktoru Rüstəm Kamal isə vurğulayır ki, "Allaha, ruhlara bizdən fərqli olaraq bir köynək yaxın olan Göylər Rafiq Ələkbərin güvəndiyi, tapındığı ucalıq rəmzidir. Sağlığın - halallığın dəhnəsidir. Göylərə aludəlik, sözün yaxşı mənasında pərəstişlik şairin iç dünyasının təmizliyindən irəli gəlir".

Təqdim etdiyim bu iki fikrin özü onu göstərir ki, Rafiq Ələkbər həm də sözün fəlsəfəsinə könül verib. Ona görə də onun yaradıcılıq nümunələri böyük ədəbiyyat adamlarının diqqət mərkəzində olub və olmaqda da davam edir.

Rafiq Ələkbər yaradıcılığının diqqət çəkən cəhətlərindən biri də onun fəlsəfi qatıdır. Onun şeirlərində inam, Tanrıya bağlılıq və mənəvi axtarışlar açıq şəkildə hiss olunur. Bu isə onun sözünü daha dərin və çoxqatlı edir. Oxucu yalnız mətni oxumur, eyni zamanda onun arxasında dayanan düşüncəni də dərk etməyə çalışır.

Dəyərli eloğlum, tanınmış hüquqşünas və söz adamı olan Rafiq Ələkbər barəsində fikirlərimi qələmə alarkən məqsədim onu öz oxucularımıza, xüsusilə, doğulduğumuz bölgənin adamlarına biraz da yaxından tanıtmaq idi. Lakin yaradıcılığına baş vuranda bu istəyimdə biraz gecikdiyimi anladım. Çünki R. Ələkbər Yardımlıdan türk dünyasına yol çəkən, qapı açan imza sahibidir. Və o, bu yola çıxanda üzünü Allah və oxucularına tutub deyib ki:

***Talesiz məmləkətim,***
***Dağın arandan keçir.***
***Torpağının ətri də***
***Əvvəl şorandan keçir.***

***And ocağın Kəbədə,***
***Qan verməyə növbədə.***
***Elə daim tövbədə,***
***Tövbən Qurandan keçir.***

***Qismətin acısıyam,***
***Dəryanın damcısıyam.***
***Mən Tanrı yolçusuyam,***
***Yolum Turandan keçir.***

Zənnimcə, yolu aydın, məqsədi bəlli, xidməti göz önündə olan bir şairin, bir yazarın bu bəyanatı oxucuya şərhsiz hər şeyi deyir.

Rafiq Ələkbər yaradıcılığı ilə tanışlıq olduqca bir həqiqət daha aydın görünür: o, sözə təsadüfən gəlməyib, söz onu zamanla yetişdirib.

Əziz oxucular, gec də olsa kəşf etdiyim bir söz dünyasını Sizinlə bölüşmək istədim. Amma aydın oldu ki, bu dünya artıq öz oxucusunu tapıb və yoluna inamla davam edir.

**Dəyərli şairimizin, yazarımızın oxucularından biri kimi onu ömrün bu yazında salamlayır, doğum günü münasibətilə təbrik edir, davamlı yaradıcılıq uğurları arzulayıram! Yolunuz açıq olsun, əziz Rafiq müəllim!**

## *"Bakcell" "Spark@LANDAU" proqramının innovasiya tərəfdaşıdır*

**İnnovasiya lideri "Bakcell" gənclərin innovasiya və texnologiya sahəsində inkişafını dəstəkləmək məqsədilə LANDAU məktəbinin "Spark @ LANDAU" proqramına innovasiya tərəfdaşı kimi qoşulub.**

Adalet.az xəbər verir ki, "Spark @ LANDAU", məktəbin 8-11-ci sinif şagirdləri üçün nəzərdə tutulmuş startap və innovasiya proqramıdır. Proqram şagirdlərin ideyalarını real biznes mühitində formalaşdıraraq təşəbbüskarlıq bacarıqlarını praktik şəkildə inkişaf etdirir.

Proqramın əsas istiqamətlərindən biri olan "Təhsildə süni intellekt" təşəbbüsü çərçivəsində iştirakçılar təhsil sahəsinə yönəlmiş süni intellekt əsaslı layihələr hazırlayıblar. Final tədbirində ümumilikdə 19 komanda öz startap layihələrini təqdim edib. Təqdimatların nəticələrinə əsasən, münsiflər heyəti tərəfindən ən uğurlu 3 komanda qalib seçilib.

Tədbirdə çıxış edən "Bakcell"in ictimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova "Spark @ LANDAU" proqramının gənclərin innovasiya ekosisteminə erkən inteqrasiyasında mühüm rol oynadığını bildirib. Onun sözlərinə görə, proqram şagirdlərə ideyalarını məhsula çevirmək və təqdim etmək bacarıqları qazandırır. Süleymanova, həmçinin, "Bakcell"in süni intellekt və innovasiya təşəbbüsləri ilə bu istiqamətdə dəstəyi davam etdirdiyini vurğulayıb.

"Bakcell" süni intellekt və rəqəmsal həllər sahəsində həyata keçirdiyi təşəbbüslərlə ölkədə innovasiya ekosisteminin formalaşmasında aktiv rol oynayır.

Şirkət gənclərin texnologiya və startap mühitinə erkən inteqrasiyasını dəstəkləməklə, real təsir yaradan ideyaların inkişafına və gələcək nəsil innovatorların yetişməsinə töhfə verir.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

**"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**



Aysel KƏRİM
Bəstəkarlar İttifaqının mətbuat katibi

# Üzeyir Hacıbəyli Fenomeni Müasir Kamera–İnstrumental Musiqi Kontekstində

## İntellektual Qayıdış və Bədii Təfəkkürün Varisliyi

**Azərbaycanın musiqi mədəniyyətinin banisi, dahi bəstəkar və ictimai xadim Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamından irəli gələn tədbirlər planı çərçivəsində Azərbaycan Bəstəkarlar İttifaqında genişmiqyaslı elmi-praktiki konfrans və konsert proqramı keçirildi.**

Tədbiri giriş sözü ilə açan Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Firəngiz Əlizadə Üzeyir Hacıbəyli irsinin müasir dövrdə aktuallığını və gənc bəstəkarların, musiqişünasların yaradıcılığına göstərdiyi fundamental təsirini vurğuladı.

Musiqi ictimaiyyəti, tanınmış mədəniyyət xadimləri və professor-müəllim heyətinin iştirak etdiyi tədbirin fəxri qonaqları arasında Milli Məclisin deputatı Aydın Mirzəzadə də yer almışdır. Millət vəkili çıxış nitqində bildirdi ki, "Bu gün biz burada təkcə bir tədbir üçün deyil, Azərbaycan mədəniyyətinin simvolu Üzeyir Hacıbəylinin ölməz irsinə olan ehtiramımızı bildirmək üçün toplaşmışıq.

Konfransın elmi hissəsində musiqişünaslığın aktual problemlərini əks etdirən geniş məruzələr dinlənildi.

İlahə Qismət (Bəstəkarlar İttifaqının katibi) müasir bəstəkarların yaradıcılığında dahi sənətkara həsr olunmuş simfonik əsərlərin bədii-estetik xüsusiyyətlərini təhlil etdi.

Səadət Təhmirazqızı (Sənətşünaslıq üzrə fəlsəfə doktoru) müasir musiqişünaslıq elmində Üzeyir Hacıbəyli irsinə dair aparılan yeni tədqiqatların elmi əhəmiyyətindən bəhs etdi.

Aysel Kərim (Bəstəkarlar İttifaqının Mətbuat katibi) müasir bəstəkarların Üzeyir Hacıbəyliyə həsr etdiyi kamera-instrumental əsərləri mövzusunda məruzə ilə çıxış edərək, bu əsərlərin janr və üslub zənginliyini diqqətə çatdırdı.

Tədbirin bədii hissəsində müasir Azərbaycan bəstəkarlarının yaradıcılıq nümunələri səsləndirildi.

İlham Azmanlının "Arşın mal alan"dan Müqəddimənin dörd qanun üçün işlənməsi milli alətlərin ansambl tərkibində məna axtarışlarını təmsil edir. Müəllif bu layihə ilə milli musiqi təfəkkürünün hüdudlarını genişləndirərək, ənənəvi ifaçılığı intelektual müstəviyə yüksəltmişdir.

Sara Dilrubanın Tar və fortepiano üçün "Konsert Pyesi" milli alətlərin akademik üslubda vəhdətini və instrumental musiqinin geniş texniki imkanlarını nümayiş etdirir.

Üzeyir Məmmədovun "Yay səhəri" və "Ana və bala" romansları vokal musiqidə poeziya ilə melodiyanın psixoloji uyğunluğunu və janrın daxili zənginliyini əks etdirir.

Lalə Əhmədovanın Fortepiano üçün "Şur naxışları" əsəri muğam intonasiya sturukturunun müasir kompozisiya texnikası vasitəsilə fərdi yaradıcılıq prizmasından təcəssümüdür.

Həmçinin proqramda dahi bəstəkarın öz yaradıcılığına da yer verildi. Əməkdar artist Nərgiz Kərimovanın ifasında "Arşın mal alan" operettası - II pərdədən Gülçöhrənin elegiyası və I pərdədən Gülçöhrənin "Aşiq oldum" ariyası təqdim olundu.

Musiqi tarixində elə simalar var ki, onların yaradıcılığı zamanın xətti axınını üstələyərək əbədi bir "indiki zaman" kəsiyinə çevrilir. Azərbaycan musiqi intibahının memarı Üzeyir Hacıbəyli məhz belə bir zirvədir. Müasir bəstəkarlarımız üçün Üzeyir bəy obrazına müraciət etmək sadəcə keçmişə ehtiram deyil, bu, milli musiqi dilinin daxili enerjisindən güc alaraq müasir dövrün estetik suallarına cavab axtarmaq cəhdidir.

Azərbaycan musiqi mədəniyyətinin intibah dövrü Üzeyir Hacıbəyli dühasının fundamental prinsipləri üzərində bərqərar olmuşdur. Bu gün Hacıbəyli irsi sadəcə tarixi bir miras deyil, həm də müasir bəstəkarlıq yaradıcılığını qidalandıran canlı, dinamik bir estetik sistemdir.

Üzeyir Hacıbəyli dühası Azərbaycan mədəniyyətinin elə bir zirvəsidir ki, zaman keçdikcə bu zirvəyə baxış bucaqları dəyişsə də, onun fundamental əhəmiyyəti sarsılmaz qalır. Müasir bəstəkarlıq məktəbimiz üçün Üzeyir bəy irsi sadəcə sitat gətirilən mənbə deyil. O, mənəvi koordinat sistemidir. Bəstəkarlarımız kamera-instrumental janrda Hacıbəyli estetikasına müraciət edərkən, əslində milli kimliyin ən müasir qatlarını araşdırırlar.

Müasir müəlliflərin kvartetlərində, trio və sonatalarında Üzeyir bəy "ruhunun" necə transformasiya olunduğunu görürük. Hətta bəzi bəstəkarlarımız Üzeyir bəy mövzularını dekonstruksiya edərək, onları avantqard üslubda yenidən təqdim edirlər. Bu, klassikanın ölməzliyini sübut edən yaradıcı cəsarətdir.

Kamera-instrumental musiqinin təbiətindəki fərdiyyətçilik, bəstəkara imkan verir ki, Üzeyir bəyin monumental obrazını dəyil, onun ən zərif, ən lirik və bəzən də ən kədərli notlarını ön plana çıxarsın. Biz bu əsərlərdə xalq musiqisi ilə akademik musiqinin o məşhur "Hacıbəyli kəsişməsini" artıq 21-ci əsrin intellektual süzgəcindən keçmiş formada eşidirik.

Üzeyir Hacıbəyli Azərbaycanın hələ yazılmamış ən gözəl musiqisidir. O, zamanın fövqündə dayanan elə bir ucalıqdır ki, biz hər dəfə ona qayıtdıqca əslində özümüzü kəşf edirik. Və nə qədər ki bu torpaqda bəstəkar qəlbi döyünəcək, Üzeyir bəyin o müqəddəs nəfəsi hər zaman, hər yeni əsərdə yenidən doğulacaqdır.

Üzeyir Hacıbəyli fenomeni zamanın sərhədlərini aşaraq müasir bəstəkarlıq məktəbinin bədii-estetik koordinatlarını müəyyənləşdirir.

Müasir kamera-instrumental musiqi kontekstində bu qayıdış, Azərbaycan musiqi elminin və bəstəkarlıq düşüncəsinin nə dərəcədə dərin və sarsılmaz təməllər üzərində qurulduğunun sübutudur.

**Hacıbəyli yolu - intellektin, saflığın və milli ruhun müasir dünyada akademik təsdiqidir. Varislik isə bu yolun sonsuzluğunu təmin edən ən mühüm amildir. Üzeyir Hacıbəyli Azərbaycan musiqisinin həm təməli, həm də sonsuzluğa açılan pəncərəsidir. O, dünənimizdən gələn səsimiz, sabahımıza gedən yolumuzdur. Üzeyir bəy Azərbaycanın ruhunu notlara köçürən elə bir memardır ki, zaman keçsə də, biz hələ də onun qurduğu mənəvi ucalıqdan dünyanı seyr edir və hər bir akkordda öz kimliyimizin əbədiyyətini tapırıq. Onun musiqisi bizi hər zaman ayaqda tutan və gələcəyə aparan mənəvi varlığımızın ən sarsılmaz sütunudur.**



Emin Qəzənfəroğlu
hüquqşünas - mediator

# Azərbaycanda mediasiya institutunun inkişafı

## Mediatorlar üçün silsilə təlimlərə start verilib

**Bu gün ölkəmizdə, yəni Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində mediasiya institutunun effektivliyinin artırılması və sahə üzrə peşəkarlığın yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Bu məqsədlə, 28 aprel 2026-cı il tarixində mediatorlar üçün nəzərdə tutulmuş silsilə onlayn maarifləndirici təlimlərin ilk sessiyası uğurla başladılmışdır.**

Peşəkar hazırlıq və institusional əməkdaşlıq məqsədi və Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının aparıcı dəstəyi ilə təşkil olunan təlimlər Mediasiya Şurası və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə reallaşıb. Seminarın əsas hədəfi mediatorların peşəkar bilik və bacarıqlarının təkmilləşdirilməsi, mediasiya prosesinin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və məhkəmə orqanları ilə mediasiya institutları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsidir.

Praktiki məsələlər və məhkəmə təcrübəsi "ZOOM" platforması üzərindən onlayn formatda baş tutan təlimin əsas məruzəçisi Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin sədri Abbas Rzayev olmuşdur.

Təlim zamanı mülki məhkəmə icraatında mediasiyanın rolu xüsusi vurğulanmışdır. Abbas Rzayev mediatorlara məhkəmə təcrübəsində rast gələnən nöqsanlar və qarşıya çıxan problemlərin qanunvericiliyin tələblərinə uyğun həlli yolları barədə geniş izahlar vermişdir. Bildirilib ki, barışıq sazişlərinin hüquqi cəhətdən qüsursuz tərtib edilməsi həm tərəflərin məmnuniyyəti, həm də məhkəmə iş yükünün azaldılması baxımından strateji əhəmiyyət kəsb edir.

İnteraktiv müzakirələr və perspektivlər mediatorların böyük marağına səbəb olan seminar interaktiv diskussiya formatında davam etmişdir. İştirakçılar gündəlik praktiki fəaliyyətlərində qarşılaşdıqları peşəkar hüquqi suallara ekspertlər tərəfindən dolğun cavablar alıblar. Xüsusilə barışıq sazişlərinin keyfiyyətinin artırılması və icra mexanizmləri ilə bağlı məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılmışdır.

Qeyd edim ki, bu qəbildən olan təlimlər birdəfəlik xarakter daşımır. Məhkəmə-Hüquq Şurasının dəstəyi ilə mediatorların maarifləndirilməsi və mediasiya institutunun nüfuzunun artırılması məqsədilə silsilə tədbirlər mütəmadi olaraq davam etdiriləcəkdir. Bu isə ölkəmizdə alternativ mübahisələrin həlli mexanizmlərinin daha da təkmilləşməsinə və vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşmasına xidmət edəcəkdir

Xəzər Rayon Məhkəməsinin sədri, möhtərəm hakim Abbas Rzayev tərəfindən keçirilən təlim zamanı mediasiya prosesinin effektivliyinin artırılması və tərəflərin maraqlarının qorunması ilə bağlı mühüm məqamlara toxunulmuş, xüsusilə vurğulanmışdır ki, mediasiya zamanı bağlanan Barışıq sazişləri tərtib edilərkən Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin tələbləri mütləq şəkildə nəzərə alınmalıdır. Misal olaraq, sərhəd keçidi zamanı yaranan problemlər və onların həlli, təcrübədə ən çox rast gəlinən hallardan biri yetkinlik yaşına çatmayan uşaqların ölkə hüdudlarından kənara çıxarılması ilə bağlıdır. Belə hallarda tərəflər arasında əldə olunmuş razılığın icrası zamanı çətinliklərin yaranmaması üçün aşağıdakı hüquqi prosedurlara riayət olunması tövsiyə edilmişdir:

Qanunvericiliyin tələbi: AR Miqrasiya Məcəlləsinin 11.2-ci maddəsinə əsasən, yetkinlik yaşına çatmayan vətəndaş ölkədən getmək üçün hər iki valideynin notariat qaydasında təsdiq edilmiş razılığını təqdim etməlidir.

Sazişdə xüsusi qeyd: Mediasiya sazişində tərəflərin yalnız uşağın ölkədən çıxmasına razı olduqlarını qeyd etmələri kifayət deyil. Sazişdə tərəflərin bu razılığın icrası üçün notariat ofislərində xüsusi icazə forması verəcəkləri barədə öhdəlikləri də aydın şəkildə öz əksini tapmalıdır.

Maddi zərərin qarşısının alınması: Yalnız Barışıq sazişi ilə sərhəd-keçid məntəqələrinə müraciət edildikdə, notarial qaydada təsdiq edilmiş icazə sənədi olmadığı üçün vətəndaşların geri qaytarılması halları müşahidə olunur. Bu isə öz növbəsində həm vaxt itkisinə, həm də aviabiletlərin yanması nəticəsində maddi zərərə səbəb olur.

Bunlardan əlavə, Abbas Rzayev vurğulamışdır ki, müasir hüquq sistemində mübahisələrin məhkəmədənkənar həlli üsulu olan mediasiya xidmətinin inkişafı və təşviqi istiqamətində mühüm addımlar atılır. Bu prosesdə hakimlərin üzərinə düşən vəzifələr həm qanunvericiliklə tənzimlənir, həm də onların peşəkar fəaliyyətinin qiymətləndirilməsində mühüm amilə çevrilir. Qanunvericilik və hakimlərin təşəbbüskarlığı "Məhkəmələr və hakimlər haqqında" Qanunun müvafiq maddələrinə əsasən, hər bir hakim tərəflərin mübahisələrinin mediasiya yolu ilə həllini təklif etmələri. Bu, təkcə tövsiyə xarakteri daşımır, həm də məhkəmə iş yükünün azaldılması və vətəndaş məmnuniyyətinin artırılması üçün strateji bir yanaşmadır.

Məhkəmənin və hakimlərin bu sahədəki fəaliyyəti aşağıdakı praktiki addımlarla müşayiət olunur:

Məhkəmələrin inzibati binalarında mediasiya xidməti barədə məlumat lövhələrinin yerləşdirilməsi;

Lövhələrdəki məlumatların mütəmadi olaraq yoxlanılması və zəruri dəyişikliklərin dərhal edilməsi;

Dəqiq əsaslandırmaların aparılması kimi mühüm işlərin həyata keçirilməsi.

Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin gələcək işlərinin və peşəkar fəaliyyətinin qiymətləndirilməsi zamanı mediasiya xidmətinə göstərilən dəstək xüsusi nəzərə alınır. Hakimlərin bu istiqamətdəki aktivliyi onların fəaliyyətinin qiymətləndirilməsində müsbət amil kimi qəbul edilir və bu da öz növbəsində sistemin daha effektiv işləməsinə yol açır.

Möhtərəm hakimlərin mediatorlara verdiyi mühüm tövsiyələrdən biri də barışıq sazişlərinin keyfiyyəti ilə bağlı olmuşdur.

Barışıq sazişləri bağlanarkən diqqət yetirilməli olan ən vacib məqam, həmin sənədin gələcəkdə icra oluna bilməsi imkanıdır. Sazişin sadəcə kağız üzərində qalmaması, tərəflərin hüquqlarının real şəkildə qorunması üçün icra mexanizmlərinin düzgün müəyyənləşdirilməsi prioritet məsələdir.

**Nəticə etibarilə, mediasiya xidmətinin təşviqi həm ədalət mühakiməsinin əlçatanlığını təmin edir, həm də tərəflər arasında qarşılıqlı razılığa əsaslanan sivil həll yollarını stimullaşdırır.**

# Saçların uzanmasının Ayla əlaqəsi var

**Ayın fazaları dolayı yolla saçların uzanmasına təsir göstərə bilər.**



Adalet.az xəbər verir ki, belə bir qənaətə trixoloqlar gəliblər. Onlar bunun bədəndəki su balansına və insanın bioloji proseslərinə təsir edən təbii dövrlərə potensial təsiri ilə bağlı olduğunu izah edirlər.

"Ayın fazaları su balansına təsir göstərir. Bu da dolayı yolla saçların böyüməsinə təsir göstərə bilər. Dənizdə qabarma-çəkilmə suya təsir edərək maqnit sahəsini dəyişir. Burada da eynidir; biz müəyyən faiz sudan ibarətik", - deyə ekspertlər qeyd edib. Eyni zamanda, mütəxəssislər daxili amillərin - genetika, zülal səviyyəsi və vitamin səviyyəsinin - hələ də həlledici rol oynadığını vurğulayıb. Çatışmazlıqlar varsa, ay fazasından asılı olmayaraq saçlar daha yavaş uzanır.

Onlar hətta əlavə ediblər ki, bir çox bərbərlər ay təqviminə etibar edirlər, lakin bu, elmi cəhətdən sübut olunmayıb.

Qeyd edək ki, Ayın aypara, hilal və bədirlənmiş ay fazaları var.

# Dünyanın ən halal kişilərindən biri

**Fəxrlə deyə bilərəm ki, bizim çöldə biləyi, eldə çörəyi ilə tanınan oğullarımız az deyil. Sadəcə olaraq biz onları tanımırıq və tanımadığımız üçün də onları oxucularımıza təqdim edə bilmirik. Amma o şəxslər haqında danışırıq və yazırıq ki, həmin şəxsi yaxşı tanıyırıq. Və mən də bu gün məhz tanıdığım on yaxşı kişidən biri haqqında söhbət açacağam.**

Öncə deyim ki, mənim anam Yağlıvənd qızı olduğundan körpəlikdən bu kənddə böyümüşəm,bu kənd mənim üçün həmişə əziz olub. Hamı üzü qibləyə sarı yatanda mən üzü Yağlıvəndə sarı yatmışam. Anamın kəndi olaraq, bu kəndi qarış-qarış gəzmişəm, Yağlıvəndin daşını-kəsəyini, adi qanqal özəyini, tozunu-torpağını, hətta saralmış yarpağını da həmişə əziz tutmuşam. Ona görə də Yağlıvəndin bütün kişilərini özümə dayı, uşaqlarını isə dayımın balaları hesab etmişəm və indi də belə hesab edirəm.Kənd camaatını ailə üzvlərimi tanıdığım kimi tanıyıram.

Aslan müəllimi də ömrümün pöhrə çağlarından tanımışam. Bu tanışlığın qəribə tarixçəsi var. Belə ki, hər il dərslər bağlananda rəhmətlik Gözəl nənəm Şükürbəyliyə gələr və bizi Yağlıvəndə aparardı. Biz də bütün yayı Yağlıvənddə istirahət edərdik. Mənim altı yaşım olarkən yenə də Yağlıvənddə istirahət edirdik. Bir gün dayım oğlu Sərvan dedi ki, bəs erməni kəndinin voleybolçuları kəndimizə yarışa gəliblər. Gedək biz də tamaşa edək. Voleybol meydançası məktəbin həyətində, dayımgilin evi-nin yaxınlığında idi. Sərvanın bu təklifi lap ürəyimdən oldu. Bizim komandada bir cavan oğlan gözəl oyunu ilə hamını heyran qoymuşdu. Sərvan həmin oğlanı göstərib dedi:

-Bu oğlanın adı Aslandır, özü də Osman doxdurun oğludur. Oyunda onun qabağına çıxan yoxdu. Doğrudan da, Aslan çox gözəl oynayırdı. Beləliklə, Aslanla qiyabi tanış oldum. Onda Aslanın 15 yaşı olardı. Yağlıvənddə olduğum müddətdə hər gün gəlib onun oyununa tamaşa edirdim.

...Sən demə, Aslan həm də gözəl futbolçu imiş. Mən Yağlıvəndlilərlə erməni kəndlərinin birinin görüşündə bir daha şahidi oldum ki, Aslan özündən deyən oyunçulardan da gözəl futbolçudur.Erməni kəndindən xeyli erməni azarkeşləri də gəlmişdilər. Onlar həm də özləri ilə Ermənistanda 2-ci dərəcəli futbol hakimi olan Araik adlı bir gədə də gətirmişdilər. Oyunu da Araik idarə edəcəkdi. O da öz kəndinə istirahətə gəlmişdi. Nə isə, oyun başladı. İlk dəqiqədən bizimkilər üstünlüyü ələ aldılar və oyunun 3-cü dəqiqəsində Aslan gözəl bir qol vurdu. Oyun daha da qızışdı. Aslan sözün həqiqi mənasında od-alova dönmüşdü. Onu saxlamaq mümkün deyildi. Qol qolundalıncа gəlirdi. Birinci hissənin sonuna yaxın Aslan kmandasının 4-cü qolunu vurdu. Oyun mərkəzdən başlanar-başlanmaz rəqib komandanın kapitanının öz komandasına qarşı sərt məzəmmətləri eşidildi:

-Niyə gözünüzü döyürsünüz? Niyə oynamısınız? Arıq bir uşaq (Aslanı nəzərdə tutrdu. F.Ş.) size qatıb qabağına, meydança boyu belədən-belə qovur. Tutun, saxlayın onu, yıxın, nə edirsinizsə edin, amma qol vurmağa imkan verməyin.

Bu ara meydançada maraqlı bir olay baş verdi. Aslan bütün rəqiblərini aldadaraq qapıya yaxınlaşdı və ildırım süreti ilə topu rəqiblərin qapısına tərəf vurdu. Top qapıya çatmamış göydə ikən partladı. Paralamış topun bir hissəsi qapıdan keçdi, bir hissəsi də da qapının qırağından. Ozaman futbol toplarının içindəki kamer yüksək zərbədən partlaya bilirdi. İndi də belə olmuşdu. Hakim heç nə olmamış kimi özləri ilə gətirdikləri topu öz qapıçılarına atdı və "oyunu başla" işarəsini verdi.

Aslan isə oyunu dayandırdı, qaçaraq topun cırıq hissəlrini götürüb diqqətlə baxdı və mərkəzi göstərdi.

Hakim çiyinlərini çəkdi və bunun səbəbini soruşdu. Aslan əlindəki topun cırıqlarını hakimə göstərib mülayim tərzdə dedi:

-Əgər topun cırıq hissəsinin çoxu qapıdan keçibsə, qol sayılmalıdır.

Hakim gülümsədi, bir söz deyə bilmədi və o da mərkəzi göstərdi. Aslanın bu "kəşfi" sonralar böyük müzakirələrə səbəb oldu.

Sonradan öyrəndim ki, Aslan müəllim təhsil aldığı ali məktəbin futbol və voleybol üzrə komandalarının əsas oyunçusu olub.

**Tanıtma:** Aslan Osman oğlu 1947-ci ildə Füzuli rayonunun Yağlıvənd kəndində yaşayan çox ciddi, övladlarına qarşı tələbkar, eyni zamanda humanist və həssas bir ailədə dünyaya gəlib. Valideynlərindən mükəmməl tərbiyə alıb. Elə Aslan müəllim də valideynlərinə yaxşı övlad olub. Yaxşı övladlar isə yalnız valideynlərinə deyil, bütün xalqa məxsusdur. Atası Osman həkim çox səxavətli, əliaçıq, rəhmdil kişi kimi tanınırdı. Bununla belə o, uşaqlarına qarşı çox tələbkar idi. Uşaqlarının adi səhvini belə bağışlamaq istəmirdi. Yersiz danışmaq, yersiz gülmək onun xarakterinə yad idi. Övladlarını da belə görmək istəyirdi. Aslan müəllim də belə bir ailədə dünyanı tanıyıb, görüb-götürdüyü bu tərbiyə ilə böyüyüb. Bu övladların valideynlərindən aldıqları yüksək tərbiyə ictimai həyatda həmişə onların başını uca edib

Yağlıvənd kənd orta məktəbini bitirib. 1964-1969-cü illərdə Gəncə Kənd Təsərrüfatı İnstitutunda ali təhsil alıb. Ali təhsilli gənc mütəxəssis kimi doğma kəndindəki "Ukrayna" kolxozunda aqronom vəzifəsində əmək fəaliyyətinə başlayıb (1969-1971-ci illərdə )

1990-cı ildən 1995-ci ilədək Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

A.Mehdiyev iki dəfə "Şərəf nişanı" ordeni və "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir. Hazırda təqaüdçüdür.

Aslan müəllimin dediklərindən: "Yağlıvəndlilərin bir yaxşı xasiyyəti var ki, onlar dostluğa sədaqətli, kəsdikləri çörəyə həmişə sadiq olublar.

Aslan Mehdiyev çox gözəl, mənalı bir ömür keçib O, keçmişini xatırlayanda da sifətindən təbəssüm əskik olmur. Çünki o, məsul vəzifələrdə işlədiyi müddətdə həmişə ədalətli olub, hamının yanında alnıaçıq, başı uca dolanmağı hər şeydən üstün tutub.

Aslan müəllimin hafizəsi çox güclüdür. Ömrünün bu çağında uşaqlıq dövründən üzübəri olan maraqlı hadisələr onun yadından çıxmayıb.

Aslan müəllimlə söhbət edəndə bir daha hiss edirsən ki, Qarabağ təkcə əsrarəngiz gözəlliyi ilə seçilmir, bu cənnətməkan diyar yalnız folkloru, musiqisi, poeziyası, incəsənəti ilə səciyyələmirnir, o, həm də əqidəli, məqsədli, bütöv, kamil insanları ilə fərqlənir. Bu yerin insanlarını xoştəb edən, musiqiyə bələyən, söz çələnginə bükən, təmiz havadır, saf iqlimdir. Təbiətin gözəlliyi insanların içindən keçir. Bu gözəllik insanların həm daxili, həm də zahiri dünyasını zənginləşdirir, onların təfəkkürünü cilalayır, fikrini aydınlaşdırır, mənəvi aləmini saflaşdırır, milli ruhunu oxarlayır. Sözün kəsəri, kəsilən kəlmələrin dadı-duzu bununla bağlıdır. Xatırlatmaq yerinə düşər ki, Aslan müəllim özü haqqında danışmağı sevmir və tərifdən də xoşu gəlmir. Bu səbəbdən biz də onu yaxından tanıyanları dinlədik:

**Nəbi Muxtarov, Füzuli rayon ziyalısı, gənclik dostu:** Aslan Mehdiyev gənclik illərimin dostudur. Onun bütün həyatını əzbər bilirəm. O zamankı Gəncə Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirib Yuxarı Yağlıvənd kəndində aqronom işləyirdi. Az müddətdə kənddə yaxşı aqronom kimi ad çıxardı. Onun işgüzarlığı, sənətini sevməsi və yaxşı bilməsi artıq bütün rayonda onu yavaş-yavaş tanıdırdı.

Xasiyyətində olan mülayimlik, hamı ilə ünsiyyət qurmaq bacarığı, işgüzarlığı və gərəkli məsləhətləri ilə, eləcə də adamlarla qura bildiyi səmimi münasibətinə görə sevilirdi. Bəli, Aslan Mehdiyev hələ gənc yaşlarından rayon əhalisi arasında böyük hörmət qazanmışdı...

**Akif Rəfiyev, Azərbaycan Respublikasının əməkdar hüquqşünası, ədliyyə generalı:** Açığını deyim ki, o vaxt rayon partiya komitəsinin katiblərini əhali heç də həmişə qəbul etmirdi. Daha doğrusu, formal olaraq qəbul etməyə məcbur idi, amma ürəkdən qəbul eliyə bilmirdi. Aslan müəllimin sadəliyi, onun böyüklüyü, həmişə xalqın içində olması, onu duyması, onunla bir düşünməsində idi. Bu məqamlar da, elə onun müvəffəqiyyətinin açarı idi...

Qarabağ mövzusundan söz düşəndəonun həyəcanlandığının, qəhərləndiyinin şahidi olmuşam. Ailəsini , övladlarını sevən, torpağını, Vətənini sevən, Azərbaycanın gələcəyini



düşünən, bunun üçün narahatlıq keçirən hər kəs Aslan müəllimə bənzəməlidir, onun kimi olmalıdır. Belə şəxslərə bu gün Azərbaycanın böyük ehtiyacı var.

**Bünyad Məmmədov, polis polkovniki, "İgidliyə görə" medalının mükafatçısı:** 1989-cu ildə mən Füzuli rayon milis şöbəsinə rəis müavini təyin olundum. Həmin vaxt da rayonda ictimai-siyasi vəziyyət olduqca çətinləşmişdi. Ona görəki, Dağlıq Qarabağ Muxtar Vilayətində erməni ekstremistləris ərhədboyu yerləşən Azərbaycan kəndlərini mütəmadi olaraq atəşə tutur, yüksəklikdən avtomobil şinlərini partlayıcı maddələrlə doldurub kəndlərə atırdılar. Mal-qaranı talan edir, insanları isə girov götürürdülər. Rayonda baş verən bu hadisələr əhalini təngə gətirmişdi

1999-cı ilin yanvarında Aslan Mehdiyevi Füzuli RPK-nın birinci katibi təyin etdilər. Aslan müəllim işə başlayan gündən ictimai-siyasivəziyyəti normallaşdırmaq üçün tədbirlər keçirdi. Sərhəd boyu kəndlərin müdafiəsini möhkəmləndirdi. Erməni təxribatlarının qarşısını almaq üçün postlar yaratdı. Aslan müəllim iş fəaliyyətinin çox hissəsini sərhədyanı kəndlərdə yaşayan əhali ilə birlikdə keçirirdi.

Yaxşı yadımdadır, ermənilər Divanallar kəndinə hücum edib 15 nəfər girov aparmışdılar. Aslan müəllimin rəhbərliyi altında həmin girovlar azad edildi.

Hadisələrin gərgin dövründə səhər tezdən zəng edib məni yaşadığı evə çağırdı. Mən həyətə girəndə evin ətrafına gecədən düşərək dağıntılar törətmiş top və qrad mərmisinin qəlpələrini gördüm, təəccüblə onun üzünə baxıb sağ qalmasına şükür etdim. Aslan müəllim məndən xahiş etdi ki, bunu heç kimə bildirməyim, çünki əhali vahimələnib rayonu tərk edə bilərdi.

**Aydın Avşar, dostu:** "Aslan Mehdiyev təmənnasız dostlarımdandır. Onun dostluğunu, insanpərvərliyini mən belə təsəvvür edirəm. O, sanki susuz səhrada bitmiş qollu-budaqlı, dibində sərin bulaq olan bir ağaca bənzəyir.

**Əbdül Sultanov, Füzuli rayon ziyalısı:** 1990-cı ilin əvvəllərində Aslan müəllimin işgüzarlığı, istedadı və bacarığı nəzərə alınaraq, Füzuli rayon partiya komitəsinin birinci katibi vəzifəsinə təyin edildi. O dövrdə məlum hadisələrlə əlaqədar, rayonda çox böyük gərginlik hökm sürürdü. Bütün bu gərginliklərə və çətinliklərə baxmayaraq, Aslan müəllim işinin öhdəsindən qətiyyətlə gəlirdi. O, əynində hərbi geyim olmaqla tez-tez döyüş zonalarında olur və lazımi tədbirlər görürdü.

**Əbülfət Mədətoğlu, Əməkdar jurnalist:** Mən Aslan müəllimlə ömrünün 44-45-ci ilində tanışlığa, dostluğa imza atmışam. Və əsrin dörddə birini o səmimiyyətlə də yaşamışıq. Məncə hər adama nəsib olmur beləcə sakit, iç dünyada özünlə qalmağı bacardığın bir səviyyədə yaşayasan. Bax, Allahın sevdiyi bəndələrdən olan Aslan Mehdiyev ailədə də, el-obasında da, nəvələriylə əl-ələ tutub parka, bulvara gedəndə də həmin o rahatlığı özüylə gəzdirir, qarşılaşdığı adamlardan üzünü yana çevirmir, gözlərini gizlətmir. Həm də Aslan Mehdiyev əmin olmadığı, inanmadığı, güvənmədiyi heç bir məsələni, heç bir işi, hətta adamı belə önə çəkmir, qabartmır. Yəni o, insanların təkcə şəxsiyyətini deyil, həm də əməlini dəyərləndirir və ona müvafiq də qərar qəbul edir. Dəfələrlə birlikdə Xankəndinə səfərlərimiz olmuşdu. Həmin o ağır zamanda Xankəndinə tədbirlərə gedənlər rus ordusunun dəstəyindən yararlanırdı. Yəni onların mühafizəsindən istifadə edirdi. Ancaq Aslan müəllim bir dəfə də olsun əli silahlı rus əsgərini öz maşınına oturtmadı. Bu detalı ona görə vurğulayıram ki, mən onunla birlikdə keçdiyim o yollarda daxilən ona güvənirdim. İnanırdım ki, ona da, onun yanında mənə də heç nə olmayacaq. Və hər səfərimizdən sonra da bir daha belə etməyəcəyimizi dilə gətirsək də, amma Aslan müəllim öz qərarında qalırdı. Onun sadəliyi, səmimiyyəti, sözə münasibəti, bir də tutduğu vəzifəyə olan münasibəti birmənalı idi. Həyatda tanıdığım ən halal kişilərdən biri olan Aslan müəllim bu gün də o halallığın xeyir-duası ilə yaşayır. Çünki o, həmişə xalqın yanında olubdur.

**Əlövsət Başirli, yazıçı-publisist:** O vaxtlar Cəlilabad nəinki respublikada, hətta bütün ölkə-keçmiş SSRİ miqyasında sanballı, sayılıb-seçilən rayonlar sırasında idi. Və Aaslan Osman oğlu Mehdiyev belə bir rayonun İcraiyyə Komitəsinə ləyaqətlə başçılıq edirdi.

**Qəzənfər Hüseynov, ziyalı, gənclik dostu:** Aradan 25 il keçməsinə baxmayaraq, bu gün də Cəlilabad rayonunun camaatı Aslan Mehdiyevin əvəzsiz bir məmur olduğunu söyləyir, onu böyük hörmətlə xatırlayırlar.

**Kərəm Qurbanov, iqtisadçı, ziyalı:** Cəlilabad rayonunda Aslan müəllimin xeyirxahlığından, insan ləyaqətini uca tutan əməllərindən, alicənablığından, mərdanəliyindən haqqı-ədaləti müdafiə etməsindən indi də danışırlar.

Qılınc qurşananın, at minənin, körpü keçənin, yer oturanın, söz götürənindir - deyiblər. Bizdə söhbət əsnasında qapısı çal-çağırlı, evi qonaq-qaralı olan Aslan müəllimdən çox söz götürdük, çox hikmətlər öyrəndik. Biz qoçağın yanında qorxaq kişidən, qorxağın yanında qoçaq kişidən söz salmadıq. Şahidi olduq ki, əsaya söykənib gəzən bir qocaya bəzən bir el söykənər.

Mən bu yazını yazarkən tərif-tərənnüm yox, gerçəkliyin hamı üçün bəlli olması, həqiqətin hamı tərəfndən bilinməsi naminə yazdım. Yaşı yüzilliklərlə hesablanan, ağır-azman karvanlar qarşılayıb yola salan, qılıncı və qələmi ilə Azərbaycanın ictimai, iqtisadi, siyasi, mədəni həyatında rol oynayan Yağlıvəndin, Azərbaycan xalqının tarixində, taleyində iz buraxmış əmr əri, fərman qulluqçusu olan yağlıvəndlilərin tarixi fəaliyyətini xatırlatmağa çalışdım. Bu alındımı- alınmadımı? - bunu qədirşünas oxucularımızın ixtiyarına buraxırıq. Ömrünün müdrklik çağlarnı yaşayan Aslan müəllimə isə möhkəm can sağlığı, uzun ömür arzulayıram.

**Arzu edirəm ki, özünə və şəxsiyyətinə böyük hörmət bəslədiyim, əziz dayım Aslan Mehdiyev ağ yağış kimi yağsın, göy ot kimi göyərsin. İnşallah!**

**Faiq Şükürbəyli,**
**AJB və AYB-nin üzvü,**
**"Qızıl qələm" media mükafatçısı**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# Dəniz ruhlu şair

## (Şair-qəzəlxan-bəstəkar Hüseyn Sözlünün 80 yaşı tamam olur)

**Hüseyn Sözlü ədəbiyyata, bədii yaradıcılığa erkən yaşlarında meyl göstərsə də, yalnız doxsanıncı illərdə, yaşı "ekvator xəttinə" çatanda ilk şeirlər kitabını çap etdirmişdir. "Dənizə bağlıyam mən" ilk şeirlər kitabında onun dənizə bağlılığı - dəniz sevgisi - insan - dəniz vəhdəti öz əksini tapır: dənizin gözəlliyi mədh olunur, onun insana bəxş etdiyi mənəvi zövq - estetik hiss təbliğ edilir və dənizçi düşüncələri bu şeirlərin əsas mövzusudur. Nəticədə, Hüseyn Sözlü həm "Dənizə bağlıyam" şeirlər kitabında, həm də sonrakı illərdə qələmə aldığı şeirlərdə mükəmməl bir Dəniz obrazı yaradır.**

***Eşit , ey Günəş, ey Ay,***
***Dənizə bağlıyam mən.***
***Eşit, ey külək, ey şay,***
***Dənizə bağlıyam mən!***

***Dəniz, sənsən beşiyim,***
***Səninlə boy atmışam.***
***Sənsən evim, eşiyim,***
***Muradıma çatmışam.***

Qeyd edək ki, son əlli ilin Azərbaycan poeziyasında dənizə aid ən çox şeir yazan, onu vəsf edən şair Hüseyn Sözlüdür.

Hüseyn Sözlünün müxtəlif illərdə çap olunmuş şeirlərinə diqqət yetirəndə onun təkcə dənizə deyil , təbiətin ayrı-ayrı atributlarına - dağlara, ilin fəsillərinə, Naxçıvan təbiətinə, Araz çayına, Bakının gözəlliyinə də həsr etdiyi şeirləri üzərində də dayanmalıyıq. Xüsusilə, onun dağlara aid yazdığı şeirlər orijinallığı ilə seçilir.

***Çoban sürüsünü yayar düzünə,***
***Dumanı niqab tək çəkər üzünə,***
***Ayna bulaqları sıxıb köksünə,***
***Qurtarmaq bilməyir sözü dağların.***

***Ayağı xınalı kəklik səslənər,***
***Yamacında qoyun, quzu bəslənər,***
***Yağmuruna düşən hər kəs islanar,***
***Yağışda yuyunar üzü dağların.***

Beləliklə, Hüseyn Sözlünün şeirlərində Dağ obrazını da seyr edə bilirik. Həm də bu Dağ obrazı İnsan obrazı ilə, daha doğrusu, İnsan-Dağ vəhdəti ilə müşayiət olunur. O, dirilik şərbətini, ayrılıq qismətini və xiffətini, özünün həsrətini o dağlarda axtarır.

Hüseyn Sözlünün bu mənada təbiətə vurğun bir şair də adlandırmaq olar. O, müasir poeziyada H.Arif, M.Yaqub, Q.Qasımzadə, A.Laçınlı, M.Aslan, H.Kürdoğlu yolunu davam etdirir.

Əlbəttə, hər hansı şair, o cümlədən, H.Sözlü Azərbaycan təbiətindən gözəl şeirlər yaza bilər. Lakin Azərbaycan təbiəti (dağlar, dəniz, ilin fəsilləri və s.) Vətən obrazı ilə vəhdət təşkil etməlidir. Burada Xalq şairi Musa Yaqubun məşhur şeiri (sonuncu misrası "Orda Azərbaycan torpağı vardır") yada düşür. H.Sözlü də Azərbaycan təbiətinə həsr etdiyi şeirlərdə Vətəni - Azərbaycanı tərənnüm edir. Vətən isə nə qədər geniş məna və məzmun daşıyırsa, bir kənddən, bir şəhərdən, bir çaydan və şairin doğulduğu torpaqdan (Naxçıvandan) başlayır və sonra böyük Vətən obrazına çevrilir. Fikrimizcə, H.Sözlünün şeirlərində yaratdığı Vətən obrazının başlanğıcı Araz çayından başlanır:

***İllərin həsrəti, illərin qəmi,***
***Məni çəkib Araz üstə gətirir.***
***Qəlbimin yanğısı, gözümün nəmi,***
***Məni çəkib Araz üstə gətirir.***

***Arazım sinəmə çəkilən dağım,***
***Ayrı-ayrı yanır iki çırağım.***
***Culfada iki bölünmüş bağım,***
***Məni çəkib Araz üstə gətirir.***

Bu şeir də bütöv Azərbaycan idealı ifadə olunur.Vətənin bu tayından - Arazın sahilindən o taya həsrətlə boylanan şair "O taydan salamlar gətirən küləyin" səsinə qoşulur.

Hüseyn Sözlünün dünyaya göz açdığı Naxçıvana həsr etdiyi şeirləri də o gözəl, qədim diyarın gözəlliklərini (ona əziz olan hər bir daşını, haça dağlarına, nərə çəkən dəli dağlarını) gözlərimiz



qarşısında canlandırır. Bunlar təkcə şeir deyil, həm də canlı lövhələrdir ki, rəsmlənib.

Hüseyn Sözlü üçün yurd, ocaq, kənd anlayışları böyük Vətən anlayışının tərkib hissələridir.

***Odlar yurdu kimi düçübsən dilə,***
***Sənsiz yaşamaram bircə an bel.***
***Götür, bu Sözlünü qurbanlıq elə,***
***Əzəlim, sonluğum Vətənir, Vətən!***

Hər bir şairin öz ömür yolu, keçdiyi həyatı, yaşadığı illər haqqında yaşının yetkin çağlarında ürək sözlərini ifadə etməsi təbiidir - axı, şair cəmiyyətin seçilmiş fərdlərindən biridir, onun ömrü həm də keşməkeşli, çətin sınaqlardan keçir. Hüseyn Sözlünün "Yaşadım" şeiri bu mənada onun insan və şair ömrünü səciyyələndirir:

***Bu dünyanın yalanını, düzünü,***
***Bir-birindən seçə-seçə yaşadım.***
***Tufanlar adladım, boranlar keçdim,***
***Od-alovdan keçə-keçə yaşadım.***

Hüseyn Sözlünün bütün şeir kitablarında sevgi şeirləri üstünlük təşkil edir. İlk şeirlər kitabından sonuncusuna qədər bu şeirlər sevən bir ürəyin hiss və həyacanlarını ifadə edir - biz sevən insanın simasında məhəbbətə, sevdiyi insana sadiq bir aşiqin könül duyğuları ilə tanış oluruq. O, sevgini həyatının mənası hesab edir:

***Sevdim sən tək ay üzlünü,***
***Leyli xəyallı izlini,***
***İncitmə gəl, sev Sözlünü***
***Tək məhəbbət qalan olur.***

Sevgi şeirlərində məhəbbət lirikasına xas olan bütün komponentlər - hicran, vüsal arzusu, sevdiyi qızın zahiri gözəlliklərinin təsviri, onun gözəlliyinin təbiət cisimləri (güllə, çiçəklə, gülüstanla) müqayisəsi ehtiva olunur. ("O gül səni xatırladər"). Hüseyn Sözlü bu sevgi şeirində klassik poeziya ənənələrinə sadiq qalır, lakin heç bir şairi təqlid eləmir. Və bu şeirlərdə "insan niyə sevir, bu sevginin mənası nədir?" suallarına cavab tapırıq ("Sevilməkçün insan gəlir dünyaya, sevgi yoxsa, yaşamasan yaxşıdır").

Hüseyn Sözlü ədəbiyyata xalq şeirinin qanadlarında gəlib. Onun şeirlərinin böyük əksəriyyəti heca vəznindədir: qoşma və gəraylı formalarında qələmə alınıb. Qeyd edək ki, bu qoşma və gəraylılar sözlə səsin vəhdətini əks etdirən musiqi çalarları, axıcı intonasiya, ritmika ilə səciyyələnir. H.Sözlü həm də öz şeirlərinin bir çoxunun bəstəkarıdır. Müğənnilər bu bəstələri toylarda, şənliklərdə sevə-sevə oxuyurlar:

***Qış ömrümü yaz eyləyir,***
***Dərdi-qəmi az eyləyir,***
***Könlümü pərvaz eyləyir,***
***Sənin bircə təbəssümün.***

***Bülbülü gülə gətirir,***
***Sonanı gölə gətirir,***
***Eşqimi dilə gətirir***
***Sənin bircə təbəssümün.***

Hüseyn Sözlünün şeir "ərazisi" təkcə qoşma və gəraylılarla məhdudlaşmır. Onun qəzəl janrına meyl etməsi heç də təəccüb doğurmamalıdır. Hüseyn Sözlü klassik poeziyaya yaxşı bələddir, yoxsa onun 2022-ci ildə çap etdirdiyi "Divan"ı meydana gəlməzdi. Qeyd edim ki, o, "Divan - 2" kitabını da bu günlərdə oxuculara təqdim edib. Doxsanıncı illərdən başlayaraq şeirimizdə qəzələ, ümumən klassik poeziyaya yenidən qayıdış oldu. Müstəqillik dövründə Azərbaycan əruz ədəbiyyatının və qəzəlin inkişafında yeni bir mərhələ başlandı. Hüseyn Sözlünün "Divan" kitabına qədər ayrı-ayrı şeir kitablarında qəzəllər təqdim etməsi də təsadüfi deyil. Görkəmli ədəbiyyatşünas - əruz mütəxəssisi - professor Tərlan Quliyev Hüseyn Sözlünün "Divan"ına yazdığı ön sözdə qeyd edir ki: " "Divan" adətən hər bir şairin istər yaradıcılığının və istərsə də şəxsiyyətinin müdriklik dövründə tərtib olunur. Mənə elə gəlir ki, Hüseyn Sözlü bu gün hər iki mənada Divan tərtib etməyə haqqı çatan şairdir"

"Divan"da şairin qəzəlləri, fəxriyyələri, deyişmələri, saqinamələri, qəsidələri, həcvləri, qitələri, tərkibbəndləri, mərsiyələri, mürəbbələri, müsəddəcləri, müxəmməsləri, rübailəri ardıcıllıqla yerləşdirilib.

Özü də hər bir poetik nümunənin əruzun hansı bəhrində yazılması da qeyd olunur. Bu da bir daha sübut edir ki, Hüseyn Sözlü əruz vəzninin bütün ölçülərinə yaxşı bələddir.

O, qəzəl şeirində çox az işlənən münsəruh və səri bəhirlərinə də müraciət etmişdir. Daha çox onyaq bəhrlər olan rəmələ və həzəcə meyl edib.

Əlbəttə, onun qəzəllərinin əksəriyyəti məhəbbət mövzusundadır. Həm də bu qəzəllərdə o, mümkün qədər ərəb və fars sözlərindən az istifadə etməyə çalışıb.

*Dəli könlüm, geri dön bir dəli-divanəyə bax,*
*Unudub dərdi, qəmi mey yeri meyxanəyə bax.*
*Kimi eşq ilə yanır, heç də o biganə deyil,*
*Mənə söz verdi, gülüm, gəlmədi, biganəyə bax.*
*Məni Məcnun eləyib, bir gözəlin eşqi bu gün,*
*Məni kim gördü dedi, bir gələn əfsanəyə bax.*
*Telini oxşamağa qalmadı cürət belə, bil,*
*Qayıdıb bir geriyə, teldə olan şanəyə bax.*
*Yanıram atəşinə mən, Hüseyn Sözlü kimi*
*Dolanım başına mən, deginən pərvanəyə bax.*

**Hüseyn Sözlü müstəqillik illərində - yeni əsrdə şeirimizdə öz izini, cığırını açan bir şairdir. Biz də onu məhz öz Sözü olan bir şair kimi təqdim etdik.**

**(əvvəli 9-cu səhifədə)**

# Dəli şeytan deyir ki...

**- Onda deyə bilərikmi ki, adam harda özünü rahat hiss eləsə orda qərib deyil?**

**S.S -** Nə gözəl ifadədir, nə gözəl cümlədir. Möhtəşəm sözdür. Qəribliyi bundan yaxşı heç bir təriflə izah etmək olmaz.

**- Seyran müəllim, Dünya insanı nə vaxt aldadır?**

**S.S -** Sənə deyim o proses qarşılıqlı prosesdir. Necə deyirlər ki, sevgi qarşılıqlı olmalıdır. Bu da qarşılıqlıdır. İnsan ömür boyu Dünyanı aldatmala məşğuldur, Dünya da insanı. Bu birmənalı belədir.

Sual o qədər gözəl sualdır ki, əhsən sənə.

Yaxşı suallar həmişə konkret cavab istəyir. Cavabı uzatmaq elə bil o sualın dəyərini gözdən salmaqdır.

**- Ola bilərmi ki, insan özü aldanmağa meyilli olanda ya da elə bilərəkdən aldadılmaq istəyəndə dünya da onu aldadır, elə insanlar da?**

**S.S -** Ola bilər yox, bu dəqiq belədir. Hətta bir türk deyimi var:

"Öylə bir yalan de ki,
İnanmayım yalandır." - bax bu sən dediyindir. Bir fərd olaraq, insan olaraq aldadılmağa meyilliyik.

Sən məni çox uzaqlara aparırsan, yaxşı da eləyirsən.

Elə yalan var ki, həqiqətdən şirin, həqiqətdən real, həqiqətdən vicdanlıdır. Bax bunun adı "yalan" deyil, biz ona elə deyirik. Bu insanın psixologiyası ilə bağlı bir hisdir. Məsələn: gözəllik duyğusu super yüksək olan bir kişi bir xanımı çox sevir, bütün varlığı ilə sevir tutalım. Qadınsa ona biganədir. Amma qadın ona bircə dəfə desə ki, səni çox istəyirəm. Həmin kişinin ömrü minimum 10 il uzanar. Mən elə bilirəm. Ola bilər yanılıram. Amma mənə elə gəlir ki, mən heç yanılmıram.

**- Demisiniz ki:" Məni yazıçı edən düyanın üzünə yox, sözünə aldanmağımdır."**

**S.S -** Bax, orda da görürsən, dünya məni orda aldadıb. Amma sağ olsun ki, mənim ağlıma batan, o cadar-cadar olmuş hisslərimə su səpib o yalanla.

Dünya son dərəcədə yaxşı mənada seviləcək qədər qəlizdir. Və... bu qəlizliyin içində bir ilahi rahatlıq var.

**- Seyran müəllim, insanların çoxu dünyanın üzünə aldanır axı. Niyə?**

**S.S -** Çünki insanlar surətpərəstdir.

**- Deyirsiniz:"İnsanlar bir-birilərini tərəzi çıxandan sonra aldatmağa başladılar."**

**Niyə günahı tərəzinin boynuna yıxırsınız ki?**

**S.S -** Əvvəla, günahı kiminsə boynuna yıxmalıyıq. Ortada bir günahkar olmalıdır də.

Amma burda günahı kiminsə boynuna yıxmaqdan çox, tarix məsələsi var, xronologiya var, təqvim var burda.

Məsələn: Qabaqlar biri malını yemləmək üçün 2 ot tayası almalı idisə, deyərdi:"Bu tayalara neçə erkək verim?"

Satan da deyərdi ki, 5 erkək. Bununla da hər iki tərəf alverindən razı qalardı. Amma tərəzi çıxandan sonra belə olmadı.

**- Bəs insanlar bir-birini niyə öldürməyə başladı? Vaxtını bilirik ki, Qabilin Habili öldürməsi ilə başlandı. Bəs səbəb nə idi?**

**S.S -** Bax bu lap çətin sual oldu. Bizim şəriətdə də, Allahın nəzərində də bu pis sayılır, günah sayılır. Burda , əstəğfurullah, biraz da Allahın günahı var. İnsanın xislətində elə bir nöqtə olub ki, onu ya görməyib, ya özü qəsdən elə eləyib. Biz 21-ci əsrin adamıyıq da. Qədim dövrdə qalmamışıq, orta əsrlərdən gəlməmişik. Mən bunu nə ağlıma, nə qəlbimə sığışdıra bilmirəm. Çünki mən heç bir toyuq başı da kəsməmişəm, bir quş da öldürməmişəm.

Sən məni çox uzaqlara aparırsan, çox sağ ol. Sən yaxşı həmsöhbətsən.

Pərvanə xanım, mən sənə belə bir fikir deyəcəm. Təxminən 5-6 ay qabaq, durduğum yerdə belə bir nəticəyə gəldim. Hansı ölkənin adamlarının daha çox qəddar olmağını təyin etmək üçün mən öz aləmimdə bir meyar kəşf etmişəm. Hansı ölkələrdə ki, quşlar insanların lap yaxınına gəlirlər onlar ən humanist ölkələrdir. Əksinə olanlar isə ən qəddar ölkələrdir.

**- Bəlkə elə insanların bir-birini öldürməyinin səbəbini də ataq dəli şeytanın üstünə? Allahı günahlandırmayaq. Çünki Siz deyirsiniz ki, ideal olan, mükəmməl, kamil yalnız Allahdır.**

**S.S -** Mən bir dəfə televiziya verilişlərinin birində demişdim ki, insanlar dayanmadan gecə-gündüz günah edirlər, sonra da hər şeyi atırlar zamanın boynuna. Bu zamanın boynu nə yoğunluğunda imiş... və belə getsə, belə də gedir, axırda zəmanə bəşəriyyətin günah anbarına çevriləcək. Bu anbar da bir gün partlayanda dünyanın axırı olacaq. Birinci xəbərdarlıq oldu - pandemiya.

Hamımız onun içində olmaq şərtilə, deyirəm ki, insanlar çox qudurublar, çox harınlayıblar.

**Pərvanə Eyvazqızı**



# BAYAT



№ 82 (942)



*Ənvər ƏHMƏD*

## *Bu zülmü mənəm ki çəkirəm, ana!*

Yoxluğun əriyib gözümdən axdı,
Ölümün öldürdü mən qara baxtı.
Hönkürüb, hönkürüb bu gecə vaxtı
Qəbrini bağrıma bükürəm, ana!

Donub ruhum, canım sal buza dönüb,
Taleyim kor olub, ulduzum sönüb,
Üstümə bir dünya ağrılar enib,
Dağ kimi önündə çökürəm, ana!

Ağrınam, acınam, sızlar yaranam,
Bağrımın başında bir damla qanam,
Qıymazdın bu sayaq alışıb yanam,
Bu məhşər odudu, çəkirəm, ana!

Tanrım bu dərd-qəmi ömrümə yazdı,
Diriykən yanında qəbrimi qazdı,
Bu ağrı, bu acı bəlkə də azdı,
Qan-yaşdı gözümdən tökürəm, ana!

Ənvər gecə-gündüz qarğar fələyi,
Dönməz bu ölümə şair ürəyi,
Qəbrinin üstə ki, otu, çiçəyi,
Vallah, göz yaşımla əkirəm, ana!

## *Gəlmişəm*

Xocalı adlı balamı,
Qana bələyib gəlmişəm.
Uçurub könül qalamı,
Canımı oda sərmişəm.

Göz yaşım daş üstə bitib,
Şuşa boyda ömrüm itib.
Yaram məni boyda ötüb,
Dərdi gözümlə dərmişəm.

Yazım açmadı bir çiçək,
Dərdim qanımda bitəcək.
Ömrüm canımda itəcək,
Yaram üstə söz sərmişəm.

O daş yollar məni yedi,
Fələk səbr et, döz-döz dedi.
Gördüm Vətən can üstədi,
Bir də baxım göyərmişəm!

## *Ağlayır*

Ötsün asta-ata segah, şikəstə,
Od yağdı Vaqifin qəbrinin üstə,
Dağıldı yurd-yuva, torpağım xəstə
Qan sızır yaramdan gözüm ağlayır.

Yas tutdu Natəvan, hönkürdü Bülbül,
Olub Qaryağdının naləsi dil-dil,
Yoxdur Qarabağım, fəryad et könül
Sönüb od-ocağım, gözüm ağlayır!

Gəzdiyim oylaqlar geyindi qara,
Çəkildim Şuşada gözümdən dara
Vuruldu sinəmə əbədi yara,
Bulaqlar üstündə izim ağlayır.

Ay Ənvər, fələyin min bir oynu var,
Hanı gurşad səsli, qartallı dağlar,
Elə bil yoxmuş o gözəl çağlar,
Uçdu qəsri qallam, sözüm ağlayır!

## *Bilmirəm*

Geyib ayağıma bu sərt yolları,
Arzumun səddinə çata bilmirəm.
Bu boyda dünyanın ağırlığını,
Götürüb çiynimdən ata bilmirəm.

Öldü bu dünyanın gədası, şahı,
Nəydi dəlilərin günahı, ahı?!
Dünya inqə deyir, anası zahı,
Ləlimi, gümüştək sata bilmirəm!

Bir ovuc torpaqda bir dünya dərd var,
Canımın gözündə qan damar-damar.
Fələk ömrümüzlə oynayır qumar,
Başımı heç nəylə qata bilmirəm!

Zaman daşa basdı, qəddimi əydi,
Taleyin yumruğu başıma dəydi.
Neynim, aman Allah, axı, bu nəydi,
Yaramın üstündə yata bilmirəm!

Ənvər, bu ağrıyla bağrın talandı
Beləmi yazılıb, tanrımın andı?
Canım çırtdaq-çırtdaq od tutub yandı,
Qəvvasam, dərdimdə bata bilmirəm.

## *Sən olum*

Göy qurşağı üzüyünün qaşıdır,
Buz bulaqlar gözlərinin yaşıdır.
Baxışın könlümün məhək daşıdı...
Ərit məni gözlərinin odunda...

... Ya ömrünü ömrüm ilə başa vur,
Ya ömrümü tufana sal, daşa vur.
Ya bahar ol, gül üstündə şeh olum,
Ya könlünü sərinlədən meh olum.

Ya günəş ol, zərrəciyin olum mən,
Ya payız ol, yanağında solum mən.
Ya səhər ol, qızıl nurtək çilənim,
Ey qədrimi insan kimi bilənim!

Ya nəğmə ol, qəlb oxşayan söz olum,
Ya alov ol, qor altında köz olum.
Ya zirvəm ol, duman olum, çən olum!
Ya dünyam ol, mən sənləşim, sən olum!

## *Çəkinə-çəkinə*

Bir az çəkinə-çəkinə
Mən səni atdım
Yoxluğun içinə.
Daha dünənki
Gün kimi yoxsan,
Sabaha çatmaz əlin
Əriyər gözündə
Yoxluq heykəlin.
Sındı qanadın,
Gedişin getdi,
Gülüşün itdi.
Üç nöqtə qoyuram,
Bu şeirim bitdi...

## *İtir*

Ömrüm bu yollarda itir,
Ağla  məni gültək bitir,
Öldür məni yerdən götür,
Sıxma məni qanım çıxır.

Özüm özümdən düşmüşəm,
Küləm közümdən düşmüşəm.
Yaman gözümdən düşmüşəm,
Budaqla yarpaq kimiyəm
Bir ovuc torpaq kimiyəm.

Əlim çatmaz keçən günə,
Ürəyimdən keçən günə,
Dərd-qəmimi seçən günə,
Allah, bu səs, bu ün mənəm,
Dünənim yox, bu gün mənəm!
Üzüm-gözüm qırış-qırış,
Tale deyir: et yır-yığış,
Yaman soyuq gəlir bu qış,
Qaraltma sən gəl qanımı,
Özün oxu Quranımı!

Ölüm-olum arası az,
Dünya gödək, qəbir dayaz.
Ənvər şeiri dərdinlə yaz,
Dünya sığmır dünyasına
Dünya ağlar öz dünyasına.

## *Kimi*

Bu dünyanın üzü qara
Gecə üzündə xal kimi
Ölüm-itim, hamısı var
Bu həyat bir xəyal kimi.

Baş kəsilir, qan tökülür
Gedirəm, dizim bükülür.
Tanrının evi sökülür
Keyləşmişəm bir lal kimi.

Kim köç edir, kim yurd seçir,
Fələk enib kəfən biçir,
İnsan ağlı qanın içir,
Qalmışam bir sual kimi.

## *Ömrümə*

Göz yaşımla bitən gülsən,
Dil-dil olub ötən dilsən.
Bəlkə bir bulud gölüsən
Yağış kimi yağ ömrümə.

Kipriyimin ucunda qəm,
Gözüm dolu, kədər, ələm.
Doğulmaram hələm-hələm,
Çəkmə, çəkmə dağ ömrümə.

Səhər köçdü, axşam düşdü,
Ayaq dünyadan sürüşdü.
Fələklər baxdı, gülüşdü
Mənim üzü ağ ömrümə.

Dərk et, ömür əfsanədir,
Gülləri seç, ara bir-bir.
Dur get Quran xətm elətdir,
Baxa-baxa sağ ömrümə.

## *Şəkərim var...*

Şəkərim var, şəkərim,
Şəkər mənim şakərim.
Şəkər yeyir canımı,
Çox qaraldır qanımı.

Həkimlərin hərəsi,
Bir cür resept yazır.
Bu reseptlər elə bil,
Canıma qəbir qazır.

Onları qınamıram,
Hər nə yeyirsən zəhər.
Çoxu deyir ay şair,
Çalış yaşa birtəhər.

Əlacım yerimək idi,
Canımı sürüməkdi.
Həsrətəm ətə-yağa,
Bala, südə-qaymağa.

İnsaf yoxdu həkimdə,
Gerilik var çəkimdə...
Tez-tez söyləyir mənə,
Dostum, deyirəm sənə.
Şirin şey qəti olmaz
Pəhriz saxla sən bir az!
Yeyəsən qara çörək,
Əməl edəsən gərək
Həkimin hər sözünə.
Qəsd edirsən özünə...
Böyrəklərin işləməz
Gözlərin yaxşı görməz
Papirosda çəkmə sən
Araq, çaxır içmə sən.

Su iç gündə 3-4 litr,
Şəkərini bir az itir.
Dedim pəhriz saxla sən
Az-az yeyə bilərsən
Toyuq əti, dana əti
Göy-göyərti
Həftədə bir yumurta
Ayrı yemək yemə, ta...

Gözün tikir gözümə,
Mat-mat, baxır üzümə
Yazım tez iynəyə keç,
Təzə həyat tərzi seç
Əlavə amaril at
Çarəsiz deyil həyat...

## *Barışdı*

Eh əcəlin gözü kordu,
Kor gözüylə məni yordu.
Hər bir kəsin sonu kordu,
Yaram canıma darışdı.

Ha qaçdım mən ora-bura,
Dözdüm bu sərt vurhavura,
Loğmanım yox, ruhum yara,
Ömrüm əzabla barışdı.

Dərd-qəmimə bata-bata,
Sarındım ilan həyata,
Vaxt çürütdüm yata-yata.
Qanım dərdimə qarışdı.

Kim yoğurdu, kimsə yaptı,
Kimi yağlı kökə tapdı,
Həyat yolu çapa-çapdı,
Ram ol, könül bu yarışdı.

## *Yolçu*

(Özümə)

Yolçu, yolun uzundu,
Çarıq geyin dəmirdən
Bu yolların saçını
Bəyaz qartək ərit sən.

Qarşında dağ görünür,
Zirvəsi çox ucadır?
Bəlkə sənin ömrün
O dağlardan qocadır?!

Yoluna ilan çıxar,
Yolunda qurd ulayar.
Yolunda mənfur həyat,
İttək quyruq bulayar.

Fikir vermə, yeri, get,
Yolunda daşa dönən
Hər kəsə sən nifrət et
O sərt ölüm yoludur,
Sınmır, fələk qoludur
O yolun sön nöqtəsin
Ayağın tapa bilməz.
Get, get yolçu yolunla,
Ölümsüz bir dünya gəz.

## *Üşüyür*

Bu bir tanrı qarğışıdı,
Dərdim canımın yaşıdı,
Dondum, ömrümün qışıdı
Əzabım, cəbrim üşüyür.

Batmamışam günahıma,
Allahım batar ahıma,
Alov tökün görgahıma,
Yetimdi, qəbrim üşüyür.

Boğdu məni bu dərd-ələm,
Nəsə yaman tələsirəm.
Qultək dərdimə əsirəm,
Tələsir, səbrim üşüyür.

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 17 (2489) 8 may 2026-cı il

# BUGÜNKİ GƏNCLİK MÖHTƏŞƏM BİR TARİX YAZDI



**Bugünki gəncliyi heç kim qınamasın. Biz tez-tez belə bir fikir eşidirik: "Əşi, indiki gənclər bir az tənbəl, bir qədər də diqqətsizdir". Amma biz onu bilmirik ki, indiki gənclərin yaşadığı çətinlikləri, sıxıntıları və stressləri 30-40 il bundan əvvəlki gənc nəsil yaşamayıb. Hətta bizim özümüz də bu sıxıntıları görməmişik və çiynimizdə bugünki gəncliyin çiynində olduğu qədər ağır yük olmayıb. Bu kövrək çiyində belə ağır yükü daşımaq və eyni zamanda gənclik kimi formalaşmaq elə də asan məsələ deyil. Bunun üçün ən azından hər cür çətinliyə tab gətirmək, mənəvi cəhətdən güclü olmaq və eləcə də böyük ümidlərə söykənməlisən.**



Bugünki gənclik haqqında ən yaxşı fikri Ali Baş Komandan, prezident İlham Əliyev deyib. Ali Baş Komandan 44 günlük İkinci Qarabağ savaşında gəncliyimizə, onların igidliyinə, döyüşkənliyinə və vətənpərvərliyinə yüksək qiymət verərək bildirib ki, biz Qarabağ müharibəsini, yəni 44 günlük savaşı bugünki gəncliyin cəsarəti və qəhrəmanlığı hesabına əldə etmişik.

Bəli, bu sözləri bugünki gənclik haqqında prezident İlham Əliyev dəfələrlə müxtəlif yığıncaqlarda, Qələbə günündə səsləndirib. Təbii ki, buna heç kimin iradı ola bilməz. Biz həmişə düşünürdük ki, özümüzdən sonra gənc nəslin çiynində ağır yük qoyub gedəcəyik. Yəni işğal altında olan torpaqlarımız azad olunmayacaq, ərazi bütövlüyümüz təmin edilməyəcəkdir. Çox böyük fərəhlə demək istəyirik ki, yaşlı nəslin, eləcə də qocaların görə bilmədiyi işi - ərazimizin işğal altından azad olunması, eləcə də ərazi bütövlüyümüzün təmin olunması bu gənclər tərəfindən gerçəkləşdirildi. Bizim çiynimizdən, eləcə də öz çiyinlərindən ağır yük götürdülər. Belə bir gəncliyə, belə bir igid kütləyə kimin sözü ola bilər? Təbii ki, heç kimin.

Hər bir millətin zəngin tarixi, keçmişi, mədəniyyəti və əxlaqı olmalıdır. Azərbaycan xalqının da çox zəngin tarixi və keçmişi mövcuddur. Yəni indiki gənclik gözünü açıb Azərbaycan uğrunda canından keçən, həyatını qurban verən igidlərimizi görüb. İndiki gənclik Babəki görüb, Mehdi Hüseynzadəni görüb, general Həzi Aslanovu görüb. Bunları görən, onların qəhrəmanlığını filmlərdən izləyən gənc nəsil təbii ki, elə bu qəhrəmanlara da bənzəməli idilər. Düzdür, onlar müxtəlif dövrlərin, müxtəlif zamanın igidləridir. Amma birmənalı olaraq demək olar ki, bu qəhrəmanlar Azərbaycan tarixinə adlarını qızıl hərflərlə yazıb və bizim ən ağır günümüzdə canlarını qurban veriblər.

Heç şübhəsiz ki, gənclik də belə qəhrəmanları və igidləri özlərinin həyat yolu seçib və onlara oxşamağa çalışıblar. Daha doğrusu, elə onlara da oxşayıblar. Heç kim deyə bilməz ki, bizim gəncliyimizin Vətənə, milli dəyərlərə böyük sevgisi yoxdur. Çünki o gənclər uşaq bağçasında, ümumtəhsil məktəblərdə və eləcə də ali təhsil ocaqlarında xalqımızın tarixini, qəhrəmanlıq salnaməsini, mədəniyyətini yaxşı öyrəniblər. Daha doğrusu, onlara dərs deyən müəllimlər, alimlər, ziyalılar bu gənclərə düz yol göstəriblər. Vətəni sevməyən, onun yolunda döyüşməyə hazır olmayan və lazım gələndə şəhidlik zirvəsinə ucalmayan gənc ola bilməz.

Heç şübhəsiz ki, istər Birinci Qarabağ savaşında, istərsə də İkinci Qarabağ döyüşlərində, yəni 44 günlük böyük savaşda Azərbaycan gəncliyinin qəhrəmanlığını tək biz yox, dünya bildi və tanıdı. Dünya bildi ki, çox mərd, döyüşkən və igid oğullarımız 44 gün ərzində işğal altında olan ərazilərimizi düşmənlərdən təmizlədilər. Və birmənalı olaraq bütövlüyümüzü təmin etməyi bacardılar. Üstəlik də bizim gənclər ermənilər kimi faşist ruhunda tərbiyə almamışdılar. Bizim gəncləri valideynləri, bağça, ümumtəhsil məktəblər və ali təhsil ocaqları kamil insan kimi yetişdirmiş və tərbiyə etmişdi. Çünki erməni gəncləri Birinci Qarabağ savaşında mülki əhalimizə qarşı çox böyük qəddarlıq etmiş, onlara əzab-əziyyət vermiş, hətta ağaca bağlayıb üstlərinə benzin tökərək yandırmışdılar. Bax, bu erməni vəhşiliyinin bariz nümunəsi idi. Qocalara, uşaqlara rəhm etməmişdilər və onları gülləbaran etmişdilər. Amma bizim gənc əsgərlərimiz 44 günlük Qarabağ savaşında Xankəndində, Xocavənddə, Əsgəranda və digər yaşayış yerlərində oranı tərk edən mülki əhaliyə bir güllə belə atmamışdılar. Əksinə, onlara çay vermişdilər, çörək vermişdilər, su vermişdilər. Bu o deməkdir ki, Azərbaycan gəncliyi ən böyük bəşəri dəyərlərə və keyfiyyətlərə malikdir.

Mən İkinci Qarabağ savaşında Azərbaycan gənclərinin döyüşdə hansı qəhrəmanlıq göstərdiklərinin şahidi olmuşam. Şahidi olmuşam ki, onlar Vətəni, torpağı, Azərbaycanı canlarından da çox istəyiblər.

Şahidi olmuşam ki, gənclərimiz cəbhədə döyüşməklə yanaşı, on minlərlə gənc hərbi komissarlıqlara gedib cəbhəyə yollanmaq istəyiblər. Onlar növbə gözləyiblər, növbəsi çatanlar gedib, növbəsi çatmayanlar döyüşə hazır olublar. Hətta bizim kəndə qəhrəmancasına döyüşüb şəhid olanda belə gənclərin necə belə hayqırdığını, "Vətən" deyə dostlarını döyüşə çağırdıqlarını görmüşəm. Bu uşaqlar 44 günlük savaşın üçüncü günündə şəhid olan Eçin Süleymanovu çiyinlərində və əllərinin üstündə son mənzilə yola salıblar. Həmin anda Bəhmənlinin gəncləri and içdilər ki, elçinlərin qanı heç vaxt yerdə qalmayacaq. Biz hamımız bir nəfər kimi döyüşə gedəcəyik. Onlar döyüşə getdilər, bütün şəhidlərimizin qisasını aldılar və qızıl bir tarix yazdılar. O tarix belə idi: "Qarabağ- Azərbaycandır!"

**Mən bir neçə gəncimizin sinəsində bu yazını gördüm və sevindim. Sevindim ki, ay Allah, indiki gənclər Vətəni nə qədər çox istəyirlər. Onlar şəhid olmaqdan, ölümdən qorxmurlar. Əksinə, Vətən uğrunda şəhid olmağı və lap yüksək zirvəyə çatmağı özlərinin ali məqsədi bilirlər. Onlar bilirlər ki, bu qəhrəmanlıqla yeni bir tarix yazırlar. Bu tarix gənc nəslin yaşlı nəsil qarşısında bir hesabatıdır. Gənc nəsil bu hesabatı verdi və adını tarixə qızıl hərflərlə yazdı. Bu isə o deməkdir ki, Azərbaycan gəncliyi çox möhtəşəm bir gənclikdir, onun düşüncəsi, milli mənəvi dünyası həmişə bu xalqın ürəyi ilə döyünür.**

**Emin FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əntiqə Kərimzadə

# Taleyin sürgün oyunu

**Deyirlər ki, yazıçı və ya şair nəyi düşünürsə onun yaradır. Yaxud da həmin hissin sözlə şəklini çəkir. Bəlkə də ən çətin iş sözün çəklini çəkməkdir. Sözü-sözə calamaq, söz qoşmaq, söz çıxarmaq- bunlar hamısı sözün şəklin çəkməyin kölgəsində qalır. Söz isə bütün bunların fövqündə dayanır. Ümumiyyətlə, yazıçıların hadisələrə baxışları tam fərqli olur. Məsələn, adi insanlar küləyə, yağışa təbiət hadisəsi kimi baxırsa, yazıçı bunu daha obrazlı görür və ifadə edir.**

**Uzun illərdir vətəndən kənarda yaşayan yazıçı Əzimə Ağalarova da hər hadisəni obrazlı görən, sözün şəklini çəkən yazıçılardandır. Yazıçı uzun illərdir Almaniyada yaşasa da Şərq mədəniyyətini unutmamış, hətta bunu bütün əsərlərində göstərmişdir.**




**Dünyanın 47 ölkəsinə səyahət edən müəllif Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin bir -birindən necə fərqləndiyini, şərq qadınının özəlliyini əsərlərində xüsusi vurğulayıb. Nakam sevginin aliliyi, siyasi hadisələrin ölkələrə və cəmiyyətlərə təsiri kimi diqqətçəkən mövzular müəllifin əsərlərinin əsas qayəsini təşkil edir.**

**Yazıçının "Yıpranmış hayallerin peşinde" əsəri da məhz Azərbaycan- Türkiyə dostluğundan bəhs edir. Hadisələr sovetlər dönəmində (1980) cərəyan etsə də, qardaş ölkəyə olan sevgi mövzusu müstəqillik dönəmində də aktualdır.**

**Həyata yeni atılan azərbaycanlı bir gəncin israrla Türkiyəyə getməsi həm cəsarət, həm də sönməyən bir sevginin izahıdır. Bu sevgi əsərin qəhrəmanı Suzanı burulğanlı bir həyat yaşamağa məcbur edir. Həsrətindən divanə olduğu Türkiyə ona qucaq açdımı? Və ya onu necə qarşıladı? Bütün bu hadisələr, əlbəttə, oxucunu düşündürməyə başlayır. Suzan yaşadığı stabil həyatdan sanki qarışıq bir dünyaya düşmüşdü. Başına gələnlər üçün bəzən özünü qınayır, bəzən sevgisini lənətləyir, bəzən də Türkiyədən küsürdü.**

**Suzan bütün ağrılarının içində qarşılaşdığı ən gözəl "mənzərə" Kamal idi. Taleyin ona nələr gətirəcəyindən xəbərsizkən Kamal onun həyatına daxil oldu.**

**Taleyin ona oynadığı oyunun uzunluğu Bakıdan-Türkiyəyə, ordan İrana, İrandan Rusiyaya və Livana qədər uzanır.**

**Maraqlıdır, Kamalı da Türkiyə qədər sevən Suzan onunla xoşbəxt oldumu? Kamal onu xoşbəxt edəcəyinə söz verdiyi halda, onların həyatı necə dəyişdi? Bu dəyişiklikdə Suzanı qaranlıqlar qucdumu, yoxsa Kamala sarılmağı bacardımı? Yaz yağışı kimi yağan bu sualların cavabını oxucunun analizinə həvale edirəm.**

**Əsərdə diqqətçəkən məqamlardan biri də İsrail Kəşfiyyatının (Mossad) Suzanın həyatında mühüm rol oynamasıdır.**

**Əsərin əsas üstünlüklərindən biri də siyasi məsələlərin qabardılması, Azərbaycanda sovetlər dönəmində yaşanan çətinliklər və insanların bəzi ölkələrə səyahətlərinin məhdudlaşmasıdır.**

**Yazıçı sovetlər dönəmində Türkiyəyə səyahət etməyin necə çətin məsələ olduğunu əsərin əvvəlində çox dəqiqliklə qeyd edir.**

**Həyatın hər çətiniyini yaşayan Suzanın əsərin sonunda rahatlıq tapması yazıçının "Həyat davam edir" ifadəsinə nikbin münasibətidir.**

**Müəllif "Yıpranmış hayallerin peşinde" əsərini "Cənnətdə əzab" adı ilə Azərbaycan türkcəsinə tərcümə edib. Arzulayırıq ki, əsərin tərcümə varinatı çap olunub Azərbaycanda da yayılsın.**

# "Əsl kino adamı" kitabı təqdim edildi



**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kitab evində Azərbaycanın Əməkdar incəsənət xadimi, kinorejissor Elxan Cəfərov haqqında yazılmış "Əsl kino adamı" kitabının təqdimatı keçirilib.**

Təqdimatda kino adamları, sənət adamları, aktyorlar iştirak ediblər.Tədbirdə çıxış edənlər Elxan Cəfərov haqqında xoş sözlərini dilə gətiriblər.

Qeyd edək ki, Kinematoqrafçının həyat və yaradıcılığını əhatəli şəkildə özündə əks etdirən, şərti adı "Əsl kino adamı" olan sənədli-publisistik portret Şəhla Əmirli tərəfindən hazırlanmışdır. Monoqrafiyada Elxan Cəfərovun həyat yolunun, kino fəaliyyətinin ətraflı təqdimatı ilə yanaşı, çəkildiyi və çəkdiyi filmlərin təhlili oxuculara təqdim edilir, tərəf-müqabillərinin, həmkarlarının çıxışlarında "Azərbaycanfilm" kinostudiyasının müəyyən dövrünün yaradıcı mühiti, çəkiliş meydançalarında olan ab-hava diqqətə çatdırılır.Kitab geniş oxucu auditoriyası, kinematoqrafiya sahəsində çalışanlar və tələbələr üçün nəzərdə tutulub.




## "OZAN DÜNYASI" AŞIQ YARADICILIĞININ TƏBLİĞİ İB-də YENİ LAYİHƏ




**"Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinin növbəti layihəsi Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2026-cı il kiçik qrant müsabiqəsinin qalibi elan olunub. 2021-ci ildə fəaliyyətə başladığı gündən aşıq sənətinin təbliği istiqamətində mühüm işlər görən ictimai birliyin budəfəki layihəsi "Borçalı aşıq mühitini tanıyaq və tanıdaq" adlanır.**

İctimai birliyin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, layihənin həyata keçirilməsində əsas məqsəd aşıq sənətinin inkişafında tarixən mühüm rol oynamış Borçalı aşıq mühitini daha geniş müstəvidə təqdim etmək, bu mühitin aşıqlarına, onların ifalarındakı özünəməxsusluqlara diqqəti cəlb etməkdir. Bu bölgənin aşıqlarının özünəməxsus musiqi və dastan repertuarı mövcuddur. Borçalı aşıq mühitinin özəlliklərinə diqqəti yönəltmək üçün layihə çərçivəsində bu bölgənin aşıqlarının repertuarında zaman-zaman mühüm yer tutmuş aşıq havalarının təqdim olunacağı konsertin təşkil olunması nəzərdə tutulur.

M.Nəbioğlu onu da əlavə edib ki, ictimai birliyin "Ozan dünyası" adlı elmi-publisistik jurnalı işıq üzü görür, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə 2023-cü ildə "Sazbəndlik sənəti və sazbəndlər", 2025-ci ildə isə "Aşıqlar Qərbi Azərbaycanı tərənnüm edir" adlı layihələr uğurla həyata keçirilib.

## Peres "Real"da ciddi dəyişikliklər edəcək

**"Real"da cari mövsümün sonunda əhəmiyyətli dəyişikliklər həyata keçiriləcək. QOL.az xəbər verir ki, bu haqda "The Touchline" qəzeti məlumat yayıb.**

Klub prezidenti Florentino Peres genişmiqyaslı "təmizləmə"yə ehtiyac olduğunu düşünür. Buna görə də o, Madrd təmsilçisində ciddi dəyişiklikləri nəzərdən keçirir. Bildirilib ki, bir sıra oyunçuların satılma riski var. Vurğulanıb ki, "kral klubu"nun rəhbəri komandanın daxili problemləri haqqında daim danışmaqdan bezib. Bütün bunlar da İspaniya nəhənginin imicinə mənfi təsir göstərir. Həmçinin "Real"ın mövsümü kubok qazanmadan başa vuracağı gözlənilir. Komandanın yalnız La Liqada riyazı baxımdan şansları qalıb.

## *Xalq artisti: "Estetik əməliyyat insanı gözəlləşdirmir"*



**Xalq artisti Mələykə Əsədova gözəlliyinin açıqlayıb. Adalet.az xəbər verir: o, xüsusi pəhriz etmədiyini söyləyib:**

"İlk növbədə onu deyim ki, insanın daxili gözəl olmalıdır. Estetik əməliyyat insanı gözəlləşdirə bilmir. Mən əsla heç kəsə paxıllıq etmirəm.Daha sonra qidalanmama diqqət edirəm. Ancaq xüsusi pəhriz saxlamıram. Yağlı xörəkləri sevirəm. Axşam özümə yemək qadağası qoymuram. Səhər yemək yeməyə üstünlük vermirəm. Ancaq daha çox çalışıram ki, sağlam qidalanım".

## *Zeynəb Həsəni: "Qadınlar qocalmaqdan qorxurlar"*



**Zeynəb Həsəni ilk dəfə efirdə neçə yaşı olduğunu deyib. Adalet.az bildirir ki, müğənni 36 yaşını qeyd etdiyini söyləyib:**

"Ümumiyyətlə, bəzi qadınlar yaşlarını deməyə çəkinirlər. Elə bil yaşlanmaqdan qorxurlar. Axı qocalıq da bir gözəllikdir. İnsan öz saçının ağarmasını görür. Üzünə düşən təbii qırışları görür. Mənim 36 yaşım var, sevinirəm ki, bu həyatda yaşayıram, xoşbəxtəm. İnsan sağlam olanda və doğmaları yanında olanda həyatı doya- doya yaşayır. Məncə bu, böyük bxoşbəxtlikdir".

## *Müğənni: "İdman da sağlam qidalanmaq qədər önəmlidir"*



**Müğənni Nura Suri əlavə məşğuliyyətlərindən danışıb. Adalet.az bildirir ki, o, idmanla məşğul olduğunu söyləyib:**

"Oxumaq sənətimdir, idman isə hobbim. Boş vaxtlarımda kitab oxuyuram və idmanla məşğul oluram. Kizək sürürəm, boks üçün məşqlər edirəm. Deyim ki, idmandan da oxumaq qədər zövq alıram. İdman da sağlam qidalanmaq qədər önəmlidir".

## *Qumral: "Hər çətinliyə dözmüşəm"*



**Qumral Musayeva həyat yoldaşından ayrılan həmkarlarına səslənib. Adalet.az xəbər verir ki, o, atasız uşaq böytməyin çətinliyindən söz açıb:**

"Mən sənətimi ailəmi davam etdirirəm. Bu çətindir, amma çox gözəldir. Bu çətinliyin özü gözəldir. Hər çətinliyə dözmüşəm. Amma indiki gənc xanımlar ailə quranda çətinlik görmək istəmirlər. Mən də qaynana, baldız problem yaşamışam. Amma ailəmi atmamışam. Ayrılmaq haqda düşünməmişəm. Hətta hər hansı bir səhvim olarsa, anam mənim yox, yoldaşım tərəfini tutub.

Xanım həmkarlarıma onu demək istəyirəm ki, ayrılmasınlar. Övladi tək böyütmək çox çətindir".

Əntiqə

**Məmmədov Elxan Cahangir oğluna Abşeron rayonu, Buzovna Tərəvəzçilik Südçülük Sovxozu tərəfindən 0.10 ha fərdi yaşayış üçün torpaq sahəsinin ayrılması barədə verilmiş əmr itdiyi üçün etibarsız sayılır.**

***

**Mərkəzi Seçki Komissiyasının 13 saylı dairəsinin aparıcı məsləhətçisi İlahə Mirsalayevanın 13/12 nomrəli iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Elşad Həsənov, Rəhman Salmanlı, Loğman Rəşidzadə, Tofiq Yusifov və Faiq Qismətoğlu **İbrahim Mehdiyevə** həyat yoldaşı

**Elmira xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağılığı verirlər.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 277
Çapa imzalanmışdır: 07.05.2026